

Sadə, səmimi, təmkinli və ədalətli...

Səh: 2-də



Adnan Əhmədzadə ilə Mübariz Mənsimovun kəsişən yolları

Səh: 10-da



Qaç, Nəsimi, qaç, yoxa çıx, izin-tozun qalmasın...

Səh: 13-də

Azərbaycan Qarabağ - Qarabağ Azərbaycandır!


www.tezadlar.az

# TƏZADLAR

tezadlar@gmail.com





№01 (2397) * 13 yanvar 2026-cı il * İctimai-siyasi hüquq qəzeti * Qəzet 1993-cü ildən çıxır * Qiyməti 50 qəpik

# Hakim Rauf Əhmədovdan atası Tağı Əhmədova şikayət ediləcək!




Dünən Bakı Şəhəri Nizami Rayon Məhkəməsinin hakimi Rauf Əhmədovun icratında olan İş № e-2(007)-3734/2025 saylı mülki iş üzrə Qətnamə qəbul edildi. İddiaçı mənəm-jurnalist Asif Mərzili...



Su ilə bağlı Dövlət Proqramı təsdiqləndi

Bax səhifə 2

YAP Yasamal Rayon Təşkilatında "UĞURLARIMIZLA 2026-YA" Milli Mükafatı təqdim edildi ✓3

Məhkəmə qərarlarına meydan oxuyan "qəhrəman" ✓4-8

Maduronun həbsi və AZAL-ın qəzaya uğrayan təyyarəsi ✓7

Fermerimiz saxlamağa mal-qoyun axtarır, Latviya və Livan ətinə isə qadağa qoyulur ✓8

Hövsanda stadion ələ keçirildi, hasarlandı ✓11

Razi Nurullayevin qardaşının qətlini sifariş verən kim idi? ✓12

Bax səh.2

## Saxta medal fəaliyyəti üzrə cinayət işləri məhkəməyə göndərildi

Bax səhifə 4



"Hər ay sığortaya pul ödəyirəm, amma..."

Bax səhifə 5




Medal bol olarsa...

AMEA-nın müxbir üzvü Vaqif Quliyevin oğlu Emin Quliyev dələduzluq edib? ✓13



Yekaterinburqda Azərbaycan ailəsi Yeni il hədiyyəsinə görə təqibə məruz qalıb... ✓6



"Azerbaijan Kids Fashion Show 2026" - MÖHTƏŞƏM FİNAL GECƏSİ ✓9



# Su ilə bağlı Dövlət Proqramı təsdiqləndi

**“Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026?2035-ci illər üçün Dövlət Proqramı” təsdiq edilib.**

Bununla bağlı Azərbaycan Prezidenti İlham Əliyev Sərəncam imzalayıb.

Sərəncama əsasən, “Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026/2035-ci illər üçün Dövlət Proqramı” (bundan sonra - Dövlət Proqramı) təsdiq edilib.

Nazirlər Kabineti Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini əlaqələndirməli və icrasına nəzarət etməli, Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Prezidentinə məlumat verməli və bu Sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir.

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirməlidir.

Maliyyə Nazirliyi və İqtisadiyyat Nazirliyi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilmə mexanizmlərinə uyğun olaraq, hər il Azərbaycan Respublikası dövlət büdcəsinin və dövlət investisiya proqramlarının tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması, eləcə də digər mənbələrdən vəsaitlərin cəlb edilməsi istiqamətində müvafiq tədbirlər görməlidirlər.

# Sadə, səmimi, təmkinli və ədalətli...

## Professor İlham Rəhimovu hamı belə tanıyır və sevir...



**Mən universitet mühitində çox fərqli adamlar görmüşəm: elmi ilə böyük alimlər, illərin qocaman professorları, yüksək vəzifə tutan müəllimlər... Xüsusən də hüquq fakültəsində cəmiyyətdə böyük nüfuza, rütbəyə, vəzifəyə malik insanların dərs deməsi adi haldır. Amma universitet tələbələri müəllimi nüfuzuna, cəmiyyətdə tutduğu mövqeyə, vəzifəsinə və ya imkanlarına görə sevmirlər. Haradasa sözünün keçməsi, nüfuz sahibi olmaq auditoriyada tələbə sevgisi qazandırmır. Hətta çox böyük savad və intellektual baza da bəzən bu sevgini təmin etmir.**

Tələbə gözü ayrıdır, tələbə ürəyi çox həssasdır. O, müəllimi savadına, sadəliyinə, ədalətinə və insani keyfiyyətlərinə görə qəbul edir. Tələbə sevgisi çox yüksək və çətin meyardır.

Bilirsiniz ki, professor İlham Rəhimov həm alim, həm də insan olaraq kifayət qədər nüfuzludur, elmi və ictimai çəkisi böyükdür. Onun nüfuzu Azərbaycanın hüdudlarını aşır, bu barədə çox danışılıb. Amma onu bir də tələbələrin gözündə görmək lazımdır.

Tələbələr onu sadə, səmimi, yüksək mədəniyyətli bir müəllim kimi tanıyır və heç bir məcburiyyət olmadan dərsinə tələsirlər.

İlham müəllimin böyük nüfuzu tələbələr üçün həm məsuliyyətdir, həm də inam mənbəyidir. Onlar ona baxaraq gələcək davranışları üçün örnək götürürdülər. Auditoriyada gərginlik, imtahan qorxusu peşəyə sevgi, dərsə maraq və gələcəyə inamla əvəzlənirdi.

İlham müəllim tələbələrin öz həyat modellərini qurmasına təsir edəcək qədər sadə və əlçatan idi. Onun nüfuzu tamamilə hörmət və simpatiyaya çevrilirdi. Bu qədər savadlı olmaqla yanaşı, sadəlik, mehribanlıq və mərdlik onun davranışında açıq-aydın hiss olunurdu və tələbələrə rahatlıq, məmnunluq gətirirdi.

O, elmi biliyini nümayiş etdirməyə yox, paylaşmağa üstünlük verən alimlərdəndir. Elə buna görə də onun dərsləri sadəcə proqram materialı ilə məhdudlaşmırdı: bu dərslər hüquqi düşüncə, peşə etikası və həyat dərsi idi. Tələbə onun üçün sadəcə, dinləyici yox, şəxsiyyət və gələcək həmkar idi!

...Mən bilərəkdən professor İlham Rəhimovun elmi adlarından, gördüyü böyük işlərdən, müxtəlif dillərə tərcümə edilib çap olunmuş kitablarından, cəmiyyətdəki mövqeyindən başlamadım. İstədim ki, onun çoxlarına görünməyən tərəfini - illər boyu müşahidə etdiyim insani keyfiyyətlərini önə çəkim.

İlham müəllim alim və hüquqşünas kimi hələ sovet dövründə özünü sübut etmiş, kitabları, monoqrafiyaları, hazırladığı proqram və elmi təklifləri ilə çoxdan qəbul olunmuş şəxsiyyətdir. Amma onun hər kəsi heyran qoyan əsas cəhəti sadəliyi və mərdliyidir!

***

Bakı Dövlət Universitetinin Hüquq fakültəsində İlham müəllimi uzun illər müşahidə etmişəm. Əminliklə deyə bilərəm ki, o, auditoriyada necə idisə, auditoriyadan kənarda da elə idi - səmimi, təmkinli, prinsipial və ədalətli.

Zəngin və məhsuldar bir ömür yaşayan İlham Rəhimovun elmi fəaliyyəti Azərbaycan hüquq elminin mühüm səhifələrindən biridir. Cinayət hüququ və kriminologiya sahəsində apardığı tədqiqatlar, yazdığı fundamental əsərlər hüquqşünaslar üçün etibarlı elmi mənbədir.

***

...Böyük ürəyə sahib, sadə, səmimi və mərd İlham Rəhimovun 75 yaşı tamam olur. Əlamətdar yubiley münasibətilə onu səmimi qəlbdən təbrik edir, möhkəm cansağlığı, uzun ömür və elmi yaradıcılığında yeni uğurlar arzulayıram.

**Məhəmməd İMANLI,**
**Professor**



# Qaribaşviliyə 5 il həbs verildi

**Gürcüstanın keçmiş Baş naziri İrakli Qaribaşvili 5 il müddətinə azadlıqdan məhrum edilib.**

Bu barədə Gürcüstan Baş Prokurorluğu bəyanat yayıb. Bildirilir ki, ona əlavə cəza olaraq 1 milyon lari (630 min AZN) məbləğində cərimə təyin edilib.

Həmçinin qeyd edilib ki, Qaribaşvili günahını etiraf edib və prosessual sazişin şərtləri ilə razılaşıb.

Prokurorluq ayrıca vurğulayıb ki, məhkəmə artıq qanunsuz gəlirlərin leqallaşdırılmasında ittiham olunan keçmiş hökumət başçısı üçün həbs seçilməsi barədə ittiham tərəfinin vəsatətini təmin edib. Eyni zamanda məhkəmə onun evində aşkar edilmiş pulların dövlətin xeyrinə müsadirə edilməsi barədə qərar çıxarıb.

Xatırladaq ki, İ.Qaribaşvili 2013-2015-ci və 2021-2024-cü illərdə Gürcüstanın Baş naziri olub.

Tbilisi Şəhər Məhkəməsi ötən ilin oktyabr ayında Qaribaşvili barəsində 1 milyon lari məbləğində girov qətimkan tədbiri seçib. Qərara əsasən, Qaribaşvili pasportunu təhvil verməli və ölkəni tərk etməməlidir.

# Saxta medal fəaliyyəti üzrə cinayət işləri məhkəməyə göndərildi

**Əvvəllər məlumat verildiyi kimi, ölkə ərazisində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanaraq ibtidai istintaq aparılıb.**

Bu barədə Baş Prokurorluğun Mətbuat xidməti məlumat yayıb.




Bildirilib ki, ibtidai istintaqla “Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri” İctimai Birliyinin sədri Mehdi Mehdiyev, “Azərbaycan Vətən Müharibəsi Veteranları” İctimai Birliyinin sədri Füzuli Rzaquliyev və “Beynəlmiləlçi Əlil Döyüşçülər” Fondunun prezidenti Sərraf Orucovun səlahiyyətləri olmadığı halda, təsis etdikləri müxtəlif adda medal və döş nişanlarını pul müqabilində və şəxsi münasibətlərə görə çoxsaylı şəxslərə təqdim etməklə, dövlət orqanları tərəfindən müvafiq xidmətlərinə görə vətəndaşlara verilən orden və medallara münasibətdə cəmiyyətdə yanlış təsəvvür və çaşqınlıq yaratmalarına əsaslı şübhələr müəyyən edilib.

Belə ki, qanunvericilikdə, o cümlədən “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Qanunda orden və medalların vətəndaşlara xüsusi xidmətlərə görə dövlət tərəfindən verilən dövlət təltifi olması, digər normativ hüquqi aktlarda orden və medalların (o cümlədən orden və ya medal ifadəsindən hər hansı mənada istifadə edilməklə) təltif növü kimi təsis olunmasının qadağan edilməsi, “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Qanunda isə QHT-lərin nizamnamələrində dövlət və yerli özünüidarə orqanlarının səlahiyyətlərinin mənimsənilməsinin yolverilməzliyinin təsbit edilməsinə baxmayaraq, sözügedən vəzifəli şəxslər tərəfindən bu tələblər kobud şəkildə pozulub.

Toplanmış sübutlar əsasında Mehdi Mehdiyev, Füzuli Rzaquliyev və Sərraf Orucov Cinayət Məcəlləsinin 309.1-ci (vəzifə səlahiyyətlərini aşma) maddəsilə təqsirləndirilən şəxs qismində cəlb edilib, barələrində istintaq orqanının qərarı ilə polisin nəzarəti altına vermə növündə qətimkan tədbirləri seçilib və iş üzrə ibtidai istintaq tamamlanaraq baxılması üçün aidiyyəti üzrə məhkəmələrə göndərilib.

Bundan başqa “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikası Qanununa əsasən ictimai birliklər dövlət qeydiyyatına alındıqdan sonra 30 gün müddətində üzvlərinin reyestrinin aparılmasını təmin etməli olduğu halda, “Qarabağ Əlillərinə Qayğı”, “Şəhid Ailələri, Əlillər və Müharibə Veteranlarının Müdafiəsi”, “Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı”, “Sabitlik və İnkişaf Mərkəzi” İctimai Birlikləri və “Dədə Qorqud” Xeyriyyə Fondu qanunvericiliyin tələblərini pozaraq üzvlərinin reyestrini aparmayıb və nizamnamələrinə uyğun fəaliyyət göstərməyiblər.

Sadalanan faktlarla bağlı müvafiq təşkilatlar və onların rəhbərləri barəsində Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində İnzibati Xətalar Məcəlləsinin 579-cu (qeyri-hökumət təşkilatları haqqında qanunvericiliyin pozulması) maddəsinə əsasən inzibati xəta haqqında iş üzrə icraatlar başlanaraq baxılması üçün aidiyyəti üzrə məhkəmələrə və Ədliyyə Nazirliyinə göndərilib.

Eyni zamanda, QHT-lərin (ictimai birliklər və fondlar) qeydiyyata alınması, həmin təşkilatların müvafiq istiqamətlərə uyğun fəaliyyət göstərməsi və qeyd edilən qurumlardan daxil olan müraciətlərə baxılması zamanı cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinin nəzərə alınması, yeni qeydiyyat üçün müraciət edən və əvvəllər qeydiyyata alınmış təşkilatların nizamnamələrinin qanunvericiliyə uyğun olub-olmamasının yoxlanılması və bu sahədə nəzarətin gücləndirilməsi üçün müvafiq tədbirlərin görülməsi barədə Ədliyyə Nazirliyinə müraciət edilib.

# Pezeşkianın çağırışından sonra küçələrə axışdılar



**İranın müxtəlif şəhərlərində on minlərlə şəxs ölkə rəhbərliyinə dəstək üçün aksiyaya başlayıb.**

Bu barədə məlumatı “Associated Press” agentliyi yayıb. Bildirilib ki, əllərində İran bayrağı və ölkənin ali rəhbəri Əli Xameneinin portretləri olan aksiya iştirakçıları ABŞ və İsrail əleyhinə şüarlar səsləndiriblər. Xatırladaq ki, İranda etiraz aksiyaları dekabrın 28-dən davam edir. İlk olaraq aksiyaçılar ölkədəki iqtisadi vəziyyətə və milli valyutanın dəyərinin enməsinə etiraz etsələr də, hadisələr daha sonradan siyasi xarakter alıb. Onu da bildirək ki, İran Prezidenti Məsud Pezeşkian ötən gün televiziya vasitəsilə xalqa müraciət edərək ölkə əhalisini İslam Respublikasına və onun rəhbərliyinə dəstək nümayiş etdirməyə çağırmışdı.



# “İranda xaos arzulamırıq”

**“Biz qonşumuz İranda xaos arzulamırıq. İrana xarici müdaxilələr yalnız daha böyük böhranlara və regional qeyri-sabitliyə səbəb olar”.**

Sözləri Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Partiya) sədrinin müavini, partiya sözçüsü Ömer Çelik deyib.

Suriyadakı vəziyyəti dəyərləndirən partiya sözçüsü terrorla mübarizənin əhəmiyyətinə də diqqət çəkib:

**“Suriya hökuməti YPG-yə qarşı lazımi tədbirləri görüb. Terrorsuz Türkiyənin və regionun əhəmiyyəti bir daha nümayiş etdirilib. YPG terror təşkilatının fəaliyyətlərini kürdlərlə eyniləşdirmək olmaz. Suriyada ərəb, türkmən və kürd qardaşlarımız bərabərhüquqlu vətəndaşlardır. Türkiyə bu məsələ ilə bağlı həssaslığını Suriya hökumətinə rəsmi şəkildə bildirib. Türkiyə bölgədə sülhün və ərazi bütövlüyünün qorunması istiqamətində fəaliyyətini davam etdirəcək”.**

# Hakim Rauf Əhmədovdan atası Tağı Əhmədova şikayət ediləcək!

**Dünən Bakı Şəhəri Nizami Rayon Məhkəməsinin hakimi Rauf Əhmədovun icraatında olan İş № e-2(007)-3734/2025 saylı mülki iş üzrə Qətnamə qəbul edildi. İddiaçı mənəm-jurnalist Asif Mərzili...**

**Belə ki, 2012-ci ildə (Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Çıxarışı ilə) Nizami rayonunda MTK-ların birindən aldığım mənzildən alt qonşuya su sızması ilə bağlı mənzilin sahibi E.-Quliyev ötən il mənzilinə vurulmuş maddi (həm də mənəvi) ziyanın ödənilməsi ilə bağlı mənə qarşı iddia qaldırdı, Xətai rayon Məhkəməsi (Hakim Aygün Həsənova) 08 avqust 2025-ci il tarixli qətnaməsi ilə iddianı qismən təmin etdi, dəymiş ziyanla bağlı tərəfimdən iddiaçıya xeyli miqdarda pul ödənilməsi qət edildi...**



Qısa qeyd edim ki, oxuculara və hüquqşünaslara, vəkillərə aydın olsun, mənə məxsus mənzilin isti və soyuq su xəttinin çəkilişi, isti döşəmə işlərinin həyata keçirilməsi Bəxtiyarov Səttar Baloğlan oğlu adlı şəxsin briqadasında çalışan bir santexnikə həvalə edilmişdi, razılaşma yolu ilə pul ona ödənilmişdir, amma özü tez-tez gəlib baxırdı, nəzarət edirdi... 2014-cü ildə yaşamağa başlayanda alt mərtəbədəki qonşu zəng etdi ki, sizin mənzildən bizə su damır... Dərhal santexnika işlərinə görə pul ödədiyim S.Bəxtiyarova zəng etdim, dedi ki, yüz faiz kanalizasiya xəttindədir, onu dəyişdirin... Dəyişdirdim, yenə də su sızması dayanmadı... O vaxt həmin qonşu mənzilini satıb getdi, başqa şəxs gəldi, o da şikayətçi oldu, hətta onun öz ustası da gəlib araşdırdı, sökdü, təmir etdi, yenə də su sızmasının qarşısı alınmadı... O da mənzilini satıb getdi. Nəhayət, 2020-ci ildə alt mərtəbədəki mənzili alan E.Quliyev məni məhkəməyə verdi, bu barədə yuxarıda bəhs etdim. Hətta iki dəfə məhkəmə ekspertizası təşkil edildi, ekspertlər də suyun sızma səbəbini aşkar edə bilmədi.

Nəhayət, ötən ilin yayında "Zirvə" MMC-nin mütəxəssislərini mənə məxsus mənzilə dəvət etdik. Ruslan adlı mütəxəssis aşkar etdi ki, su sızması kanalizasiya xəttində yox, "KOMBİ"dən gələrək mətbəxdən keçib hamama və mətbəxə gedən isti su xəttindədir. Beləcə, uzun illərdən sonra su sızmasının mənşəyi bilindi. Videoçəkilişlərdən aydın olurdu ki, Səttar Bəxtiyarovun rəhbərliyi altında çəkilmiş su xəttində qaynaq işləri düzgün aparılmamış, səhlənkarlığa yol verilmişdir və nəticədə, uzun illərdir həm sızmanın yerini tapmaq mümkün olmamışdır.

***

Nəhayət, bu gün şahidlər dindirildi, suallar verildi, hakimə su sızması nəticəsində alt qonşunun mənzilindəki dağıntını, həmçinin mənə məxsus mənzildə su sızmasını aşkar edən ustanın fikirlərini, söküntü və qaynaq və s. işlərini əks etdirən videogörüntüləri təqdim etdim... Hakim video və fotogörüntülərdən dəhşətə gəldi, çıxışlardan da bəlli oldu və sübut edildi ki, uzun illər mənə və alt qonşulara zülm yaşadan sızıntının günahkarı kimdir.

Hakim Rauf Tağı oğlu Əhmədovun bu günkü davranışlarından hiss edirdim ki, o, iclası qanunvericiliyin tələbini pozmaqla aparır. Məsələn, cavabdehə yönəldici sual verir, mənə və şahidə danışmaq imkanı vermir, təqdim edilən videogörüntülər ətrafında cavabdehə sual vermir, bizim isə sözümüzü kəsir və sair. Əgər hakimin nədəsə şübhəsi var idisə, ekspertiz da təyin etməli idi. Üstəlik, mən məhkəmə zalında qaynaq işləri düzgün aparılmamış plasmas borunun hissələrini də hakimə təqdim etdim, baxdı, başını buladı.

Beləliklə, hakim tələm-tələsik müşavirəyə gedib qayıtdı, iddiamı təmin etmədi. Niyə? Bu suala Qətnamə elektron kabinetə yerləşdirəndən sonra dəqiq cavab verə biləcəyəm. Lakin indidən aydın şəkildə bilirəm ki, hakim min cürə bəhanələri düzüb-qoşub özündən uydurma epizodları qətnaməsinə yazacaq... Amma uzun illər şəxsən mənə və ailəmizə mənəvi ziyan vurmuş, qonşularla aramıza sünü narazılıq salmış bu cür hala dair hakimin iddianı təmin etməyən qərar qəbul etməsi çox üzücüdür, absurddur.

**İndi düşünürəm:** hakim Rauf Əhmədov Tağı Əhmədovun oğludur! Tağı müəllim 2024-cü ildə-təxminən bir il əvvəl rəhmətə gedib. Sağ olsaydı, özünə şikayət edərdim. İndi nə edim, ruhuna şikayət edimmi? Bu dərəcədə haqsızlıq olardımı? Yaşadığım o zülmü hakim Rauf Əhmədov özü və ailəsi yaşasaydı, nə edərdi? Ustaya sağ ol deyərdimi??? Düşünürəm ki, Tağı Əhmədovun ruhuna "Açıq məktub"la müraciət edim... Çünki hakim mənə alternativ yol qoymadı!

***

**Yeri gəlmişkən, kiçik bir araşdırma apardım, məlum oldu ki, hakim Rauf Əhmədov absurd qərarlarına görə həmişə tənqid edilib. Hətta az əvvəl Bakı Apellyasiya Məhkəməsi onun bir dolaşıq qərarına görə barəsində xüsusi qərar da qəbul edərək cəzalandırılması üçün Məhkəmə Hüquq Şurasına göndərib! Həmin qalmaqal barədə mediada yayımlanmış bu yazını təqdim edirəm:**

**Tağı Əhmədovun hakim oğlu CƏZALANDIRILACAQ**

Nizami rayon Məhkəməsinin hakimi Rauf Əhmədovun cəzalandırılmasından ötrü xüsusi qərar çıxarılıb(Lent.az). Bakı Apellyasiya Məhkəməsi hakimlər kollegiyasının verdiyi həmin qərar R.Əhmədov haqqında tədbir görülməsi üçün Məhkəmə-Hüquq Şurasına göndərilib. Səbəb paytaxtın Nizami rayonunda tikinti aparan "Kursus-Nizami" şirkətinin yerli sakinlərlə mübahisəsidir. Şirkət müvəqqəti təminat tədbiri barədə ərizə ilə məhkəməyə üz tutub və tikinti ərazisindəki binalara girişin yasaqlanmasını, sakinlərin köçürülməsini, evlərin boşaldılıb sökülməsini istəyib.

R.Əhmədov da 15 oktyabr 2024-cü il tarixli qərardadı ilə bu ərizəni təmin edib. Qərarını da belə əsaslandırıb ki, evlər köhnədir, qəzalı vəziyyətdədir və s. "Kursus-Nizami" MTK ilə sakinlər arasında Nizami rayon Məhkəməsində xeyli müddətdir məhkəmə çəkişməsi gedir. Hazırda ayrı-ayrılıqda bir neçə məhkəmə işi var. Proseslərin gedişində sakinlər məsələ qaldırıb ki, yekun qərar veriləndək şirkətə binaları sökmək qadağan olunsun. Bu üzdən, bəzi hakimlər yekun qəraradək söküntünü yasaqlayan müvəqqəti təminat tədbiri haqda qərardad çıxarıb.

Hakim R.Əhmədovun söküntüyə icazə verən qərarından sonra absurd durum yaranıb: Eyni məhkəmə bir qərarla söküntünü qadağan edir, digər qərarla icazə verir. Söküntüyə icazə qərarından apellyasiya şikayəti verən sakinlər həmin qərarı mülkiyyət hüququna qəsd kimi dəyərləndirərək onun ləğvini istəyiblər.

**"Hakim Rauf Əhmədov "Karsus-Nizami" MTK-nın qanunsuz hərəkətlərinə yaşıl işıq yandırdı"**

Sakinlərdən Fikrət Həsənov şikayətində evindən istifadə hüququnun əlindən alındığını, mülkiyyət hüququna təcavüz edildiyini vurğulayıb.

"Hakim Rauf Əhmədov "Karsus-Nizami" MTK-nın qanunsuz hərəkətlərinə yaşıl işıq yandırdı. Şirkətin fəhlələri gəlib evimi sökmək istəyəndə "102"yə zəng elədim. Polislər gələndən sonra çıxıb getdilər. Binadakı istilik xətləri, həyətdəki asfalt vicdansızcasına söküldü", - şikayətçilərdən Diana Andreyevanın sözləridir.

Bakı Apellyasiya Məhkəməsinin hakimlər kollegiyası belə nəticəyə gəlib ki, R.Əhmədov bu qərarla vətəndaşların mülkiyyət, mənzil toxunulmazlığı hüquqlarını pozub. "Maraqlı şəxslərin şikayətlərində qeyd olunduğu kimi, bu məzmunda qərardad çıxarmaqla birinci instansiya məhkəməsi bütün maddi, prosessual norma və prinsipləri pozub, maliyyə cəhətdən güclü mövqedə olan, geniş maliyyə imkanları olan "Kursus-Nizami" MTK-nin maraqlarını müdafiə edib", - apellyasiya məhkəməsinin oktyabrın 23-də R.Əhmədov haqqında çıxardığı qərarda belə yazılıb. R.Əhmədovun 50 yaşı var və o, 14 ildir məhkəmə hakimi çalışır. Daha öncə Xətai rayon Məhkəməsində fəaliyyət göstərib. O, 1998-2014-cü illərdə "Bakı Metropoliteni" QSC-nin rəhbəri olmuş Tağı Əhmədovun oğludur. T.Əhmədov 2024-cü il oktyabrın 18-də 76 yaşında vəfat edib...

**Allah Tağı müəllimə rəhmət eləsin!**

**Asif MƏRZİLİ**



# YAP Yasamal Rayon Təşkilatında "UĞURLARIMIZLA 2026-YA" Milli Mükafatı təqdim edildi

**Yanvarın 12-də YAP Yasamal Rayon Təşkilatında Azərbaycan mədəniyyətinin inkişafına və yaradıcı gənclərin dəstəyinə həsr olunmuş "Uğurlarımızla 2026-ya" Milli Mükafatının təqdimetmə mərasimi keçirilib.**

Tezadlar.az xəbər verir ki, tədbir Beynəlxalq Qalereya və "Abşeron Gənclərin Maarifləndirilməsi" İctimai Birliyinin birgə təşkilatçılığı, Yeni Azərbaycan Partiyası Yasamal Rayon Təşkilatının dəstəyi ilə baş tutub. Mərasimdə 2025-ci il ərzində yüksək yaradıcılıq nailiyyətləri ilə seçilən istedadlı rəssamları, mədəniyyət sahəsində fərqlənən şəxslər və mədəni irsin təbliğində fəal iştirak edən media nümayəndələri təltif olunub. Tədbir, həmçinin gənc istedadların tanıdılması və onların gələcək fəaliyyətlərinə stimul verilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Tədbiri giriş sözü ilə açan YAP



Yasamal Rayon Təşkilatının sədri Bəxtiyar Nəbiyev çıxışında ölkə rəhbərliyinin gənclərə və mədəniyyətə göstərdiyi diqqət və qayğını xüsusi vurğulayıb. O, yaradıcı şəxslərin cəmiyyətin mənəvi inkişafında mühüm rol oynadığını qeyd edərək, bu kimi təşəbbüslərin davamlı olmasının vacibliyini bildirib: **"Bu mükafat yalnız fərdi uğurların deyil, bütövlükdə cəmiyyətimizin mədəni potensialının göstəricisidir. Gənclərimizin sənətə olan marağı və uğurları gələcəyimizə olan inamı daha da gücləndirir."**

**Tədbirdə çıxış edən Beynəlxalq Qalereyanın direktoru Elnurə İsgəndərova** "Uğurlarımızla" Milli Mükafatının artıq ölkənin mədəni həyatında ənənəyə çevrildiyini bildirib. O, 2025-ci ilin mədəniyyət sahəsində uğurlarla yadda qaldığını vurğulayaraq, keçirilən sərgilərin və layihələrin Azərbaycan mədəniyyətinin beynəlxalq aləmdə tanıdılmasına töhfə verdiyini qeyd edib: "Uğurlarımızla" Milli Mükafatı, yalnız bir mükafatlandırma mərasimi deyil, həm də mədəniyyətin inkişafına, yaradıcı gənclərin tanıdılmasına və onların fəaliyyətinin stimullaşdırılmasına yönəlmiş genişmiqyaslı təşəbbüsdür. Bu cür tədbirlər, ölkəmizdə mədəniyyətin və incəsənətin inkişafına, gənc istedadların üzə çıxarılmasına və onların cəmiyyətə inteqrasiyasına mühüm töhfə verir.

**Beynəlxalq Qalereyanın layihə rəhbəri və tədbirin təşkilatçısı Aygün Əzizova isə** çıxışında sənətə verilən dəyərin cəmiyyətin inkişafında mühüm rol oynadığını bildirib. O, rəssamların yaradıcılığının milli kimliyimizin və mədəni irsimizin qorunmasında əvəzsiz rol oynadığını vurğulayıb: "Bu tədbir sənətə, zəhmətə və yaradıcılığa verilən yüksək dəyərin təcəssümüdür. İnanıram ki, bu mükafat hər bir sənətçini 2026-cı ildə daha böyük zirvələrə səsləyəcək."

Tanınmış aparıcı Çərkəz Quliyevin təqdimatında keçirilən mərasimdə gənc rəssamların müxtəlif mövzularda işlədikləri əsərlərdən ibarət sərgi nümayiş olunub. Sərgi iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb. Rəsmi təltifetmə mərasimindən sonra tədbir Azərbaycanın tanınmış incəsənət ustalarının iştirakı ilə davam edib. Azərbaycan Respublikasının əməkdar artisti, virtuoz skripka ifaçısı və müğənni Səlim Abbasov, eləcə də sevilən sənətçi Mütəllim Mütəllimov öz musiqi çıxışları ilə tədbir iştirakçılarına unudulmaz anlar yaşadıblar. Tədbirin rəqs proqramı da rəngarəngliyi və peşəkarlığı ilə seçilib. Şuşa Dövlət Musiqili Dram Teatrının quruluşçu baletmeysteri, Bakı İstanbul Liseyinin müəllimi Amil Əhmədovun rəhbərlik etdiyi "Xarı Bülbül" rəqs qrupu, Leyla Aslanovanın bədii rəhbəri olduğu "Qaval" rəqs qrupu və Bakı Xoreoqrafiya Akademiyasının tələbəsi Fatimə Rüstəmova milli və klassik rəqs nümunələri ilə çıxış ediblər. Həmçinin Tamara Məmmədovanın rəhbərlik etdiyi "Mələklərim" uşaq bağçasının rəqs kollektivi tədbirə xüsusi sevinc və rəng qatıb. Tədbir mükafatçıların və təşkilatçıların xatirə fotosu ilə yekunlaşıb. Gələcək illərdə də bu ənənənin davam etdirilməsi və daha geniş miqyasda keçirilməsi planlaşdırılır.

Qeyd edək ki, "Təzadlar" qəzetinin əməkdaşı Yasəmən Məmmədli də "UĞURLARIMIZLA 2026-YA" Milli Mükafatı ilə təltif olunub.

**AYGÜN**

# Məhkəmə qərarlarına meydan oxuyan "qəhrəman"

***Sosial şəbəkələrdə "Az Estetik" MMC şirkəti barədə yaydığı qərəzli, şər-böhtan dolu videoçarxların silinməsi, videoformat şəklində üzrxahlıq edilməsi, təkzib verilməsi, işgüzar nüfuza zərər vurduğuna görə cərimələr tətbiq edilməsi barədə çıxarılan məhkəmə qərarlarına "Azcosmetiks" MMC-nin rəhbəri Kənan Zeynalov niyə arxa çevirir?***



**Diqqətli oxucuların yəqin yadında olar, "Az Estetik" MMC Group Şirkəti barədə "Azcosmetics" MMC-nin rəhbəri Kənan Zeynalovun sosial şəbəkələrdə yaydığı şər və böhtanlar, həqiqətə uyğun olmayan video-çarxlardan tezadlar.az saytında bir neçə yazılar vermişdik. O yazıların adlarını bir daha yada salmaq istəyirəm. ""Az Estetik MMC barədə yayılanların şər və böhtan olduğu məhkəmədə sübut olundu", ""Azcosmetics" MMC-də "Köhnə hamam, köhnə tas"dır- ya hamam dəyişməlidir, ya da tas", ""Azcosmetics" MMC-nin vergi ərköyünlüyü" və s. başlıqlı yazılarda "Azcosmetics" MMC-nin rəhbəri Kənan Zeynalovun qanunsuz əməllərindən bəhs etmişdik. Həmin yazılar dərc olunmazdan əvvəl əks tərəf kimi K.Zeynalovun da mövqeyini öyrənmişdik. O, telefon danışığımız zamanı həmin yazıların özünə qarşı şər və böhtan olduğunu da bildirmişdi. Eyni zamanda, onu da diqqətimizə çatdırmışdı ki, ona qarşı aparılan bu şər və böhtan kampaniyasının arxasında "Az Estetik" MMC-nin rəhbərləri Rəşad Qasımov və Fariz Məmmədov dayanır.**

Necə deyərlər, sən saydığını say, gör məhkəmə qərarı nə deyir?! Amma sonralar baş verən proseslər göstərdi ki, "Az Estetik" MMC-nin işgüzar nüfuzuna ziyan vuran, onların satdıqları keyfiyyətli avadanlıqların orjinal olmadığını sosial şəbəkələrdə müxtəlif videoçarxlarla paylaşan və bu şirkətin müştərilərini aldadıb, özünə tərəfə çəkən, anti- reklamla məşğul olan elə məhz Kənan Zeynalovdur.

***

"Azcosmetics" MMC barədə ilk yazımız dərc olunmamışdan əvvəl əks tərəfin mövqeyini öyrənmək üçün Kənan Zeynalovla əlaqə saxlayıb, telefonda xeyli söhbəti etdik. O zaman təklif etdik ki, Kənan bəy, gəlin biz vasitəçilik edək, və sizləri barışdıraq. Sizlər də sonra öz gücünüzü, vaxtınızı şirkətin inkişafı üçün sərf edin.

O zaman K.Zeynalov belə cavab vermişdi: **"Mən həmişə hazıram. Öz şirkətimin prezidenti tək özüməm və sözümün də ağasıyam. Amma "Az Estetik" MMC-də iki rəhbər var və onların sözü bir-birinə uyğun gəlmir. Ona görə də inanmıram ki, sizin ağsaqqallığınızla barışıq olsun".**

İlk baxışda gəlişigözəl sözlərdir. Amma sonrakı proseslər göstərdi ki, tək prezident olan Kənan Zeynalovun özünün sözü heç vaxt düz olmur və dediyi sözün də üstündə qətiyyən durmur. "Az Estetik" MMC-də isə uzun illərdir hər iki rəhbərin- Fariz Məmmədovun və Rəşad Qasımovun fikirləri, sözləri həmişə üst-üstə düşüb, necə deyərlər, çəkici bir nöqtəyə vurublar. Ona görə də şirkət müştərilər arasında böyük hörmət və nüfuz qazanıb, satdıqları stomatoloji və kosmotoloji avadanlıqlar isə orjinallığına və yüksək keyfiyyətinə görə başqalarından fərqlənib. Elə buna görə də Kənan Zeynalovda bir qısqanclıq yaranıb və qarşısına məqsəd qoyub ki, "Az Estetik" MMC-nin adına və nüfuzuna, həmçinin avadanlıqların satışına bütün vasitələrlə zərbə vursun. Bu məqsədlə də sosial şəbəkələrin verdiyi imkanlardan maksimum bəhrələnərək, halal işlə məşğul olan "Az Estetik" MMC-ni ləkələmək üçün saxta video-çarxlar yaymaqla məşğul olub. Şirkətin rəhbərləri dəfələrlə Kənan bəyə sülh təklif ediblər ki, bu haqsız əməllərindən əl çəksin. Kənan Zeynalov isə "Az Estetik" MMC-nin rəhbərləri Fariz bəyin və Rəşad bəyin sülh təkliflərini qorxahlıq kimi başa düşdüyündən, əksinə, bir az da dərinə gedib. Belə ki, K.Zeynalov bilə-bilə ki, "Az Estetik" MMC şirkəti xarici ölkələrdən aldıqları orijinal və keyfiyyətli avadanlıqların rəsmi olaraq əmtəə nişanına, yəni satış hüququna sahibdir, amma bununla belə, Əqli Mülkiyyət Agentliyinə müraciət edib ki, əmtəə nişanı rəhbəri olduğu "Azcosmetikcs" MMC-yə məxsusdur. Deməli, bu Agentliyin əməkdaşlarını da aldada bilib. Necə deyərlər, "uşaqda fərasətə bax". Əqli Mülkiyyət Agentliyi də araşdırma aparmadan əmtəə nişanının Azcosmetics" MMC-yə məxsus olması barədə qərar çıxarıb.

***

## Əlbəttə, şər-böhtanlar bu qədər çox çəkə bilməzdi

Əlbəttə, şər-böhtanlar bu qədər çox çəkə bilməzdi. Ona görə də nəhayət, "Az Estetik" MMC-nin rəhbərləri bu məsələnin hüquqi müstəviyə yönəltməklə imiclərini qorudular. Onların müraciət etdikləri məhkəmələrin hər biri "Azcosmetics" MMC-ni və onun prezidenti Kənan Zeynalovu günahkar çıxardaraq, əleyhinə cərimələr tətbiq edib. Elə məhkəmə qərarının biri Əqli Mülkiyyət Agentliyinin qanunsuz qərarının ləğv edilməsi barədədir. Yəni, məhkəmə qərarı ilə satdıqları avadanlıqların hüququna, yəni əmtəə nişanının "Az Estetik" MMC-yə məxsus olması haqqında qətnamə çıxarılıb. Bu Məhkəmə qərarı barədə növbəti yazılarımızda ətraflı bəhs edəcəyik. Hazırda isə, istəyirik digər məhkəmə qərarlarından bəzi hissələri olduğu kimi təqdim edək.

Burada bir məqamı da qeyd edək ki, təqdim edəcəyimiz məhkəmə qərarlarından görünür ki, indiyə qədər K.Zeynalovun "Az Estetik" MMC barədə bütün sosial şəbəkələrdə yaydığı video-çarxların və yazıların yalan, şər və böhtan olduğu tam sübut olunur. Ona görə də, istəkli oxucuları və aidiyyəti qurumların rəhbərlərini həmin məhkəmələrin qərarlarından bəzi məqamlarla tanış etməyi vacib sayırıq:

"Baki Kommersiya Məhkəməsinin 14.06.2024-cü ildə, hakim Nərmin Əhmədovanın sədirliyi ilə keçirilən iclasında iddiaçı "AZ Estetik Group" Məhdud Məsuliyyətli Cəmiyyətinin cavabdeh "AzCosmetics" Məhdud Məsuliyyətli Cəmiyyətinə qarşı "məlumatların təkzib olunması, dəymiş zərərin ödənilməsi və s." tələbinə dair kommersiya mübahisəsi araşdırılmışdır. Araşdırma zamanı sübut olunmuşdur ki, "AzCosmetics" MMC-nin rəhbəri Kənan Zeynalov "Az Estetik" MMC barədə yaydığı video-çarxlar tamamilə şər-böhtandır. Ona görə də məhkəmə sonda belə qətnamə qəbul edib: "Şərh olunanlara əsasən və Mülki Prosessual Məcəllənin 216-220, 222, 227, 233, 360-cı maddələrini rəhbər tutaraq, məhkəmə Q Ə T E T D İ: İddia qismən təmin edilsin. Cavabdeh "AzCosmetics" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus "Youtube" platformasındakı hesabında 12.04.2023-cü il tarixdə paylaşılmış "Lazer aparatı aldı və aldandı! Zərərçəkmiş Məmmədova Rəna" başlıqlı videoçarxın silinməsi öhdəliyi cavabdehin üzərinə qoyulsun. Həmin videoçarxda səsləndirilmiş "Məqsəd avadanlığın mənşəyini alıcıdan gizlədərək... alıcını özündən asılı vəziyyətə salmaq, dəfələrlə baha qiymətə ehtiyat hissələrini satmaqdır" kimi ifadələr (məlumatlar) həqiqətə uyğun olmayan, iddiaçının işgüzar nüfuzunu ləkələyən məlumatlar hesab edilməklə, həmin məlumatların həqiqətə uyğun olmaması barədə cavabdeh tərəfindən ona məxsus "Youtube" platformasındakı hesabında videoçarx vasitəsi ilə təkzib verilsin. Cavabdeh "AzCosmetics" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus "Tiktok" platformasındakı hesabında 12.04.2023-cü il tarixdə paylaşılmış videoçarx üzərinə qeyd edilmiş "40 000-ə xarab cihaz satıldı; Servis xidməti göstərilmədi" kimi ifadələr (məlumatlar) həqiqətə uyğun olmayan, iddiaçının işgüzar nüfuzunu ləkələyən məlumatlar hesab edilməklə, həmin məlumatların həqiqətə uyğun olmaması barədə cavabdeh tərəfindən ona məxsus "Tiktok" platformasındakı hesabında videoçarx vasitəsi ilə təkzib verilsin. Cavabdeh "AzCosmetics" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus "Youtube"platformasındakı hesabında 18.04.2023-cü il tarixdə paylaşılmış "Lazer aparatı aldı və aldandı. Zərərçəkmiş Xalima Ustayeva" başlıqlı videoçarxın silinməsi öhdəliyi cavabdehin üzərinə qoyulsun. Cavabdeh "AzCosmetics" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus "Tiktok" platformasındakı hesabında 18.04.2023-cü il tarixdə yayımlanmış qısaldılmış videoçarx üzərində qeyd olunan "600 Vt gücünə sahib "WERTEX" cihazını 900 Vt deyib, aldadaraq satdılar; Cihazın texniki məlumatları şişirdilərək alıcı aldadılıb; Cihazını qıraqdan idarə edərək, pul tələb etdilər" kimi ifadələr (məlumatlar) həqiqətə uyğun olmayan, iddiaçının işgüzar nüfuzunu ləkələyən məlumatlar hesab edilməklə, həminməlumatların həqiqətə uyğun olmaması barədə cavabdeh tərəfindən ona məxsus "Tiktok" platformasındakı hesabında videoçarx vasitəsi ilə təkzib verilsin.Cavabdeh "AzCosmetics" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus "Youtube"platformasındakı hesabında 04.01.2024-cü il tarixdə paylaşılmış "Saxta reklamlar. Lazer epilyasiya cihazları haqda düzgün texniki məlumatlar" başlıqlı videoçarxın silinməsi öhdəliyi cavabdehin üzərinə qoyulsun. Həmin videoçarxda səsləndirilmiş "Siz, "Az Estetik" kollektivi insanlara, alıcılarınıza, müştərilərinizə illərlə yalan danışmaqdan, onları aldatmaqdan doymadınız... "Az Estetik" şirkəti sizi aldadıb. "Az Estetik" şirkəti sizi aldatmağa davam edir... "FG 2000 D" modelinin 600 və 1200 Vattlıq enerji yaradan bar qurğuları Amerika istehsalı deyil"... "A 7 və A 8 cihazlarının bar sistemi Amerika istsehsalı deyil" kimi ifadələr (məlumatlar) həqiqətə uyğun olmayan, iddiaçının işgüzar nüfuzunu ləkələyən məlumatlar hesab edilməklə, həmin məlumatların həqiqətə uyğun olmaması barədə cavabdeh tərəfindən ona məxsus "Youtube" platformasındakı hesabında videoçarx vasitəsi ilə təkzib verilsin. Cavabdeh "AzCosmetics" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus "Tiktok" platformasındakı hesabında 19.04.2023 tarixdə paylaşılmış videoçarxın "rəylər" hissəsində yazılan "Aparata ödəniş etməyəndə bağlaya bilirlər?" sualına cavabdehə məxsus hesabdan "Nəinki etməyəndə, edəndə belə bağlayırlar. Əlavə pul əldə etmək üçün" cavab yazısındakı ifadələr (məlumatlar) həqiqətə uyğun olmayan, iddiaçının işgüzar nüfuzunu ləkələyən məlumatlar hesab edilməklə, həmin məlumatların həqiqətə uyğun olmaması barədə cavabdeh tərəfindən ona məxsus "Tiktok" platformasındakı hesabında videoçarx vasitəsi ilə təkzib verilsin. Mediasiya prosesinə çəkilmiş xərcin əvəzi olaraq 400 (dörd yüz) manat, ödənilmiş dövlət rüsumunun əvəzi olaraq 50 (əlli) manat 40 (qırx) qəpik məbləğində pul cavabdeh "AzCosmetics" Məhdud Məsuliyyətli Cəmiyyətindən tutularaq iddiaçı "Az Estetik Group" Məhdud Məsuliyyətli Cəmiyyətinə ödənilsin.

**(Davamı 8-ci səhifədə)**

# "Hər ay sığortaya pul ödəyirəm, amma..."

## Mənin hər ay İcbari Tibbi Sığortaya ödədiyim pullar hara gedr?..



**Tezadlar.az xəbər verir ki, bu sözləri müəllim, eyni zamanda şair-yazıçı Əliheydər Qayiboğlu sosial media hesabında bildirib.**

**"Mən ali təhsilli müəllim olmaqla hər ay halal əmək haqqımdan İcbari Tibbi Sığortaya 30 manat pul ödəyirəm.**

**Əgər poliklinikalarda, xəstəxanalarda çalışan həkimlər Sığorta ilə gələn pasiyentlərə 2- ci dərəcəli kimi baxacaqdırlarsa, poliklinikanın sığorta ilə göndərişi olmasına baxmayaraq, Neyro Cərrahiyyə Xəstəxanasında MRT müayinəsi üçün 20 manat əlavə pul tələb olunursa, sığorta ilə gəldiyin üçün ağır xəstə olmağına baxmayaraq, səni 10-15 gün sonraya növbəyə alırlarsa, sənin israrla tələbindən sonra gecə saat 03:40- a yazırlarsa, pulu ödəyəndən sonra sənə qəbzi vermirlərsə bu TƏBİB nə üçündür və hara baxır? Mənin hər ay ödədiyim pullar hara gedr?**

**Üç dəfə TƏBİB-ə zəng etsəm də, mənə cavab verən tapılmadı. Nə üçün? Niyə Azərbaycan qanunlarını pozursunuz?**

**Cavab ver"**, - deyə Əliheydər Qayıboğlu qeyd edib.

**JASMİN**




# Medal bol olarsa...

## *Medal alan şəxslərdən eləsinə də rast gəldik ki, adam o ixtisas yoxdur ki, özünü o sahə üzrə sınamasın*

**Ötən ilin sonu jurnalistlər üçün çoxdan gözlənilən -Azərbaycan Milli Mətbuatının yaranmasının 150 illiyi ilə bağlı media nümayəndələrinin ödülləndirilməsi ilə yadda qaldı. Amma yaddaşlarda necə qaldı, bu, bir qədər mübahisəlidir.**

Məlum olduğu kimi, Azərbaycan Milli Mətbuatının banisi Həsən bəy Zərdabinin 150 il əvvəl dərcinə nail olduğu “Əkinçi” qəzeti Azərbaycanda maarifçilik toxumu səpməklə bugünkü jurnalistikanın bünövrəsini qoydu. Zərdabi sayəsində böyük yol qət etmiş Azərbaycan mətbuatı sovet imperiyasının dağılmasından sonra öz gücünü - qüdrətini daha da göstərdi. Danılmaz faktdır ki, məhz o dövrün siyasi proseslərinin içərisində olan jurnalistlərin fədakarlığı sayəsində sovet siyasi ideologiyasına, eyni zamanda mövcud rəsmi qəzetlərə qarşı adekvat olaraq müstəqil fikirli media nümayəndələrinin cəm olduğu qəzet və jurnallar işıq üzü görməyə başladı. Və ötən əsrin təqribən son 10 ilində qələm adamları hər cür hədələrə dözərək artıq rıçaqları çürümüş, sarsılmış sosialist ideologiya maşınının məhvinə yönəli yazılar dərc etməyə başladılar. Və məlumdur ki, müstəqil Azərbaycanın yaranmasında 4-cü hakimiyyət hesab edilən Azərbaycan jurnalistlərinin rolu çox böyük idi. Zamanında döyülən, söyülən, zindanlara atılan jurnalistlərin fədakarlığı nəticəsində bu günlərə gəlindi.

Bu gün torpaqları işğaldan azad edilmiş qüdrətli Azərbaycan dövləti var və xalq öz dövlətinin, Vətəninin arxasındadır. Azad və əmin-amanlıqda yaşadığımız bir zamana təsadüf edən Milli Mətbuatın yaranmasının 150 illiyinə bu gün nə gözəl ki, bizlər də şahidlik edirik. Və Ali Baş Komandan İlham Əliyev ötən il “Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)” Azərbaycan Respublikasının yubiley medalı hazırlanması və jurnalistlərin təltif edilməsi barədə mühüm bir Fərman imzaladı. Prezident jurnalistləri yubiley medalı ilə təltif etmək səlahiyyətini də Medianın İnkişafı Agentliyinin İcraçı direktoruna həvalə etdi. Bu isə böyük bir etimadın göstəricisi idi. Çünki ölkə başçısı uzun bir yol keçən mətbuatımızın öncüllərini, zəhməti keçənləri qiymətləndirərək bu Fərmanı imzalamışdı.

***

Hər cür ütüsüz, sığalsız cümlələrdən uzaq olaraq bildirmək istəyirəm ki, ilin sonuna yaxın bəzi jurnalistlərin tək-tək çağırılıb təşkilatda ayrıcalıq göstərilərək ödülləndirilməsi jurnalist camεəsində heç də birmənalı qarşılanmadı. Bu, nə qədər müxtəlif izahlarla baş verənlərin əsas qayəsi barədə yaranmış fikri sapdırmağa çalışılsa da, açıqca ayrı-seçkilik idi. Halbuki 80-lərin, 90-ların sonunda medianın önündə gedənlər, başı min cür bəla çəkənlər vardı ki, o xüsusi çəkilişlə medal təqdim edilənlərin bir çoxunun, ümumiyyətlə, jurnalistikanın ağır dönəmlərindən xəbəri yox idi, yaxud iştirakçısı olmamışdı. Olsa -olsa, mətbuatdan oxuya bilərdi.

Elə medal təqdimatından da tək-tək çağırılaraq təltiflənənlərin sosial şəbəkə hesablarındakı paylaşımlarından sonra xəbər tutuldu. Ortada heç bir siyahı olmadığı üçün hər kəs yalnız sosial şəbəkədəki paylaşımlardan kimlərin təltif olunduğunu öyrənə bilirdi. Adları gördükcə adamın nitqi tutulurdu. Elə peşə sahələrində çalışanlara medal verildi ki, uzun illər davamlı olaraq bəlli mətbuat sahələrində çalışanlar, əmək kitabçasında dəyişilməz olaraq ünvanı hansısa qəzet, sayt olanlar “unuduldu”... Sanki torbanın ağzını açıb hədiyyə paylayırdılar: mühəndis, dəxli olmayan institutlarda aidiyyəti olmayan ixtisas üzrə müəllimlər, şair, müğənni, QHT-çilər... Saymaqla bitməz. Bu böyüklükdə, bu adda, əzəmətdə olan medal kimə gəldi verildi. Elə bu hengaməni görən bir çox qələm adamı utandığından medalını belə paylaşmadı. Hamıya verilən medalı isə illərini mətbuata vermiş olan jurnalistlər ala bilməyəndə, təbii olaraq məyus oldular və bu barədə sosial şəbəkələrdə kifayət qədər paylaşımlar var. Bir çox sanballı qələm adamları, televiziyalarda uzun illər fəaliyyət göstərmiş jurnalistlər isə sadəcə, bu mənzərənin üstündən sükutla keçdilər. Onlardan biri də 20 il ölkənin birinci kanalında çalışmış jurnalist, aparıcı, yazıçı-publisist Mehriban Vəzir (Vəzirova) idi. O, araşdırması uzun zaman, bəzən illər tələb edən neçə-neçə tarixi şəxsiyyətlər barədə əsərlərin, araşdırma yazıların müəllifidir. Müxtəlif televiziyalarda aparıcılıq edib. Onu kiməsə tanıtmağa da ehtiyac yoxdur. Mehriban xanım ona verilməyən medala görə qəmlənirmi, inanmıram, əsla! Bundan biz xəcalət çəkməliyik, daha doğrusu, onu “tanımayanlar” - siyahı tutanlar.

> *“Qəribədir ki, bəzi şəxslərdə orden, medal xəstəliyi var”*

Sosial media səhifələrində bu tərz medal paylanılmasına bir çoxları etiraz etdilər. Təsəvvür edin, televiziyada ailə institutumuzu darmadağın edən, millətin ailə, abir-həya dəyərlərini rüsvay edən, aşağılayan, verilişlərində hansısa kişiyə DNT analizi etdirib uşaqlarının atası olmadığını bütün dünyaya bəyan edən, studiyaya gəlib yeni şouya səbəb olmaq istəməyən arvadını videoları ilə hədələyib gətirməyə çalışan və digər bu qəbildən olan proqramların aparıcıları sən demə, milli mətbuatın öncülləri imiş...

***

Medal alan şəxslərdən eləsinə də rast gəldik ki, adam o ixtisas yoxdur ki, özünü o sahə üzrə sınamasın: universitetdə müəllim, mədəniyyət işçisi, texnika-filologiya elmləri doktoru, ilin mühəndisi, ilin alimi... Vikipediyasına nəzər saldıqda mat-məəttəl qalırsan: o cəmiyyət, o təşkilat yoxdur ki, üzv olmasın, müxtəlif ölkələrin vəqflərindən belə mükafat, diplom, medal... alıb. Özü də, hətta medal düzəldib paylayırmış... Əlqərəz, vikipediyada özü haqqında bəzəkli titullarının siyahısı o qədər zəngindir ki, inanın, dünya elminə böyük nailiyyətlər qazandırmış Nobel mükafatçılarının belə tərcümeyi-halında bu qədər ödül, təltif yoxdur. Düz, 26 min işarəlik... Onun bu qədər məziyyətə sahib olmasından Nobel təşkilatının da xəbəri yoxdur. Bizdə belə universal dühə varmış, özümüzün də xəbərimiz yoxmuş . Əminəm ki, Alfred Nobel sağ olsaydı, bu paxıl davamçılarını qınayardı... Vikipediya məlumatlarına görə, bu şəxsə dünyada alternativ olacaq ikinci alim yoxdur.

***

...Qəribədir ki, bəzi şəxslərdə orden, medal xəstəliyi var: nə qədər çox olarsa, o qədər savadlı, bilikli, bacarıqlı, seçilən... olması deməkdir! Öləndən sonra bu cür iz qoyub getmək istəyirlər. Amma o dünyada medala-filana baxan yoxdur... Ona görə də çox da medal kolleksiyası toplamağa çalışmayın. Hamı kimin hansı elmə, biliyə, yaradıcılığa, zəkaya sahib olduğunu çox yaxşı bilir. O adların, medalların yüzünü alın, xeyri yoxdur, araşdırsaq, sonuncu dəfə hansısa bir məqalənizi, araşdırma yazınızı belə tapmaq mümkün olmaz.

Nə isə, təəssüfləndirici hal odur ki, son medal paylamadan sonra bir zaman bir olub, yumruq olan media camεəsində bu dəfə birlik hiss olunmadı. Artıq uzun müddətdir ki, hərə öz başını saxlayır. Kimsəni başqasının problemi zərrə qədər maraqlandırmır. Olsa da çox cüzi hallarda. Aldığını alanlar susub oturub. Ədalətdən dəm vuranların əksəriyyəti də bu duruma etiraz etmədi. Sadəcə, payına düşəni aldı və sakitcə baxır. Onlar üçün artıq əhəmiyyətini itirib jurnalist həmkarlarının haqqını qorumaq, onların səsinə səs vermək. Bəzilərinin susmağı isə növbəti medal təltiflərində pay alma şansını itirməmə səbəbindəndir. Bir zaman böyüklük edənlər vardı, bir toplantıları ilə hətta ölkə başçısı belə sayıb qəbul edib, dərdlərini dinləyərdi. İndi hansısa jurnalistin başına bir iş gəldikdə belə heç kəs tükünü belə tərpətməz. Çünki hər kəs öz yolunu çoxdan çizib.

Gizlin deyil ki, həmişə təltif məsələlərində söz-söhbət olub. Amma bu təltifdən narazılığın məzmunu tamam başqadır. Uzun sözün qısası: bu gün bizlər şəffaflığa nail olmaq üçün təltif olunanların siyahısını və çalışdıqları mətbuat orqanlarının - iş yerlərinin, vəzifələrinin adını, əmək kitabçasında qeyd edilən məlumatı bilmək istəyirik. Sadəcə, bu! Əgər həmin təltif edilən şəxslər hamısı mətbuat işçisidirsə, konkret olaraq hansısa qəzet və saytın, TV və radio jurnalistidirsə, nə gözəl. Yox, əgər deyilən kimi, konkret olaraq şəxslərin fəaliyyət göstərdiyi, dövlətə vergi ödədiyi müəssisə və ya təşkilatın, qurumun adı göstərilmirsə, demək ki, Prezidentin Fərmanı düzgün icra olunmayıb və buna görə də öz haqqını qorumaq üçün hər bir media nümayəndəsi məhkəməyə belə müraciət etməkdə sərbəstdir. Çünki bu gün jurnalist öz haqqını qorumursa, ədalətin bərpasına çalışmayacaqsa, bu cəmiyyət heç vaxt düzəlməz.

Fikrimcə, bu medal məsələlərində ədalətli təltif etməni bacarmırıqsa, heç bir kəsi də təltif etməyə dəyməz. Belə olarsa, nə narazılar olar, nə də yaxasına medal asıb özünü bahalı jurnalist hesab edənlərin poz verməsindən əsəbiləşənlər. Bu da mənim subyektiv fikrimdir.

**Yasəmən Məmmədli**

**P.S. Vaxtilə Məmməd Araza Dövlət Mükafatı veriləndə jurnalistlər Xudu Məmmədova bu mükafata münasibət bildirməsini xahiş edirlər. Xudu Məmmədov deyir: “Çox sevindim. Hökumət bu mükafatı Məmməd Araza verməklə Dövlət Mükafatını hörmətə mindirdi”.**

# “Təzadlar” fəaliyyətində davamlıdır!

**İstəkli oxucular! 33 ildir bizimlə yol gəlirsiniz, bizə mənəvi dayaqsınız. Tanrı sizlərə dayaq olsun!**

Məlum olduğu kimi, MEDİA Agentliyi bir sıra qəzetlərə maliyyə yardımını 80 faiz kəsdiyi səbəbindən(gündəlik çıxan qəzetlərə yalnız 1 nömrə üçün yardım veriləcək), artıq bütün qəzetlər həftəlik nəşrə keçib.

33 ildir Dövlət büdcəsindən maliyyə almadan vaxtilə gündəlik, sonra günaşırı və hazırda həftəlik nəşr olunan “Təzadlar” qəzetinin kollektivi yenə də öz gücünə və sizlərin mənəvi dəstəyinə arxalanaraq qəzeti yaşatmaq yolundadır.

Bir daha qeyd edirik ki, qəzet həmişə olduğu kimi, “Əkinçi” ənənələrinə sadiq qalaraq şikayətlərinizə və tənqidi, araşdırma yazılarına üstünlük verəcək. Kimdənsə maliyyə asılılığımız yoxdursa, niyə də bu yolda axsamalı, tərəddüddə olmalıyıq?! Əsas odur ki, Siz oxucular bizdən ayrılmamısınız. Qəzetin hansısa nömrəsi ləngiyəndə naranat olub redaksiyaya zəng edirsiniz, bizə mənəvi dəstək olursunuz.


“İrəvanda xal qalmadı” mahnısı necə yaranıb? Sah: 7-də
İqtisadiyyatımızın dünya səviyyəsində təhlili... Sah: 8-də
Məmməd Araz səhvimi bağışladı... Sah: 11-də
Azərbaycan Qarabağ - Qarabağ Azərbaycandır
www.tezadlar.az
TƏZADLAR
tezadlar@gmail.com
№07 (2395) * 18 noyabr 2025-ci il * İctimai-siyasi hüquq qəzeti * Qəzet 1993-cü ildən çıxır * Qiyməti 50 qəpik
Adil Kərimlinin nazirliyində daha bir qalmaqal: ailə institutuna müdaxilə və...
“Ümid edirəm ki, qarşılaşdığımız bu ağlasığmaz hərəkətlərin
Nazirdən tamştatlı müəllimlə bağlı növbəti açıqlama
Ağdamda “Çay Evi”nin təməli qazılır və öz tarixi yerində bərpa ediləcək...


Kaş, aləmi başına götürmüş reklam bazarı bizim, yəni çap mediasının da üzünə gülə və yenidən gündəlik nəşrimizi bərpa edə bilək. Çünki bu gün yazılan qəzet yüz illərin pozulmaz və yozulmaz gələcək arxividir.

Elektron mediamızda tənqidi və araşdırma yazılarını, şikayət məktublarına reaksiyaları görməyən oxucular daha “filankəs sabah ərə gedəcək”, “bəhmənkəs beşinci dəfə evlənir”, “tanınmış müğənni indicə boşandı” və s. bu kimi xəbərlərdən niyə də xoşhal olmalıdır ki!

“Təzadlar”ı hər həftənin 2-si günü köşklərdən alın və PDF formatda elektron versiyasını isə tezadlar.az portalında oxuyun, saytın “X”, Linkedin, FB və TikTok səhifələrini isə izləməyi unutmayın!

**REDAKSİYA**

# “Orman”da nə baş verir: bu restoranın 6 nəfərə sırıdığı 641 manat!




**Sosial mediada maraqlı hadisə barədə paylaşım var: Bakıda- “Kənclik” ərazisində fəaliyyət göstərən və yaqinki fiziki şəxsin adına olan(bütün qulaqkəsən restoranların hansının vergi uçotuna baxırsan, daha az vergi ödəmək üçün hansısa fiziki şəxsin adına sənədləşdirilmiş olur) “Orman” restoranında 6 nəfərin naharı, yumşaq desək, sonda burunlarından gəlib. Belə ki, 6 nəfərlik yemək 641 manata başa gəlib!(“Haqq- hesab”).**

Menyuda ərzaq növlərinin qiymətinə baxanda düşünürsən ki, “Orman”da iaşə xidmətindən daha çox əlibaltalılar qulaq kəsməklə məşğuldur! Ormanda- meşədə təbiət mərhəməti olar, bu “Orman”da isə...

Nə isə: menyuya baxıb özünüz nəticə çıxarın. Daha doğrusu, adi iş adamlarının qəpiyindən belə keçməyən, cərimə sanksiyalarını qılınc kimi əlində tutan vergi orqanının əməkdaşları nəticə çıxarsın: bunun adı iaşə xidmətidirmi? Bu qiymətləri necə uydururlar? Və bu cür hesablardan büdcəyə ödənilən vergidən xəbəriniz varmı??? Böyük bir məmura aid olan bu “Orman”a insaflı ” meşəbəyi” təyin edilməlidir ki, belə nainsaf hallar mövcud olmasın! Sadəcə, ayıbdır... Qazanılan pul da halal olmalıdır, ad- san da, qonaq-qara xeyir- duası da...

**“Təzadlar”**



# Yekaterinburqda Azərbaycan ailəsi Yeni il hədiyyəsinə görə təqibə məruz qalıb...

*Valideynlər heç vaxt hədiyyələrinə görə təqibə məruz qalacaqlarını ağlına belə gətirməyiblər, amma bu belə baş verib...*

**Yekaterinburqda böyük bir ailə Yeni il hədiyyələrinə görə təqibə məruz qalıb. Onlar ”Yolkadan arzu dilə” uduş kampaniyasında iştirak ediblər. Bəxtlərinə düşən və içərisində istəkləri ifadə olunan məktubları Jeleznodorojnı Rayonunun başçısı Vitali Perşinə çatdırılıb. Amma elə hər şey də bundan sonra baş verib.**

Tezadlar.az Yekaterinburqda nəşr olunan mediaya istinadla bildirir ki, Azərbaycan əsilli bir ailədən olan üç uşaq - 7 yaşlı Əli, 8 yaşlı qardaşı Vaqif və böyük bacısı «Yolkadan hədiyyə istə” kampaniyasında iştirak edərək arzuları yazılmış şarı Yekaterinburqun Jeleznodorojnı Rayon Administrasiyasının rəhbərliyinə göndərərək ondan skuter, konfet hədiyyəsi və əl toxunması işini görmək üçün ip dəsti istəyiblər. Onların xoşbəxt şəkillərinin olduğu paylaşım Rayon administrasiyasının saytında dərc edildikdən sonra valideynlər neqativliklə qarşılaşıblar. ”Əvvəlcə VKontakte səhifəmizdəki paylaşımımıza reaksiya gəldi, çoxlu mənfi şərhlər yazılırdı. Lap çox. Şərhləri bağladığımız zaman uşaqların atası müavinimə zəng etdi və dedi ki, insanlar şəxsi səhifələrinə daxil olub xoşagəlməz şərhlər yazır. O, çox üzüldüklərini və onların rahat buraxılmaları üçün hədiyyələri geri qaytarmağa hazır olduqlarını dedi”, - Jeleznodorojnı rayonunun rəhbəri Vitali Perşin E1.RU-ya bildirib. Rayon rəhbəri ailədəki uşaqlardan birinin kar olduğunu qeyd edib. Böyük qardaş və bacı artıq məktəbdə oxuyur, kiçik oğlu isə hələ də bağçaya gedir, amma artıq məktəbə getmək arzusundadır. Ataları tikinti işçisi, anaları isə evdar qadındır. Valideynlər 20 ildir Rusiya vətəndaşıdırlar. ”Mən bu mənfi şərhləri oxudum, bu şərhlərdə ekstremizm qoxusu vardı... Bu, axmaq adamların işi idi. Bunun adı ağılsızlıqdır! Axı Yeni il ölkəmizdə yaşayan bütün millətlərdən olan insanlar üçün bayramdır. Xüsusilə də uşaqlar üçün. Nəzərə almalıyıq ki, özü də bu ailədə bir uşaq əlildir”, - Vitali Perşin qeyd edib.

Rəsmilər atanı hədiyyələri saxlamağa inandırıblar ki, heç olmasa uşaqların bayramla bağlı xoş xatirələri qalsın... Amma və lakin...

***

Şübhəsiz ki, bu ekstremist çağırışlı şərhləri yazanlar həm də Rusiyanın Ukraynadakı müharibəsindən sonra ac-yalavac qalıb, çətin sosial durumla baş-başa olanlardır. Axı bu kampaniyada hamı iştirak edib, niyə məhz azərbaycanlı ailə belə bir aqressiya ilə qarşılaşıb? Bizcə, Yekaterinburqda hələ də azərbaycanlılara basqın edilməsi və 2 nəfərin öldürülməsi, çoxsaylı insanların vəhşicəsinə həbs edilməsi, məhkəmə qarşısına çıxarılması və s. kimi hallar yerli əhalidə azərbaycanlılara qarşı nifrət hissini alovlandırıb. Bütün günü dükanlarda çaxır, pivə və araq axtarıb dəm olmaqdan başı ayılmayanlar azərbaycanlıların zəhmətkeşliklə çalışıb pul qazanmalarını həzm edə bilmirlər...

**A. Məmmədli**

**Axşamdı. Narahatlıqla saata baxıram. Vaxta az qalıb, bir azdan başlayacaqlar... Tez yatmaq lazımdır. Yatağa uzanıb yuxuya getməyə çalışıram. Səs gəlir. Saata baxıram - 24.00-dır. Gözlərimi açmaq, pəncərədən bu mənzərəyə baxmaq istəmirəm. Amma səs o qədər güclüdür ki... inanılmaz. Ağır təkərlərin yerlə təması və bu sürtünmədən yaranan uğultu beyninə soxulur. Qəribə hiss yaşayırsan - sanki küçədən - pəncərənin yanından keçən o ağır yüklü “KamAz”lar mənzilin divarını dələrək üstündən keçir. Capalasan da xilas ola bilmirsən... Və bu hissi saatlarla təkrar-təkrar yaşamaq zorundasan.**

# Taqqıltı...

## Mən Ağ Şəhər bulvarının 300 metrliyində olan mənzilimin sökülməsinə niyə razılıq verməliyəm?

Bir müddətdir ki, yaşadığımız binanın cəmi 5-6 metrliyində yerləşən köhnə, uçuq-sökük, həyətində siçansiçovul məskən salmış həbsxana (4 saylı Cəzaçəkmə Müəssisəsi - “Jenisskiy kolon” kimi tanınan) sökülərək ərazisi daş-kəsəkdən təmizlənmişdi. Bura təkcə tör-töküntülü, nimdaş görünüşü ilə yaxınlıqda yaşayanların gözlərini yağır etmirdi, eyni zamanda hardasa dava-dalaş salan əyyaşdan tutmuş ağır cinayət törətmiş qadınlaradək gətirilən məhbusların və ziyarətçilərin səs-küyü, vay-şivəni qədər əzabverici məkan idi. Zaman-zaman dilənçilik, oğurluq edən qaraçıları küçələrdən dəstə-dəstə toplayıb adı kimi görünüşü də heç də ürəkaçıcı olmayan müəssisəyə gətirəndə küçədə qopan mərəkəni, söyüş-qarğışı demirəm... Bir sözlə, yaxınlıqdakı binaların sakinləri yuxarı mərtəbələrdən ovuc içi kimi görünən həbsxana həyətində çox şeylərə istəməsələr belə şahidlik edirdilər... Və divarlar arxasında qalan o həyat heç də pəncərədən seyr etdiklərimizdən ibarət deyildi...

Bəli, qısa müddətdə izi-tozu belə qalmayan həbsxananın sökünütsündən sonra üzbəüz binanın sakinləri sevinclə bir-birinə gözaydınlığı verirdilər ki, yəqin bu böyüklükdə ərazidə gözəl bir park salınar, istirahət üçün şərait yaradılar. Sən demə, yağışdan çıxdıq, yağmura düşəcəkmişik, heç xəbərimiz yoxmuş! Bir də onda ayıldıq ki, hansısa oyanıq tikinti şirkəti ərazini də alıb, torpağı da qazır və göydələn tikməyə hazırlaşır: heç bəzi şirkətlər kimi, dörd tərəfini çəpərlədikləri divaralara “müvəqqəti narahatlığa görə üzr istəyirik” kimi ümidverici cümlə də yazmadılar...

Səhərlər bütün günü qulaqbatırıcı səs çıxararaq yeri qazan texnika binanı silkələyərək sakinlərə rahatlıq vermir, axşamlar isə gündüz yerin təkindən qazıb çıxardıqları qumu, gili, torpağı yük maşınlarına yükləyib daşıyırdılar: əsl maşın karvanı. Hər gecə bəzi sakinlər tikinti gedən əraziyə gedib icraçıya etirazlarını bildirir, səs-küy düşür və yenə də evlərinə geri dönürdülər. O dəhşətli səs isə yalnız səhərüzü kəsilərdi...

***

Bu gecə yuxusuz qaldığım günlərin heyfini çıxıb, yatmaq istəyirdim. Səhər tezdən oyanmaq, işə getmək lazımdır. Həm də çox vacib bir tədbirdə iştirak etməliyəm, gərək beynim oyaq ola. İşdə yorgun, əzgin görkəmimə də alışıblar. Ünvanlanan sualları anlamaq, cavablandırmaq da bir ayrı dərddir...

Nə isə. Yuxuya getməyə cəhd edirəm və bunun üçün müxtəlif üsullardan da istifadə edirəm. Yalanı yoxdur, qulaqlarıma pambıq da tıxayıram, hətta psixoloji təqlidlər də edirəm - yüzədək sayıram. Xeyri yoxdur! Gözlərimin



önündə çay, yaşıl meşə, çəmənlik canlandırıram, “relaxing” musiqi dinləyirəm. Yenə alınmır. Yastıqları dəyişirəm, otağı dəyişirəm - faydası olmur. Səs ikiqat pəncərələri belə keçib qulağıma dolacaq gücdədir. Yuxu və bu müdhiş taqqıltı - uğultu arasında bir müddət mübarizə aparıram. Qəflətən uğultunun kəsildiyini hiss edirəm. O qədər sevinirəm ki.. İlahi, bircə saat yata bilsəm...

Bir az keçmiş hardansa tıqqıltı səsi gəlir. Hava dolmuş kimi ağırlaşmış başımı yastığın altından çıxarıb dinşəyirəm. Yox, qapı döyülür. Amma musiqi notları kimi... Do, re, mi, fa, sol, lya, si... sanki pianonun dilləridir. Ritm getdikcə zilə qalxır... “Yəqin musiqiçidir” - düşünürəm. Müvazinətimi saxlamağa çalışaraq qapıya yaxınlaşıram - gözlükdən baxıram. İki nəfərdən biri əyilərək dayanıb, qapını döyəcləyən isə dəmir qapıda “musiqi bəstələməkdə” davam edir. “Blokdan çıxın, soldakı blok, sağdakı qapı”, -deyirəm. Səsimdən diksinib, əlini qapıdan çəkir və təəccübdən donmuş girdə sifətini gözlüyə yaxınlaşdıraraq təşəkkür edir. O hər gün qonşudakı təbibi- sınıqçını axtaranlardan biridir. Və bilmir ki, mən də hər gün səhər onun kimi neçə-neçə xəstəyə “doktor” dedikləri adamın ünvanını izah edirəm. Lakin hər dəfə bu xeyirxahlığımdan həzz alsam da, deyinməyimdən də qalmıram: “Nə olar ki, blokun qapısında bir lövhə vursa?!” Amma o dəqiqə də “doktor”a yazığım gəlir: həmin lövhənin min dərdi çıxacaq - vergisi, arayışı, icazəsi, yoxlaması... Bir sözlə, həngamə. O qədər qurumdan nümayəndə gəlib töküləcək ki... İndi gəl bunları yola sal... Bu yazıq nə qazanır ki?! Həkimlərin illərlə süründürdüyü insanları, qohum-qonşunu, tanış-bilişi müalicə edib ayağa qaldırmaqla çörək pulu qazanır. Şəfa tapanlar da orda-burda tərifləyirlər deyə, onu axtaranların da sayı artıb. Hətta xaricdə belə müalicə almaq imkanı olanlar da onu axtarıb tapırlar...

Bu xeyirxah missiyamı da yerinə yetirib yenicə yuxuya getmişdim ki, telefonum mesajlardan cıqqıldamağa başlayır: tik-tok-un nəğməli, sazlısözlü - sabahın xeyir dilək-duaları başlanır... Anlayıram ki, yuxu bu gün də mənə haramdır. Artıq həyətdən də səslər gəlir. Pəncərədən baxıram. Qonşu qadınlar həyətin təmizliyinə baxan süpürgəçi ilə dərdləşirlər: günün mövzusu isə tikintidir.

## Beşmərtəbəlini söküb bunlar göydələn tikib pul qazanacaqlar deyə, ev-eşiyimizdən olmalıyıq?

İşə hazırlaşıb tez-tələsik həyətə düşürəm. Skamyada əyləşib söhbətləşən qonşulara salam verirəm. Hamısı sual dolu nəzərlərlə üzümə baxır. Sevil xala mənə yaxınlaşır: “Ehtiyatlı olun”- deyir.

-Niyə, nə baş verib ki?

Başı ilə tikinti gedən tərəfi göstərir.

- Axşamlar gedib etiraz edirsiz onlara. Arxalı adamlardır. Heç kəs bata bilmir...

- Biz qanunla danışırıq. Gecə saatlarında heç bir tikinti şirkəti ətrafda yaşayanları yuxusuz qoymamalıdır. İstirahət günləri, ümumiyyətlə, tikinti aparıb, səs-küy salmamalıdır.

- Hamımız bu səs-küydən bezmişik, ay qızım, yaşlı adamıq. Hələ kim bilir neçə il bu səs-küylü tikinti davam edəcək. Onsuz da “probka”da idi həndəvər, bu binada yaşayış başlayandan sonra heç qapımızdan bayıra çıxa bilməyəcəyik. Bura köçənlərin də maşınları doluşacaq yollara.. Xəbəriniz yoxdur, bizim binamızı da sökəcəklər. Buranı tikənlər deyirmiş...

Mənim təəccübləndiyimi görüb Zülfiyyə xanım da yaxın gəlir:

- Deyirlər ki, yeni bina tikilən kimi burdakı 4 binanı da sökəcəklər. 55 ilin binası niyə sökülməlidir axı?! Beşmərtəbəlini söküb bunlar göydələn tikib pul qazanacaqlar deyə, ev-eşiyimizdən olmalıyıq? Bina tikiləndən burda yaşayırıq, qonşularla illərdir mehriban münasibətdəyik, bir-birimizin xeyrinə-şərinə yarıyırıq. Sakit həyətdir. Bu bina 25 il əvvəl 7 ballıq zəlzələyə davam gətirib - çat belə düşməyib. İndi hər gün yeri necə qazırlarsa, bünövrəsi silkələnir, küçədəki təzə asfalt parçalanıb... Mən Ağ Şəhər bulvarının 300 metrliyində olan mənzilimin sökülməsinə niyə razılıq verməliyəm? Özləri tikdikləri binanın hər kvadratını azı 10 minə satacaq, bizə isə onun dörddə birini verəcəklər deyə?.. O pula biz necə ev ala bilərik. Bakının hansı rayonunda o pula 4 otaqlı mənzil ala bilərəm? Həm də niyə illərdir yaşadığım məhəllədən daşınım? Mən burdan köçən deyiləm. Yaz, dediklərimi. Qoy gözlərini burdan çəksinlər.

Düzü, suallar qarşısında aciz qaldığımdan heç bir cavab verə bilmirəm. Elə sakitcə yuxulu başımı yelləyərək gedirəm.

Arxamca “bəs yazırdınız ki, mərkəzdə tikinti aparmaq yasaq edilib, nooldu. Bura Masazırdı bəyəm?” , - deyə soruşur.

“Yasaqdır, yasaq” öz-özümə deyirəm...

**Yasəmən Məmmədli**

# Maduronun həbsi və AZAL-ın qəzaya uğrayan təyyarəsi

**...2024-cü ilin dekabrın 25-də Rusiya tərəfindən Çeçenistan səmasında vurulan AZAL-a məxsus sərnişin təyyarəsinin araşdırması başa çatdı. «Pansir-S1” raketləri ilə vurulan təyyarənin gövdəsindəki dəlmə-deşiklər açıq-aşkar görünürdü. Qazaxıstanın Aktau limanının yaxınlığına özünü güc-bəla ilə çatdıran təyyarə eniş edərkən iki yerə parçalandı və 37 nəfər dünyasını dəyişdi. Vurulmuş vəziyyətdə olan təyyarənin Rusiya dispeçerləri tərəfindən Çeçenistan və Dağıstanın hava limanına məqsədli şəkildə enməsinə icazə verilməmişdi. Təyyarənin raketlə vurulması izini itirmək üçün, Rusiya tərəfi yenə də məqsədli şəkildə onu Xəzər dənizinə yönləndirmişdi. Məqsəd məlum idi: təyyarə dənizə düşsün və bununla da raketlə vurulma izi itəcək! Amma pilotların peşəkarlığı və qəhrəmanlığı sayəsində təyyarə Aktau limanı yaxınlığında qəza enişi edə bilmişdi. Bunun da nəticəsində 37 nəfər həlak olsa da, 31 nəfər sağ qalmışdı.**

*Maraqlıdır ki, A.Bastrıkinin təyyarə qəzası ilə bağlı baş prokuror Kamran Əliyevə göndərdiyi və qəzanı ört-basdır edən sənədin yayılmasından sonra əllərində “qara qutu” olan Qazaxıstanın istintaq qrupu hələ susur...*

Prezident cənab İlham Əliyev bu qəza ilə bağlı Rusiya dövlətinə çox kəskin etirazını bildirmişdi və günahkarların cəzalandırılmasını, rəsmi səviyyədə üzr istənilməsini, həmçinin ölənlərin ailələrinə kompensasiya verilməsini tələb etmişdi. Amma Rusiya prezidenti Vladimir Putin ilk vaxtlar qəzanın yalnız Rusiya səmasında baş verməsinə görə üzr istədi. Təbii ki, bu yetərli deyildi. İlham Əliyev tərəfindən, yuxarıda göstərdiyimiz kimi, konkret olaraq 3 tələb qoyulmuşdu. Bununla belə, Rusiya tərəfi heç cürə ipə-sapa yatmırdı.

Qazaxıstanın təyyarə qəzası ilə bağlı yaradılmış istintaq qrupu isə çox ləng hərəkət edirdi. Hətta “qara qutu”nun tapılması belə istintaqın sürətini artırmadı. Təbii ki, burada Rusiya faktoru böyük rol oynayırdı. Çünki istintaq komissiyasına Rusiya da cəlb olunmuşdu. Arada bir neçə dəfə başdansovdu informasiyalar yayıldı ki, təyyarə qəzası ilə bağlı istintaq işi çox obyektiv aparılır və yaxın müddətdə ətraflı məlumat veriləcək.



**Arada bir neçə dəfə başdansovdu informasiyalar yayıldı ki, təyyarə qəzası ilə bağlı istintaq işi çox obyektiv aparılır və yaxın müddətdə ətraflı məlumat veriləcək**

## Putinin Prezident İlham Əliyevə hesabatı

Ötən ilin oktyabrın 9-da Tacikistanın paytaxtı Düşənbədə İlham Əliyevlə V.Putin yenidən bir araya gəldilər. Burada V.Putinin ikiqat əyilərək cənab İlham Əliyevə təyyarə qəzası ilə bağlı hesabat verməsi olduqca maraqlı mənzərə idi. İlham Əliyevin şahanə duruşu, V.Putinin isə ikiqat əyilərək danışması həmin dövrdə dünya gündəmini zəbt elədi. Gəlin həmin görüş zamanı V.Putinin İlham Əliyevə hesabat xarakterli çıxışından bəzi məqamları bir daha xatırlayaq: “...İstintaq başa çatmaq üzrədir və indi ümumilikdə bu faciənin, bu qəzanın səbəbləri barədə danışmaq olar. O, bir neçə amillə əlaqədardır. Birincisi ondan ibarətdir ki, səmada Ukraynanın pilotsuz uçuş aparatı vardı. Biz faciə günü gecə Rusiya Federasiyasının sərhədini keçən üç belə pilotsuz aparatı eyni vaxtda izləyirdik. İkinci səbəb Rusiyanın hava müdafiə sisteminin özündə texniki nasazlığın olmasından ibarətdir. Buraxılan iki raket birbaşa təyyarəyə dəyməyib, - əgər bu baş versəydi, təyyarə yerindəcə məhv olardı, - raketlər partlayıb, ola bilər ki, bu, bir neçə metr məsafədə, təqribən 10 metrlik məsafədə özünü məhv etmək olub. Ona görə də təyyarə zədələnib, amma əsas məsələ odur ki, məhvedici döyüş elementləri ilə deyil, yəqin raketin parçalarının özü ilə. Məhz bu səbəbdən pilot hadisəni quş sürüsü ilə toqquşma kimi qiymətləndirib, bu barədə rusiyalı dispetçerlərə məlumat verib, bütün bunlar “qara qutular”da qeyd olunub. Həmçinin ona təklif olunub ki, - bu da “qara qutular”da var, yaxşı eşidilir, - Mahaçqalaya eniş etsin, amma o, qalxdığı aeroporta qayıtmaqla bağlı qərar qəbul edib, sonra isə Qazaxıstana uçub. Bununla belə, fakt faktlığında qalır. Faciənin səbəblərini indi Sizə təqdim etdim. Bütün bunlar baş verənlərin texniki xarakteristikasının dəqiq analizindən və “qara qutular”ın nəticələrinin saniyəbəsaniyə yoxlanılmasından sonra sənədlərdə öz əksini tapıb. Biz Sizinlə bu mövzunu sonradan müzakirə etdik. Sözsüz ki, belə hallarda, bu cür faciəli vəziyyətlərdə tələb olunduğu kimi, Rusiya tərəfindən kompensasiya üzrə hər şey ediləcək və bütün vəzifəli şəxslərin hərəkətlərinə hüquqi qiymət veriləcək. Əlbəttə, bu faciə ilə bağlı ailələrin dəstəklənməsinə, onlara mənəvi dəstək verilməsinə yönəlmiş bütün sözlər belə hallarda əsas problemi həll etmir - faciə nəticəsində həlak olmuş insanları həyata qaytarmaq mümkün deyil. Amma bizim borcumuz, bir daha təkrar edirəm, biz Sizinlə əvvəldən baş verənlərə obyektiv qiymət vermək və əsl səbəbləri üzə çıxarmaq barədə razılaşmışdıq. Ancaq bu, müəyyən vaxt tələb edir. Qəti nöqtəni qoymaq üçün yəqin ki, hələ bir az vaxt tələb olunacaq. Amma ümumilikdə, mən Sizə əsasən elə bu görüşümüz ərəfəsində - dünən, srağagün aldığım məlumatları çatdırdım. Hətta düzünü desək, bu gün gecə Moskvaya zəng etdim və ələvə hər hansı detalların olduğunu soruşdum. Demək olar ki, Sizə mənə məlum olanların hamısını danışdım...”

## Aleksandr Bastrıkinin qəzanı basdırması

Bu görüşdn 3 ay keçəndən sonra Rusiya Federasiyasının İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkin Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə bir sicilləmə məktub göndərib. Bu barədə hərbi ekspert Ədalət Vəliyev məlumat yayıb. Həmin məlumatdan sitat: “Orada iddia olunur ki, AZAL təyyarəsi əlverişsiz hava şəraiti səbəbindən Rusiyada enə bilməyib və eniş zamanı yerə çırpılıb. Bu əsasla cinayət işinə xitam verilib. Bu uğursuz ifadələr faciəyə görə məsuliyyətdən yayınmaq cəhdidir. Məntiqi bir sual yaranır: Rusiya Federasiyasının İstintaq Komitəsi günahı “hava şəraitində” görürsə, daha nə deyək... Bu halda, ölümlərə görə məsuliyyət daşıyanların məsuliyyətdən yayındırmaq cəhdi aşkar şəkildə ortaya çıxır. Faciəyə görə məsuliyyət daşıyan Rusiya tərəfidir: AZAL təyyarəsi “Pantsir-S1” hava hücumundan müdafiə kompleksindən buraxılan raket ilə vurulub və sənəddə təsvir etməyə çalışıldığı kimi, sonradan hava limanının özündə deyil, Aktau hava limanı yaxınlığında qəzaya uğrayıb. Rusiya İstintaq Komitəsinin sədri A. Bastrıkinin imzaladığı sənədin məzmunu isə Rusiya Prezidenti Vladimir Putinin 2025-ci il 9 oktyabrda Düşənbədə MDB Dövlət Başçıları Şurasının iclası çərçivəsində səsləndirdiyi rəsmi mövqeyi ilə birbaşa ziddiyyət təşkil edir. Həmin vaxt Putin AZAL mülki təyyarəsinin Rusiya Silahlı Qüvvələrinin hava hücumundan müdafiə əməliyyatları nəticəsində qəzaya uğradığını etiraf etmişdi və “bu cür vəziyyətlərdə tələb olunan hər şeyi etməyə” hazır olduğunu bildirmişdi. İndi belə çıxır ki, Rusiyada yenə “it yiyəsini tanımır” və ya Bastrıkin Prezident Putini tanımır və onu təkzib edir”.

Burada hərbi ekspert Ədalət Verdiyevlə tam şəkildə razıyam. V.Putin oktyabrın 9-da Düşənbədə İlham Əliyevə verdiyi məlumatında qeyd edirdi ki, təyyarə raketiin parçalarından zədə alıb. A.Bastrıkin isə hadisəni ört-basdır etmək məqsədilə qeyd edir ki, qəza əlverşsiz hava şəraitində baş verib. Daha bu boyda yalan olmaz də. A.Bastrıkinin bizim Baş prokurora göndərdiyi sənəddə yazılanlar isə başdanayağa cəfəngiyyatdır. Onu da nəzərə alaq ki, A.Bastrikin V.Putindən xəbərsiz belə bir yalan dolu sənədi imzalayıb göndərə bilməzdi. Bəs V.Putin oktyabrın 9-da cənab İlham Əliyevə verdiyi sözləri indi niyə danır? İndi buna aydınlıq gətitməyə çalışaq.

Yanvarın 3-də Amerikanın xüsusi kəşfiyyat orqanları Venesuela prezidenti Maduranı və xanımını elə yatdığı yerdəcə hop götürüb Amerikaya apardılar. Yəni, həbs ediblər. Bir qrup ölkələr və ekspertlər bu həbsin bütün beynəlxalq qanunların ziddinə olduğunu bildirir, digərləri isə, bu həbsin düzgün olduğu qənaətindədir. İkinci tərəf bunu onunla əsaslandırır ki, Maduro və xanımı beynəlxalq narkotika ticarətini idarə edir və bu da Amerika xalqı üçün təhlükədir. Belə bir hal beynəlxalq qanunlarda öz əksini tapıb ki, öz dövlətinə narkotik təhlükəsi hiss eləyən dövlət həmin narkotikanı yayan dövlət və onun başçısı barədə ciddi tədbirlər görə bilər. Yaxşı, bəs Maduronun həbsinin bizim təyyarə qəzasının ört-basdır edilməsi ilə nə əlaqəsi ola bilər? Mən deyərdim lap birbaşa əlaqəsi var. Çünki V.Putin bütün beynəlxalq qanunları Trampdan əvvəl, müstəqil dövlət olan Ukraynanın ərazisinə hücum etməklə tapdalamışdı. V.Putin hələ C.Baydenin dövründə Ukraynaya hücum edib 3 günə onu işğal etmək və V.Zelenskini həbs edib Moskvaya gətirmək istəyirdi. Amma bu plan Avropa dövlətlərini və elə ABŞ-ın özünün dəstəyi, həmçinin Ukrayna xalqının qəhrəmanlığı sayəsində baş tutmadı. Tramp Amerikada Prezidentliyə sahib olandan sonra, bütün beynəlxalq aləm tərəfindən sıxışdırılan və boğulmaqda olan V.Putinə ikinci nəfəs verdi. Artıq Putinin əl-qolu açılıb. Bir vaxtlar bunkerdən çıxmağa qorxan V.Putin, indi haqqında çıxarılan Beynəlxalq Cinayət Məhkəməsinin həbs qərarını da vecinə almır və bir çox ölkələrə rahat gedib-gəlir.

## Putin Düşənbədə dediyini niyə dandı?

Təyyarə qəzasına görə isə, hər tərəfdən sıxışdırılmış vəziyyətdə olduğundan, V.Putin əvvəl bir az loyal münasibət göstərib, ən azı Azərbaycanın xətrinə dəymək istəmirdi. Ona görə də Düşənbədə İlham Əliyevlə görüşündə, təyyarənin səhvən raket parçaları ilə zədələnməsindən danışaraq üzrxahlığını bildirmişdi. Eyni zamanda, o, günahkarlara cəza veriləcəyinə və ölənlərin ailələrinə kompensasiya ödəniləcəyinə söz vermişdi. Amma bu söhbət ötən ilin oktyabrın 9-da olmuşdu. O vaxt Tramp Maduronu həbs etməmişdi. Bu ilin yanvarın 3-də isə, Maduronun həbsi gerçəkləşdi və bütün dünyanı lərzəyə saldı. Putin isə, bu presedentdən çox gözəl dərs aldı, eyni zamanda cəsarətləndi və Düşənbədə dediklərini danaraq, AZAL-a məxsus təyyarənin raketlə vurulması ilə yox, əlverişsiz hava şəraiti ilə bağladı. Bununla da, sanki Maduronun həbsi ilə təyyarəmiz yenidən qəzaya uğradı. Çünki beynəlxalq qanunlar Venesuela prezidentinin o cürə həbsi ilə ayaq altına atılmışdı. İndi V.Putin ayaq altına atılmış bu qanunlara, indiki iqtisadi ağır durumunda, Ukrayna ilə müharibə nəticəsində iqtisadiyyatının çökmə ərəfəsində niyə əməl etməlidir ki?! Ona görə də A.Bastrıkinə göstəriş verib ki, bu təyyarə qəzası söhbətini bağlayın və bağladılar da. Dünyanın gözü qarşısında, eyni zamanda “qara qutu”da, V.Putinin, Düşənbədə dediyi kimi, hər şey aydın eşidildiyi halda, təyyarə qəzasını əlverişsiz hava şəraiti ilə əlaqələndirib, cinayət işinin bağlanması, necə deyərlər, onun gözünün içinə qədər yalan danışması, nəinki beynəlxalq qanunları tapdalamaq, eyni zamanda Azərbaycan dövlətinə və xalqına qarşı açıq-aşkar saygısızlıq, hörmətsizlikdir.

Maraqlıdır ki, A.Bastrıkinin təyyarə qəzası ilə bağlı baş prokuror Kamran Əliyevə göndərdiyi və qəzanı ört-basdır edən sənədin yayılmasından sonra əllərində “qara qutu” olan Qazaxıstanın istintaq qrupu hələ də susur... Niyə? Hələ buna cavab yoxdur. Görəsən, V.Putin Qazaxıstan prezidenti K.C.Tokayevi nə ilə və necə qorxudub ki, o tərəfdən hələ səs gəlmir?!

***

Azərbaycan dövləti haqq-ədaləti bərpa etmək üçün yəqin ki, bu barədə tələsik addımlar atmayacaq. Çünki Azərbaycanın da əlində Rusiyaya təzyiq etmək üçün xeyli rıçaqlar var. Sanksiyalar içərisində boğulan Rusiya Azərbaycan vasitəsilə Avropaya çıxış əldə edir və digər ticari əlaqələr də mövcuddur. Təbii ki, Azərbaycan Prezidenti İlham Əliyev, özünün dediyi kimi, nəyi necə və nə vaxt etməyi yaxşı bilir. Ona görə də hələlik gözləməliyik. Mən qətiyyən inanmıram ki, həmin təyyarə qəzasında ölənlərin qanı Maduronun həbsinə və A.Bastrıkinin saxta sənədinə qurban getsin. Bu haqsızlığı göydə Allah, yerdə isə ölkəmizin rəhbərliyi heç vaxt götürməyəcək.

**Elçin Məmmədli**

# Məhkəmə qərarlarına meydan oxuyan “qəhrəman”

**Kənan Zeynalov məhkəmə qərarına hörmətsizlik edərək, öz qanunsuz əməllərini dayandırmadığı üçün növbəti məhkəmənin qurbanı olub**

(Əvvəli 4-cü səhifədə)

**Hakim Nərmin Əhmədova”**

***Bəs məhkəmə icraçıları niyə “Azcosmetics”in rəhbəri Kənan Zeynalovun öhdəsindən gələ bilmir?***

Kənan Zeynalov qanunsuz hərəkətlərinə görə məhkəmə qərarı ilə 1200 manat cərimələnsə də, Azərbaycan dövləti adından çıxarılan məhkəmə qərarını icra etməkdən hələki imtina edir, amma...

(Əvvəli ötən yazıda)




Beləliklə, güman etmək olardı ki, Kənan Zeynalov onu cəzalandıran məhkəmə qərarlarından sonra sakitləşəsək... Əsla, o, sakitləşmək bilmir. Göründüyü kimi, K. Zeynalovun “Az Estetik” MMC barədə sosial şəbəkələrdə yaydığı video-çarxların məhkəmədə şər və böhtan olduğu tamamilə sübut olunub. Eyni zamanda, Azərbaycan Respublikası adından çıxarılan məhkəmə qərarı ilə həmin video-çarxların silinməsi və onun yerində K.Zeynalovun video-format şəklində təkzib verməsi tələb edilib. Bütün bunlara baxmayaraq, K.Zeynalov məhkəmə qərarına hörmətsizlik edərək, öz qanunsuz əməllərini dayandırmadığı üçün növbəti məhkəmənin qurbanı olub. Gəlin, həmin məhkəmənin də qərarlarından bəzi məqamlara diqqət yetirək.

***

Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının 20.05.2025-ci ildə hakim Səadət Səlimovanın sədirliyi ilə keçən iclasından bəzi məqamlara diqqət edək: Bu məhkəmə aktında iddiaçı “Az Estetik” MMC-nin hüquqşünası Quluzadə Əli Azad oğlu, cavabdeh isə Zeynalov Kənan Famil oğludur. Burada söhbət Əli Quluzadənin K.Zeynalov tərəfindən şərəf və ləyaqətinin təhqir olunması və mənəvi zərərin ödənilməsindən gedir. Sitat: «İddiaçı Quluzadə Əli Azad oğlunun, onun nümayəndəsi (vəkili) Haqverdiyev Ceyhun Ehtiram oğlunun, Cavabdeh Zeynalov Kənan Famil oğlunun iştirakı ilə məsələyə baxılmışdır. İddiaçı Quluzadə Əli Azad oğlunun cavabdeh Zeynalov Kənan Famil oğluna qarşı “iddiaçının şərəf və ləyaqətini ləkələyən məlumatlara görə üzr istənilməsi və həmin fikirlərin təkzib olunması, yazılmış bütün təhqir ifadələrinin “Patrul.az” saytının səhifəsindən silinməsi öhdəliyinin cavabdeh Zeynalov Kənan Famil oğlunun üzərinə qoyulması və mənəvi zərərə görə 6666 (altı min altı yüz altmış altı) manat məbləğində zərərin əvəzinin, habelə ödənilmiş dövlət rüsumunun tutulması tələbini etmişdir. İddiaçı Quluzadə Əli Azad oğlu 21.09.2024-cü il tarixdə cavabdeh Zeynalov Kənan Famil oğluna pretenziya göndərərək “İnstagram” sosial şəbəkəsində “Patrul.az” adlı səhifədə 2 iyun 2024-cü il tarixində “Az Estetik Group” MMC barəsində paylaşılan videonun altına onun (iddiaçının) şərəf və ləyaqətini müxtəlif formada təhqiq edən nalayiq ifadələrə görə ondan həmin ifadələri yazıldığı “İnstagram” səhifəsi və öz şəxsi “İnstagram” səhifəsi vasitəsi ilə üzr istənilməsi və həmin fikirlərin təkzib olunması, yazılmış bütün təhqirli ifadələrin “Patrul.az” səhifəsindən xəbərdarlığı aldığı tarixdən 3 gün müddətində silinməsi və mənəvi ziyana görə 6666 manat ödənilməsini təklif etmiş, əks təqdirdə bu və əlavə ziyan və xərclərin məhkəmə vasitəsi ilə tələb olunacağını bildirmişdir. Belə ki, cavabdeh Kənan Zeynalov öz instagram səhifəsində: “Sen kimi ne ile iddiham edirsen ae caqqal? Sağda solda ulayirsan bas qosmuram sene. Babanın adını yazanda balaca herifleri yazarsan menim yox. Calis basından boyuk poxlar yemeyesen, 38 ölcülu ayağımı sene yerideren. Bilirsen deyirem ve edirem!” kimi şəxsiyyəti aşağılayan təhqiredici ifadələr səsləndirmişdir. Məhkəmə iclasında iştirak edən iddiaçı Quluzadə Əli Azad oğlu izahat verərək iddianın təmin olunmasını xahiş etmişdir”.

Lakin cavabdeh tərəf buna məhəl qoymamışdır... Və sonda məhkəmə belə qətnamə qəbul etmişdir: “Şərh olunanlara əsasən, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 372, 382, 384.0.1, 392, 393, 402-403, 405-406-cı maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

***Qət etdi:***

İddiaçı Quluzadə Əli Azad oğlu tərəfindən verilmiş apellyasiya şikayəti qismən təmin edilsin. Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 20 dekabr 2024-cü il tarixli 2(004)-5128/2024 nömrəli qətnaməsi ləğv edilərək iş üzrə yeni qətnamə qəbul edilsin. Cavabdeh Zeynalov Kənan Famil oğluna “Sen kimi ne ile iddiham edirsen ay caqqal? Sagda solda ulayırsan baş qoşmuram sene. Babanin adini yazanda balaca heriflərə yazarsan menim yox. Calis başından boyuk poxlar yemeyesen, 38 olculu ayağimi sene yeriderem. Bilirsen deyerem ve edirem!” ifadələrinin yazdığı “İnstagram” səhifəsində və öz şəxsi “İnstagram” səhifəsində iddiaçı Quluzadə Əli Azad oğlundan üzr istəməsi, həmin ifadələri təkzib etməsi, bu ifadələri “Patrul.az” səhifəsindən silməsi vəzifəsi həvalə edilsin.

Cavabdeh Zeynalov Kənan Famil oğlundan mənəvi ziyana görə 500 manat, dövlət rüsumuna görə 86,66 manat olmaqla cəmi 586,66 manat iddiaçı Quluzadə Əli Azad oğlunun xeyrinə tutulsun”.

*“Cavabdeh Zeynalov Kənan Famil oğlundan mənəvi ziyana görə 500 manat, dövlət rüsumuna görə 86,66 manat olmaqla cəmi 586,66 manat iddiaçı Quluzadə Əli Azad oğlunun xeyrinə tutulsun”*

K.Zeynalovun “Az Estetik” MMC Croupun hüquqşünası Əli Quluzadənin şərəf və ləyaqətini açıq şəkildə təhqir etməsi məhkəmə araşdırması zamanı tam sübut edildi. Ona görə də K.Zeynalov məhkəmə qərarı ilə əvvəlcə 1200 manat cərimələnib. Amma K.Zeynalov Azərbaycan dövləti adından çıxarılan məhkəmə qərarına icra etməkdən boyun qaçırmaqla, indiyədək heç bir cərimə ödəməmişdir. Belə olan surətdə K.Zeynalov növbəti məhkəmə ilə üz-üzə qalıb. Məlum olduğu kimi Yasamal Rayon Məhkəməsi də K.Zeynalov tərəfindən “Az Estetik” MMC-nin hüquqlarının pozulduğunu təsdiqləmişdir. Belə ki, Baki Şəhəri Yasamal Rayon Məhkəməsinin 22.10.2025-ci ildə hakim Quliyeva Sevinc Məhəmməd qızının sədrliyi ilə keçirilən iclasında yenə də Kənan Zeynalovun “Az Estetik” MMC-yə qarşı qanunsuz əməlləri tam sübuta yetirilmişdir. Bu dəfə o, məhkəmə qərarının icrasından imtina etdiyi üçün yeni bir məhkəmə sanksiyası ilə üz-üzədir. Həmin məhkəmə qərarından sitat: “Bakı şəhəri Yasamal Rayon İcra Şöbəsindən daxil olmuş 27 avqust 2025-ci il tarixli, MN 2322457 saylı inzibati xəta haqqında protokolda göstərilmişdir ki, “Azcosmetics” Məhdud Məsuliyyətli Cəmiyyətinin vəzifəli şəxsi Zeynalov Kənan Famil oğlu tərəfindən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 528.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xəta törədilmişdir. Məhkəmə iclasında Bakı şəhəri Yasamal rayon İcra şöbəsinin icra məmuru Mahmudova Samirə Məhəmməd qızı bildirmişdir ki, Bakı Kommersiya Məhkəməsinin e-2-2(113)-977/2024 saylı, 14.06.2024-cü il tarixli icra vərəqəsinə əsasən, iddianın qismən təmin edilməsi, cavabdeh “AzCosmetics” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus “Youtube” platformasındakı hesabında 12.04.2023-cü il tarixdə paylaşılmış “Lazer aparatı aldı və aldandı! Zərərçəkmiş Məmmədova Rəna” başlıqlı videoçarxın silinməsi öhdəliyinin cavabdehin üzərinə qoyulması, həmin videoçarxda səsləndirilmiş “Məqsəd avadanlığın mənşəyini alıcıdan gizlədərək ... alıcını özündən asılı vəziyyətə salmaq, dəfələrlə baha qiymətə ehtiyat hissələrini satmaqdır” kimi ifadələrin (məlumatların) həqiqətə uyğun olmayan, iddiaçının işgüzar nüfuzunu ləkələyən məlumatlar hesab edilməklə, həmin məlumatların həqiqətə uyğun olmaması barədə cavabdeh tərəfindən ona məxsus “Youtube” platformasındakı hesabında videoçarx vasitəsi ilə təkzib verilməsi, cavabdeh “AzCosmetics” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus “Tiktok” platformasındakı hesabında 12.04.2023-cü il tarixdə paylaşılmış videoçarx üzərinə qeyd edilmiş “40 000-ə xarab cihaz satıldı-Servis xidməti göstərilmədi” kimi ifadələrin (məlumatların) həqiqətə uyğun olmayan, iddiaçının işgüzar nüfuzunu ləkələyən məlumatlar hesab edilməklə, həmin məlumatların həqiqətə uyğun olmaması barədə cavabdeh tərəfindən ona məxsus “Tiktok”platformasındakı hesabında videoçarx vasitəsi ilə təkzib verilməsi, cavabdeh “AzCosmetics” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus “Youtube” platformasındakı hesabında 18.04.2023-cü il tarixdə paylaşılmış “Lazer aparatı aldı və aldandı. Zərərçəkmiş Xalima Ustayeva” başlıqlı videoçarxın silinməsi öhdəliyinin cavabdehin üzərinə qoyulması, cavabdeh “AzCosmetics” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus “Tiktok” platformasındakı hesabında 18.04.2023-cü il tarixdə yayımlanmış qısaldılmış videoçarx üzərində qeyd olunan “600 Vt gücünə sahib “WERTEX” cihazını 900 Vt deyib, aldadaraq satdılar; Cihazın texniki məlumatları şişirdilərək alıcı aldadılıb; Cihazı qıraqdan idarə edərək, pul tələb etdilər” kimi ifadələrin (məlumatlar) həqiqətə uyğun olmayan, iddiaçının işgüzar nüfuzunu ləkələyən məlumatlar hesab edilməklə, həmin məlumatların həqiqətə uyğun olmaması barədə cavabdeh tərəfindən ona məxsus “Tiktok” platformasındakı hesabında videoçarx vasitəsi ilə təkzib verilməsi, cavabdeh “AzCosmetics” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus “Youtube” platformasındakı hesabında 04.01.2024-cü il tarixdə paylaşılmış “Saxta reklamlar. Lazer epilyasiya cihazları haqda düzgün texniki məlumatlar” başlıqlı videoçarxın silinməsi öhdəliyinin cavabdehin üzərinə qoyulması, həmin videoçarxda səsləndirilmiş “Siz, “Az Estetik” kollektivi, insanlara, alıcılarınıza, müştərilərinizə illərlə yalan danışmaqdan, onları aldatmaqdan doymadınız? “Az Estetik” şirkəti sizi aldadıb. “Az Estetik” şirkəti sizi aldatmağa davam edir... “FG 2000 D” modelinin 600 və 1200 Vattlıq enerji yaradan bar qurğuları Amerika istehsalı deyil”... “A 7 və A 8 cihazlarının bar sistemi Amerika istsehsalı deyil” kimi ifadələrin (məlumatlar) həqiqətə uyğun olmayan, iddiaçının işgüzar nüfuzunu ləkələyən məlumatlar hesab edilməklə, həmin məlumatların həqiqətə uyğun olmaması barədə cavabdeh tərəfindən ona məxsus “Youtube” platformasındakı hesabında videoçarx vasitəsi ilə təkzib verilməsi, cavabdeh “AzCosmetics” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus “Tiktok” platformasındakı hesabında 19.04.2023 tarixdə paylaşılmış videoçarxın “rəylər” hissəsində yazılan “Aparata ödəniş etməyəndə bağlaya bilirlər?” sualına cavabdehə məxsus hesabdan “Nəinki etməyəndə, edəndə belə bağlayırlar. Əlavə pul əldə etmək üçün” cavab yazısındakı ifadələrin (məlumatlar) həqiqətə uyğun olmayan, iddiaçının işgüzar nüfuzunu ləkələyən məlumatlar hesab edilməklə, həmin məlumatların həqiqətə uyğun olmaması barədə cavabdeh tərəfindən ona məxsus “Tiktok” platformasındakı hesabında videoçarx vasitəsi ilə təkzib verilsin.

Yuxarıda göstərilənlərə əsasən və Azərbaycan Respublikasının İXM-nin 40, 43, 48-51, 114-117, 128-130 və 528.1-ci maddələrini rəhbər tutaraq, məhkəmə

***QƏRARA ALDI:***

“Azcosmetics” Məhdud Məsuliyyətli Cəmiyyətinin vəzifəli şəxsi Zeynalov Kənan Famil oğlu Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 528.1-ci maddəsindənəzərdə tutulmuş inzibati xətanı törətməkdə təqsirli bilinərək barəsində 1200 (bir min ikiyüz) manat məbləğində cərimə inzibati tənbeh tədbiri tətbiq edilsin.

**Hakim: Sevinc Quliyeva”**

**Davamı var)**

**Hazırladı və təqdim etdi: Elçin MƏMMƏDLİ**



## Fermerimiz saxlamağa mal-qoyun axtarır, Latviya və Livan ətinə isə qadağa qoyulur

**Livanın Akkar, Bəəlbək-əl-Hirmil əyalətlərində dabaq xəstəliyi, Litvanın Telşyay, Şyaulyay qəzalarında isə bluetanq xəstəliyi qeydə alındığından bu bölgələrdən Azərbaycana ət məhsullarının gətirilməsinə məhdudiyyət qoyulub. Bu barədə tezadlar.az-a Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) məlumat verilib. Agentliyin məlumatında biildirilir ki, Azərbaycan ərazisinin bu yoluxucu xəstəliklərdən qorunması üçün qeyd olunan ərazilərdən zonalaşma prinsipi nəzərə alınmaqla, müvafiq malların idxalına ÜHST-nin “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi”nə uyğun olaraq AQTA müvəqqəti məhdudiyyət tətbiq edib. Eyni zamanda müvafiq tədbirlərin görülməsi üçün Dövlət Gömrük Komitəsinə müraciət olunub.**

***

Təəssüflər olsun ki, hələ də yerli fermerimiz saxlamağa mal-qoyun axtarır, Latviya və Livan ətinə isə qadağa qoyulur. Səbəb bəllidir-fermerlərə ya örüş yeri üçün torpaq verilmir, ya da onlara yem bazası yaradılmırg Rayonların rəhbərləri bu barədə ciddi düşünmür, hamı prezidentin xüsusi Sərəncamını gözləyir. Niyə? Məgər prezident belə işlərlə də məşğul olmalıdırmı? Daha sizlər kimə və nəyə lazımsız? Vəzifəyə qoyulandan 40 gün sonra qovulan Nəsiminin icra başçısının acı taleyi dərs olmurmu?!

**A.Məmmədli**

# “Azerbaijan Kids Fashion Show 2026” - MÖHTƏŞƏM FİNAL GECƏSİ

**Bakıda moda aləminin 2026-cı il üzrə ilk tədbiri baş tutdu.**

**Yanvarın 3-də “Badamdar Estates” otelində təqdim edilən maraqlı moda şousu - “Azerbaijan Kids Fashion Show 2026” müsabiqəsi “Star Kids Group” şirkətinin təşkilatçılığı ilə keçirildi. Belə ki, “Star Kids Group”MMC -nin direktoru Aygün Əliyevanın rəhbərliyi ilə aylardır davam edən hazırlığın, həm də modellərin, modelyerlərin həyəcanlarının nəticəsi olaraq final - “imtahan” mərhələsi münsiflər, qonaqlar, media nümayəndələri, sənət adamları qarşısında təqdim edildi.**



**“Gecədə 17 modelyer-dizaynerin zəhməti ilə ərsəyə gəlmiş geyim kolleksiyası nümayiş olunurdu”**



Qeyd edək ki, müsabiqədə 4-14 yaş kateqoriyalarında 53-ü qız, 32-si oğlan olmaqla 85 model iştirak edirdi və bu müsabiqədə təkcə modellər deyil, model və modelyerlərin birgə tandemi qiymətləndirilirdi. Çünki azyaşlı modelləri uğura götürəcək bu gecədə 17 modelyer-dizaynerin zəhməti ilə ərsəyə gəlmiş geyim kolleksiyası nümayiş olunurdu, məhz modelyerlər də uğur qazanacaq əsrarəngiz əl işlərinə görə ödülləndiriləcəkdilər. Əlbəttə ki, bu əməyin bəhrəsi modellərin təqdimatı - duruşu, görünüşü, yerişi və digər perfromansları nəticəsində qazanılır.

10 yaşı - yubileyi qeyd edilən “Star Kids Group”un təşkil etdiyi bu müsabiqənin münsiflər heyətinin sədri isə Əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Dizayn və dekorativ-tətbiqi sənət kafedrasının dosenti, **“Fakhriya Khalafova” moda evinin təsisçisi, Azərbaycanın “Moda İkonu” Fəxriyyə Xələfova** idi. İncə zövqə və təkrarsız yaradıcılıq yanaşmasına malik sənətkarın bu gecə modellərin və libasların dəyərləndirilməsində iştirakı hər zamankı kimi, seçimlərin ədalətli olacağına əminlik yaradırdı.

Builki münsiflər heyətində isə **eksklüziv gəlinliklər, geyimlər, parçalar məkanı olan “Taylors Home” modalar evinin rəhbəri Aynur Abbasova da vardı.**

***

Müsabiqənin bədii, həm də giriş hissəsi milli geyimli gənc xoreoqrafların əllərində bayraqlarla rəqsi ilə başladı və bu rəqs dahi bəstəkar Üzeyir Hacıbəylinin repertuarı ilə davam etdirildi.

Daha sonra müxtəlif yaş qruplarından olan modellər bir-bir podiumda özlərini - geyimlərini münsiflərə, qonaqlara nümayiş etdirdilər. Modellərin musiqi sədaları altında podiumda gəzişməsi qonaqların, münsiflərin alqışları ilə müşayət olunurdu. Müsabiqədə nümayiş olunan bir-birindən gözəl libaslar isə kreativliyi, cazibəsi, çox zəhmət və vaxt tələb edən əl işləmələri ilə göz oxşayırdı.



Münsif kimi iştirak edən Rüfət Axundov, Elnur Məmmədli və digər sənətçilər müsabiqəyə coşqu qatan, modellərin əhval-ruhiyyəsini yüksəldən musiqi nömrələri ilə çıxışlar etdilər. Əməkdar artist Şölə Səfərəliyeva isə tədbirə xüsusi rəng qatan“Moda” mahnısını - 30 il sonra ilk dəfə, həm də yeni aranjmanda ifa etdi.



*Fəxriyyə xanım Xələfova modellərin və libasların dəyərləndirilməsində iştirakı hər zamankı kimi, seçimlərin ədalətli olacağına əminlik yaradırdı*

Onu da xüsusi olaraq vurğulamaq istərdik ki, şoumen, aktyor, müğənni Elməddin Məmmədovun aparıcılığı ilə keçirilən tədbir olduqca maraqlı və möhtəşəm idi.

***

Münsiflər balları hesablayarkən qonaqlar foyedə müxtəlif əl işlərindən ibarət sərgi-satış ilə də tanış oldular. Təqdim edilən bir çox əl işlərindən əldə edilən gəlir isə xüsusi uşaqların ailələrinə dəstək üçün nəzərdə tutulmuşdu.

Nəhayət, müxtəlif nominasiyalar üzrə yer qazanan modellər podiuma dəvət edildi və başda Fəxriyyə Xələfova olmaqla münsiflər heyətinin üzvləri tərəfindən təltif edildilər. Sonda isə müxtəlif yaş kateqoriyalarından olan ilk üçlükdə yer alan qaliblər səhnəyə dəvət edildilər.

**Müsabiqədə 4-6 yaş kateqoriyasında qızlar arasında 1-ci yerin qalibi 6 nömrəli iştirakçı Alya Məmmədsoy** oldu və onunla yanaşı, libasın müəllifi “Moyisey” moda evinin rəhbəri, modelyer-dizayner Hicran Əhmədova da təltif edildi.





**4-6 yaş kateqoriyasında oğlanlar arasında 1-ci yerin qalibi 27 nömrəli iştirakçı Ravin Eyvazov** oldu və onunla yanaşı, libasın müəllifi “Elsaro Couture” moda evinin rəhbəri, modelyer - dizayner Səyyarə Əlizadə təltif edildi.

**7-9 yaş kateqoriyasında qızlar arasında 1-ci yerin qalibi 44 nömrəli iştirakçı Jasmin Eyvazova** oldu və onunla yanaşı, libasın müəllifi “Mina Style” moda evinin rəhbəri, modelyer-dizayner Minarə İmamverdiyeva təltif edildi.

**7-9 yaş kateqoriyasında oğlanlar arasında 1-ci yerin qalibi 68 nömrəli iştirakçı Adəm Adıgözəlzadə** oldu və onunla yanaşı, libasın müəllifi “Moyisey” moda evinin rəhbəri, modelyer-dizayner Hicran Əhmədova da təltif edildi.

**10-14 yaş kateqoriyasında qızlar arasında 1-ci yerin qalibi 77 nömrəli iştirakçı Cahan Qurban** oldu və onunla yanaşı, libasın müəllifi “Moyisey” moda evinin rəhbəri, modelyer-dizayner Hicran Əhmədova təltif edildi.

**10-14 yaş kateqoriyasında oğlanlar arasında 1-ci yerin qalibi 81 nömrəli iştirakçı Amin Hüseynli** oldu və onunla yanaşı, libasın müəllifi “Mina Style” moda evinin rəhbəri, modelyer-dizayner Minarə İmamverdiyeva təltif edildi.

Bəli, bu müsabiqə böyük uğurlara hələ kiçik addımlar atan fidanlarımız üçün tramplindir. Və təbii ki, bu cür layihələrin Azərbaycanı gələcəkdə xaricdə təmsil edəcək istedadların - modellərin aşkarlanmasında xidməti əvəzsizdir.

**Uğur olsun!**

**Y. MƏMMƏDLİ**







# Oxşarların sirri: Keçmiş MI6 rəisi saxta və əsl Putini necə dəqiq ifşa edəcəyini açıqladı

**Rusiya prezidenti müntəzəm olaraq ictimaiyyət qarşısında şəxsən görünür və hamısı sui-qəsd riskinin səviyyəsindən asılıdır**

**Rusiya prezidenti Vladimir Putin Ukraynaya qarşı genişmiqyaslı müharibə fonunda sui-qəsd təhlükəsini minimuma endirmək üçün ictimai tədbirlər zamanı müntəzəm olaraq oxşarlarından istifadə edir.**

Tezadlar.az <https://tezadlar-.az/> xəbər verir ki, "The Sun" qəzetinin məlumatına görə, bunu Britaniya MI6 kəşfiyyatının keçmiş rəhbəri Riçard Dirlav bildirib.

Onun sözlərinə görə, Putin oxşarlarının görünüşü ilə bağlı Ukrayna kəşfiyyatının məlumatları etibarlıdır və ictimaiyyət qarşısında kimin görünməsi ilə bağlı qərar təhlükəsizlik riskləri nəzərə alınmaqla qəbul edilir.

"Bu, uzun müddətdir standart təcrübə olan ciddi təhlükəsizlik protokolunun bir hissəsidir", - Dirlav qeyd edib.

## Müharibə təhdidləri artırıb

Qərb analitikləri oxşarlardan istifadənin artmasını Rusiyanın Ukraynaya qarşı genişmiqyaslı təcavüzü ilə əlaqələndirirlər. Ukrayna kəşfiyyat xidmətləri dəfələrlə Rusiya xətlərinin arxasındakı hədəfləri vurmaq qabiliyyətlərini nümayiş etdiriblər və bu da Putinə yaxın olanların narahatlığını xeyli artırıb.

"Əgər Ukrayna dronları onun harada və nə vaxt olduğunu dəqiq bilsəydilər, o, prioritet hədəf olardı", - deyə keçmiş MI6 rəhbəri izah edib.

## Oxşarların istifadə edilmədiyi yerlər

"Dirlove"-a görə, diplomatik danışıqlar və qapalı şəxsi görüşlər zamanı oxşarlardan istifadə edilmir.

"Putini yaxın məsafədən təqlid etmək olduqca çətindir", - deyə o vurğuladı.

Lakin açıq hava tədbirlərində - zavod ziyarətlərində, şou səfərlərində və ya gəzintilərdə - ətraf mühitə tam nəzarət etməyin mümkünsüzlüyü səbəbindən oxşarların istifadəsi daha çox ehtimal olunur.

Bundan əlavə şübhələr Yaponiyanın TBS televiziya şəbəkəsinin 2023-cü il tarixli reportajı ilə dəstəklənir. Mütəxəssislər Putinin müxtəlif ictimai çıxışlar zamanı üz ifadələrini və bədən hərəkətlərini təhlil etmək üçün süni intellektdən istifadə ediblər.

Tədqiqata görə, əsl Putin Moskvada 9 may paradında iştirak edib. Bu arada, təxminən bir il əvvəl Krım körpüsünün yoxlanılması zamanı onun oxşarının ortaya çıxması ehtimalı var - aralarındakı oxşarlıq 50%-dən bir qədər çox idi.

## Putin oxşarları

UNIAN xəbər verir ki, Ukrayna Təhlükəsizlik Xidmətinin keçmiş zabiti İvan Stupak Kreml liderinin həqiqətən oxşarları olduğunu iddia edib. Onun sözlərinə görə, Putinin oxşarının əsas məqsədi "orijinal" üçün nəzərdə tutulan gülləni əldə etməkdir və əsasən budur.

Eyni zamanda, hərbi analitik professor Maykl Klark Rusiya prezidenti Vladimir Putinə sui-qəsd ehtimalının az olduğuna inanır.

**E.ŞİRİNOV**

# Adnan Əhmədzadə ilə Mübariz Mənsimovun kəsişən yolları

***Tezadlar.az ın elektron poçtuna göndərilmiş yazını mənbəyə istinadla təqdim edirik. Yazıda maraqlı tərəflərin mövqeyinə hörmətlə yanaşır və dərc etməyə hazırıq:***

*Ölkə mediasının böyük bir qismini əlində saxlayan Adnan Əhmədzadənin əlaltıları hələ öz fəaliyyətindədir və Dövlətə qarşı "əzələ" nümayiş etdirirlər*




...Mübariz Mənsimova qarşı qarayaxma kompaniyasının arxasında Adnan Əhmədzadənin adamı Elnur Abdullayev dayanırmı? Heç sizə maraqlı olmadı ki, Adnan Əhmədzadənin həbsi haqqında ölkə mediasının yarısı niyə yazmadı? - Adnan Əhmədzadəyə bağlı olan oxu.az, report.az, baku.ws, "Haber Global"ı kimi şəbəkəni narahat edən nədir?

Öncə ondan başlayaq ki, Adnan Əhmədzadə Azərbaycanda ən böyük media şəbəkəsinin - "Global Media Group"un qeyri-rəsmi sahibidir. Bu şəbəkəyə çox sayda nüfuzlu media subyektləri daxildir. Türkiyədə fəaliyyət göstərən "Haber Global" telekanalı, report.az, baku.ws, oxu.az, media.az, Kaspi qəzeti, Baku tv, caliber.az "Global Media Group"a daxildir. Maraqlı tərəfi odur ki, neft satışı ilə məşğul olan Adnan Əhmədzadə "Global Media Group"un tərkibindəki media qurumları ilə yanaşı, kənardakı onlarla saytı da maliyyələşdirirmiş. Hansı ki, onun həbsindən sonra bu fakt tam çılpaqlığı ilə üzə çıxdı. Yəni, apardığımız araşdırma zamanı məlum oldu ki, "Global Media Group"a daxil olan media subyektləri ilə yanaşı, ölkədə fəaliyyət göstərən onlarla sayt Adnan Əhmədzadənin Bakıda həbs olunması haqda bir cümlə belə, yazmayıblar. Hətta onlar iş adamının həbsi ilə bağlı Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən açıqlanan bir neçə cümləlik rəsmi informasiyanı da dərc etməyə ehtiyac görməyiblər. Təbii ki, bu da iş adamının təkcə iqtisadi maxinasiyalar səbəbindən həbs olunmadığını, ortada siyasi səbəblərin də olduğu ehtimalını irəli sürməyə imkan verir.

Bəs, "Global Media Group"-dan kənarda A.Əhmədzadəyə xidmət edən saytlar hansılardır? Araşdırmaya əsasən deyə bilərik ki, "Global Media Group"a daxil olan "Haber Global" telekanalı, "Report" İA, "Baku TV", "BAKU.WS", "Oxu.az", "Media.az", "Kaspi", "Caliber . az" media subyektlərindən əlavə, "Yenisabah.az", "Yenicag.az", "Olke.az", "Sfera.az", "Demokrat.az", "Qaynar.info", "Valyuta.az", "Azxeber.az" və s. saytlar da A.Əhmədzadənin həbsi haqda bir cümlə yazmayıblar.

Buradan belə qənaətə gəlmək olar ki, onlar ya birbaşa A.Əhmədzadə tərəfindən maliyyələşdiriliblər, ya da bu haqda məlumat verməməklə bağlı eyni mənbədən tapşırıq alıblar. Deməli, Azərbaycanda hələ də Adnan Əhmədzadənin həbsinə dirəniş göstərən qüvvələr var və onlar ölkə mediasının önəmli hissəsini öz nəzarətləri altında saxlayırlar.

Maraqlıdır ki, Mübariz Mənsimova qarayaxma kampaniyasında fəallıq göstərən bu saytlara nəzarət edən və birbaşa sifarişçi "Global Media Group"un rəsmi sahibi kimi təqdim olunan Elnur Abdullayev Adnan Əhmədzadənin yaxın adamıdır. Bundan əlavə ölkədə dövlət qurumlarının fəaliyyətini iflic edən, Lənkəran-Astara bölgəsi ilə bağlı qarayaxma kampaniyası aparan cenublu.az saytının, eləcə də gencexeber.az, sumqayitxeber24.az, shimal.-news, bakuplus.az saytlarının rəhbəri jurnalist Həmid Həmidovdur və Rusiya yönümlü şəxs kimi tanınır. Həmid Həmidov bundan öncə media.az, report.az saytlarına rəhbərlik edib, daha sonra isə o, "Global Media Group"un Media üzrə direktoru olub. Ölkə mediasının böyük bir qismini əlində saxlayan Adnan Əhmədzadənin əlaltıları hələ öz fəaliyyətindədir və Dövlətə qarşı "əzələ" nümayiş etdirirlər.

**"Bizim Lənkəran" bloqu**

# MƏNİ O YANDIRIR Kİ... - ASİF TALIBOĞLU YAZIR

## Niyə onların adını çəkməyə qorxuruq axı

**Qarşıma çıxan bir video məni də çox sarsıtdı... Qubadlı rayonunun Qaracallı kəmd orta məktəbinin binasının xarabalıqlarına baxanda göyüm-göyüm göynədim. Yadıma düşdü ki, dörd il bundan əvvəl Qubadlıya ayaq basanda çox evləri salamat görmüşdüm. Vaxt ötdükcə, bu evləri uçurub dağıtmağa başladılar, qapı-pəncərələri söküldü, beton məhəccərlər yerlə yeksan edildi, metallar maşınlarla naməlum istiqamətlərə daşındı.**

***YERİ GƏLMİŞKƏN:***

Yuxarı Mollu kəndindən olan dayım oğlu Əli İldırımoğlunun 2 mərtəbəli evinə, həyət-bacasına, su quyusuna, bağ-bağatına ermənilər toxunmamışdılar.

Əlbətdə, buna çox sevindik və Əli müəllimin oğlu İlham mənim yanımda Aşağa Molludan olan Taryel Ağayevə zəng edib dedi ki, Əli müəllimin evi salamatdır. Xahiş edirəm bu evə toxunma.

Taryel "baş üstə"- dedi və söz verdi ki, arxayın olsun. ...Və bir neçə aydan sonra kəndimizə gedəndə gördük ki, Əli müəllimin biz gördüyümüz o axarlı-baxarlı evindən, həyət-bacasından əsər-ələmət qalmayıb...

Qayıdaq Həkəri çayı üstündə yerləşən kəndlərdəki salamat evlərin sökülməsinə və metalların daşınmasına "təhkim" olunan Taryel Ağayevin üstünə.

**Taryel Müzəffər oğlu Ağayev Aşağa** Mollu kəndində anadan olub və Qubadli rayonu işğaldan azad edilən gündən ermənilərin toxunmadığı salamat evlərin daşını, divarını söküb, içindən çıxan dəmir boruları, dəmir məhəccərləri, bir sözlə, gözə görünən nə varsa söküb aparır...

Xatırladım ki, bu illər ərzində rayonun giriş-çıxışını "göz bəbəyi" kimi qoruyan polis rəisləri,(onlar həm də Qubadlının komendatudırlar), bir dəfə də olsun Taryel Ağayevə güldən ağır bir söz deməyiblər. Əksinə, lazım olan yerdə qulluğunda da durublar...

Rayondan maşın-maşın daşınan metal üzü Bakıya tərəf sürət götürəndə postlarda dayanan polislər "fərağət" komandasında dayanaraq, onları toza basan bu maşınların arxasınca boylanırdılar.

Həkəri çaylnın üstündə neçə dəmir konstruksiyalı körpünü dağıtdı Aşağa Molludan olan Taryel, erməninin dağıtmadığı neçə evləri yerlə yeksan etdi Aşağa Molludan olan Taryel... Və həmən bu Taryyel öz yaxın qohumlarının, əzizlərinin belə evini söküb, metalını betondan ayırıb apardı...

Bu gün bütün qubadlılar Taryeli söyür. Düz də edirlər. Çünki Taryel öz vəzifəsini çox qəddarcasına, can-başla, "şərəflə" yerinə yetirir. Ağalarına sədaqətlə qulluq etdiyinə görə dəfələrlə ənam da alıb.



Aşağıdakı videoya baxanlar yəqin ki, Taryel Ağayevin şərəfsiz hərəkətindən hələ az yazdığımı düşünəcəklər. Amma gəlin bir anlığa məsələnin görünməyən tərəfinə işıq tutaq...

Məni o yandırır ki, Taryelə bu qədər səlahiyyət verənlərin kimlər olduğunu dilə gətirən yoxdur. İlana zəhər verən kərtdənkələlər harda puskuda dayanıblar, "bilən yoxdur."

Niyə onların adını çəkməyə qorxuruq axı. Aşağıdakı vidio-görüntünü çəkib, şərh verənlər niyə demir ki, çox olsa, 50 kilo çəkisi olan cılız Taryelə kim verir bu boyda səlahiyyəti. Axı, hamımız yaxşı bilirik ki, Taryel bu işdə olsa-olsa peşka ola bilər. Şah, vəzir, vəkil isə daha yuxarılardadır. Ən zəhərli ilanlar daş altında yatır dеyirlər.O ilanları tapıb başını əzməyincə tarıyellər, mamedlər, keçəl həmzələr haqqımızı yeyəcəklər. Peşqalar da meydan sulayacaq....

**Asif Talıboğlu, jurnalist**

# Hövsanda stadion ələ keçirildi, hasarlandı - “TƏZADLAR”IN ARAŞDIRMASI

## *Bu müəmmalı tikilinin arxasında kim dayanır?*



**Hövsan qəsəbəsinin mərkəzində illərdir sakinlərin istifadə etdiyi stadion ərazisində hazırda müəmmalı tikinti aparılır. «Təzadlar»a daxil olmuş şikayətlə bağlı ərazidə olduq. Şikayətçi sakinlər bildirdilər ki, söhbət Fövqəladə Hallar Nazirliyi məktəbinin, Olimpiya İdman Mərkəzinin, Elman Qasımov adına küçənin, Əlillərin binasının, eləcə də üzbəüzdə yerləşən “15-lər” və “17-lər” kimi tanınan yaşayış binalarının bir addımlığında yerləşən qəsəbənin ən böyük futbol stadionundan gedir.**

Məlum olur ki, bir vaxtlar uşaqların futbol oynadığı, gənclərin vaxt keçirdiyi, yaşlıların səhər-axşam yürüş etdiyi, insanların nəfəs aldığı bu yer indi hasar arxasında gizlədilən naməlum tikintiyə çevrilib. İndi əsas sual budur: bu qədər binanın, məktəbin, idman obyektlərinin ortasında yerləşən, ictimai istifadədə olan stadionu ləğv edib yerində obyekt, bina və. s tikmək hansı ağıla, hansı məntiqə, hansı qanuna sığır?

***

Ərazidə olarkən aparılan işlərlə bağlı ən diqqətçəkən məqam isə tam məlumat boşluğudur. Tikinti sahəsində adətən rast gəldiyimiz məlumat lövhəsi də yoxdur. Nə tikinti aparan şirkətin adı, nə layihə lövhəsi, nə də ictimaiyyətə hər hansı izahat və üzrxahlıq verilib. Bəs bu tikintini kim aparır? Kim icazə verib? Bu ərazi hansı əsasla zəbt olunub? Nəhayət, qəsəbənin bu ərazisində yaşayan sakinlər, xüsusən də gənclər və uşaqlar boş vaxtlarında harda idmanla məşğul olsunlar? Avaralanmağa meyillənsinlər, yoxsa siqaret çəkməyə getdsinlər?! Bəli cavabsız suallar çoxdur, cavabdeh isə yoxdur. Bu isə haqlı olaraq suallar doğurur. Ən ağrılı məqam isə, odur ki, bu stadion uşaqların, yeniyetmələrin, gənclərin yeganə idman məkanı idi. İnsanlar burada futbol oynayır, səhər-axşam gəzintiyə çıxırdı. İndi isə hansısa işbazın məntiqilə bu yer məhv edilir. Kimin və nəyin marağı naminə?

Bir müddət əvvəl bu ərazini görəndə düşünmək olardı ki, bəlkə yaşıllaşdırma aparılır, bəlkə stadion təmir edilir. Amma yox. Məlum oldu ki, məsələ yenə də klassik ssenaridir: ictimai məkan, hasar, obyekt və ya göydələn və şəxsi qazanc!

**Məlumat yoxdur, cavabdeh yoxdur, sakinlər narahatdır...**

Vətəndaşın xeyrinə bir iş görsələr, bu artıq fövqəladə hadisə olardı.

İndi isə növbəti suallar ortaya çıxır: Bəs Suraxanı Rayon İcra Hakimiyyəti hara baxır? İcra başçısı Adil Əliyev işgüzar və obyektiv insandır-icra başçısıdır. Görəsən, onun bu gizli tikintiyə mövqeyi necədir?

Bu qədər texnika, hasar, söküntü gözlərinin önündə baş verir, görmürlərmi? Polisin, sahə müvəkkili bu ərazidən keçmir? Yoxsa, hamı burda görür, amma susur?! Əgər hansısa vətəndaş öz həyətində bir quş damı tiksəydi bütün dövlət qurumları başının üstünü alardı. Amma əhəlinin istifadəsində olan ictimai əhəmiyyətli bir stadionu göz qabağında məhv edirlər, heç kimdən səs şıxmır və hamısı partizan kimi susurlar.

«İcra başçısı Adil Əliyev işgüzar və obyektiv insandır-icra başçısıdır- onun bu gizli tikintiyə mövqeyi necədir?■

Halbuki bu ərazidə park salmaq, idman avadanlıqları quraşdırmaq, uşaqlar və böyüklər üçün sağlam həyat şəraiti yaratmaq daha məqsədəuyğun olardı. Amma asan yol seçilir: beton, bina, göydələn. Belə davam edərsə, bir müddət sonra bu şəhərdə nə nəfəs almağa hava qalacaq, nə də bir metr açıq məkan. Bəzi tamahı bitməyən, puldan doymayan şəxslərin maraqları cəmiyyətin sağlamlığından üstün tutulur.

Həkim deyir: “Gündə yarım saat gəzin, idman edin”. Bəs bu insanlar Hövsanda harda gəzsin, idmanla harda məşğul olsun???

Bu gün Azərbaycanda ürək-damar xəstəlikləri, piylənmə, stress və hərəkətsizliklə bağlı problemlər artıbsa, bunun səbəblərindən biri də məhz budur. Həkim deyir: “Gündə yarım saat gəzin, idman edin.” Yaxşı, bəs harada? Harada gəzsin bu insanlar? Uşaqlar idmanla harada məşğul olsunlar? Vaxtilə bu stadionda yüngül idman yürüşü edən insanlar, indi küçədə gəzməyə belə yer tapmır. Çünki belə məkanlar ardıcıl şəkildə məhv edilir, yerində isə beton hasarlar salınır. Axı cənab Prezident icra başçılarını ora təyin edib ki, xalqın problemlərini həll etsinlər, şəhərləri yaşanılan etsinlər, vətəndaşa xidmət göstərsinlər. Amma təəssüf ki, bəzi icra strukturları bu missiyanı unudub, özbaşınalığa göz yummaqla, yaxud birbaşa maraqlı tərəf kimi çıxış etməklə məşğuldurlar.

***

Bu laqeydlik və qeyri-müəyyənlik fonunda vəziyyətin nə yerdə olduğunu öyrənmək üçün biz əraziyə baş çəkdik, sakinlərlə həmsöhbət olduq. Onların hamısı eyni fikri bildirdi: burada nə tikildiyini bilmirlər.

Sakinlər deyir ki, ərazi hasara alınandan sonra heç bir rəsmi məlumat verilməyib, heç kimlə izahat işi aparılmayıb. Daha maraqlı məqam isə budur ki, tikinti sahəsində mühafizəçi kimi çalışan şəxs də burada nə tikildiyindən xəbərsiz olduğunu bildirdi. Bəlkə də məlumat verməkdən qorxdu. O, bizimlə söhbətdə dedi ki, mühafizəçi kimi çalışır və nə tikintini aparan şirkətin adını, nə də layihənin mahiyyətini bilir. Əlaqə üçün hər hansı telefon nömrəsi və ya məsul şəxs barədə də məlumat vermədi.

Bu, təbii ki, şübhələri daha da artırır. Görünən odur ki, tikinti prosesi maksimum gizlilik şəraitində aparılır və hətta orada çalışanlara belə məlumat verilmir.

Halbuki söhbət sıradan bir torpaq sahəsindən yox, ictimai istifadədə olan stadion ərazisindən gedir. Yenə də qeyd edirik ki, bu yer illərlə Hövsan sakinlərinin gəzinti və idman məkanı olub. Vətəndaşların isə tam haqlı bir tələbi var:

Bu ərazidə nə tikilir?

Əgər tikinti qanunidirsə, layihə açıq şəkildə təqdim olunmalıdır, ictimaiyyətə izah verilməlidir. Əgər hər şey qaydasındadırsa, niyə bu qədər gizlilik var? Bu stadion təkcə Hövsanın yox, bütün şəhərin problemidir. Çünki bu gün stadion hasarlanırsa, sabah park, o biri gün məktəb həyəti hasarlana bilər. İnsanların nəfəs aldığı, hərəkət etdiyi, sağlamlığını qoruduğu məkanlar bir-bir yoxa çıxır. Vətəndaşın haqqıdır bilsin ki, bu ərazidə nə tikilir, kim tikir və hansı əsasla tikir?

***

Biz bu sualları Dövlət Şəhərsalma və Tikinti Komitəsinə ünvanlayırıq və ümid edirik ki, əgər tikinti qanunidirsə, aidiyyəti qurumlar və ya tikintini aparan tərəf bu yazıya cavab verəcək. Çünki susduqca hasarlar böyüyür...

**P.S. Məsələni aydınlaşdırmaq və əks tərəfin mövqeyini öyrənmək üçün iki dəfədir ərazidə olmuşuq, tikinti sahəsinə əlaqə üçün telefon nömrəsi də vermişik. Lakin aradan xeyli vaxt keçsə də, heç bir cavab verilməyib. Buna baxmayaraq, qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq və mövzunu gündəmdə saxlayacağıq.**

**Sözümüz həm də Suraxanı rayon İcra Hakimiyyətinədir: bu tikintidən xəbəriniz varmı? Varsa...**

**ELŞAD FƏRMANOĞLU**

---

**...2010-cu ildə Sankt-Peterburqdakı “Usadba” restoranının parkinqində Rusiya vətəndaşı olan bir nəfər azərbaycanlı digər 3 nəfər tərəfindən beysbol dəyənəkləri ilə vəhşicəsinə döyülür. Təsadüf nəticəsində orada olan milis əməkdaşları onu ölümdən xilas edir. Həmin şəxs deputat RAZİ NURULLAYEVİN QARDAŞI, bu günlərdə Dubayda oğluna dəbdəbəli toy edən HASİL NURULLAYEV idi.**

# Razi Nurullayevin qardaşının qətlini sifariş verən kim idi?

*Hadisə ilə bağlı “Qrup halında əvvəlcədən əlbir olaraq qətlə cəhd” maddəsi ilə cinayət işi qaldırılır*



İstintaqın versiyasına görə Hasil Nurullayevin onun qətlini sifariş edən İlham Əliyevə böyük məbləğdə borcu olub.

Hadisə ilə bağlı “Qrup halında əvvəlcədən əlbir olaraq qətlə cəhd” maddəsi ilə cinayət işi qaldırılır. Hadisədən sonra Hasil Nurullayev xaricə qaçır. Dövlət orqanlarına məktublar yazaraq “Əliyevdən qorunmasını” xahiş edib.

Kimdir İlham Əliyev? Əliyev İlham Oruc oğlu Hasil Nurullayevin həyat yoldaşının əmisidir.

Sonradan onlar barışırlar və cinayət işi illərlə bağlı qalır. Lakin son illərdə Razi Nurullayevin qardaşını qətlə yetirmək cəhdində şübhəli bilinən icraçılardan biri tutulur. O, sifarişçi kimi İlham Əliyevin adını çəkir. Bundan sonra Nurullayev şahid və zərərçəkən qismində istintaqa cəlb edilir. İllərlə davam edən istintaq və məhkəmə işi ötəm ilin avqustunda başa çatır və Hasil Nurullayevin həyat yoldaşının əmisi “adam öldürməyə cəhd” maddəsi ilə, cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməklə 19 il yarım müddətinə azadlıqdan məhrum edilir.

Razi Nurullayevin qardaşları Hüseyn və Hasil Nurullayevlər və Dubayda toyu olan qardaşı oğlu Şahin Nurullayev 20 ildən bəridir ki, Sankt-Peterburqda əmlak və tikinti bizneslə məşğuldurlar, “PERSPEKTİVA”, “ALTERNATİVA”, “ELİZAVETA”, “ORİON”, “MUNİR”, “OLİMP-FİNANS”, “ASSET”, “YABLOKO”, “AVRORA”, “MERKURİ”, ” ŞANS”, “RİK” kimi çoxsaylı şirkətlərə sahibdirlər.

**Cavanşir HƏSƏNLİ,**
**Araşdırmaçı-jurnalist**

**P.S.Həlеki Hasil Nurullayev bu məsələyə münasibət bildirməyib.**
**(Şəkildə: Hasil Nurullayev)**

# Sadəcə, jurnalist Elbar Şirinov...

*“Təzadlar” qəzetinə və eyni adlı xəbər saytına 30 ilədək fasiləsiz xidmət etmiş əməkdaşımızın - ailə üzvümüzün doğum gününə...*

**Ağdamın Novruzlu kəndində doğulub böyə-başa çatan və ali təhsilini indiki Qarabağ Universitetində alan Elbar Şirinov ilk əmək fəaliyyətini, o zamanlar təyinatla göndərildiyi Laçının uzaq dağ kəndlərindən birində - orta məktəbdə parta arxasında müəllim yolu gözləyən şagirdlərinə ədəbiyyat və ana dilimizin tədrisi ilə başlayıb. İxtisasca filoloqdur.**



Bu gün adı dilimizdən düşməyən, sayəsində sinələrimizdə (sinələrinizdə) medallar gəzdirdiyimiz (bu barədə sonra), kölgəsinə sığınaraq çox şeylərə nail olduğumuz, yaxud əldə etdiyimiz - mətbuatımızın ulu babası Həsən bəy Zərdabi kimi onun da jurnalistikaya gəlişi müəllimlikdən keçib. Və o “müəllim” deyə müraciət etdiyimiz şərəfli kəlməni - azərbaycanlıların hörmət əlaməti olaraq xitab etdiyi müraciət formasını həm həyat tərzi, davranışı, xarakteri, həm də peşəsi ilə layiqincə qazananlardandır.

***

Bakıya - “Təzadlar”a gəlişi isə Qarabağın alınmaz qalası olan Ağdamın Ermənistan tərəfindən işğalından, el-obasından köçkün düşdükdən sonra oldu. Tale onun gələcək iş həyatını məhz “Təzadlar”dan keçirdi. Əvvəllər də məqalələr göndərdiyi redaksiyaya bu dəfə iş yeri olaraq müraciət etdi... Və yarandığı gündən məcburi köçkünlərə qucaq açan “Təzadlar” qəzetinin redaksiyası qələminə bələd olduğu, üz-gözündən dürüstlük, mülayimlik, səmimiyyət yağan bu insanı məmnuniyyətlə sıralarına qəbul etdi. Və artıq 30 ilə yaxındır ki, öz doğma iş yerini heç bir yerə dəyişmədən, başqa gəlirli “yuva” axtarmadan, maliyyə sıxıntılarına sinə gərərək bir gün belə “postunu” tərk etmədən çalışır.

***

## *“O, heç zaman özünü gözə soxmadı, sosial şəbəkə hesablarında kiməsə söz atıb qalmaqal yaratmadı”*

...O, başı məhkəmə çəkişmələrindən, min bir əzabdan, keşməkeşdən keçəndə də, üzərindən qara yellər əsəndə də 33 yaşı olacaq qəzetin (həm də saytın) səfində dayanıb. Deyərdim ki, vicdanlı, qərəzsiz, ləyaqətli, yaltaqlıqdan uzaq, təvazökar qələm adamı deyiləndə adı çəkiləcək jurnalistlərin ilk sırasında onun da adı yer almalıdır.

O heç zaman özünü gözə soxmadı, sosial şəbəkə hesablarında kiməsə söz atıb qalmaqal yaratmadı, “qazanda qaynayandan” xəbərdar oldu-olmadı “mənə də bir çömçə ver” tələbində də israr etmədi, yalnız öz işi, üzərinə düşən vəzifəsi ilə məşğul oldu.

Çalışdığı bu illər ərzində saysız-hesabsız məqalələr, müsahibələr hazırladı, problemlərə işıq tutan yazılar müəllifi oldu. Redaksiyaya üz tutan neçə-neçə vətəndaşın şikayət məktubunu araşdırdı, onlara dəstək oldu, bölgələrə ezam olundu - çağırışlara yerindəcə aydınlıq gətirdi. Qəzet dərc olunan günlərdə isə redaksiyanı ən gec o tərk edər, payızın yağışında, qışın qarında, şaxtasında “plyonkaları” mətbəəyə aparar, səhər tezdən redaksiyaya ayrılan qəzetləri masalara qoyar...

***

Elbar Şirinov uzun illər Parlament müxbiri kimi də fəaliyyət göstərib və hazırda qəzetin Baş redaktor müavinidir - MEDİA vəsiqəsini daşıyanlardan, həm də vicdanla daşıyanlardan biridir. Uzun illər “Təzadlar”ın “şinel”indən keçən neçə-neçə jurnalistin (bu gün “tanınmış qələm sahibi” kimi təqdim edilən bir çoxu) yazısındakı “eyibləri” aşkar edib, qüsursuz dərc edilməsinə köməyini əsirgəməyib.

***

...O, həyatını problemlər, qayğılar cəngində vuruşaraq yaşamaqdadır. 33 ilin qəzeti olaraq yarandığı gündən əməkdaşlarının bir çoxu məcburi köçkün olan, ev şəraiti ağır olan “Təzadlar”ın heç bir əməkdaşı jurnalistlər üçün tikilən binalardan ev almadı, yaxud verilmədi...

Elbar Şirinov da 20 ildən çox yataqxanadakı birotaqlı darısqal mənzilində (qohumuna məxsus) ailəsi ilə yaşadı. Bəlkə də Parlament müxbiri olaraq deputatlara yaxınlaşıb öz dərdini deyə, hansısa problemini həll edə bilərdi. Lakin o Parlamentdə şəxsi problemlərini, qayğılarını həll etmək üçün deputatları dəng edən, bayramqabağı, doğum günündə kiməsə zəng edib “bəxşiş” uman jurnalistlərdən deyildi. Sonralar uzun illər yaşadığı ev problemi də qəzet rəhbərliyinin müdaxiləsi və “Qaçqınkom”un köməyi ilə yoluna qoyuldu... Və buna görə də bu quruma böyük təşəkkür düşür.

***

Bəli, Vətən, dövlət qarşısında xidmətləri böyük olan, zamanında Ermənistan mətbuatında ordumuz əleyhinə tirajlanmış aşağılayıcı yazılara (bu gün sinəsinə döyən bəziləri o zaman Azərbaycan ordusu haqqında hədyanlar yazaraq ermənilərə “pas” verirdi) layiqli cavab dərc edən, bir çox xarici KİV-də erməni dəyirmanına su tökən, Azərbaycanın ərazi bütövlüyü əleyhinə yayımlanmış xəbərləri, o cümlədən bəzi ölkələrin birbaşa dövlətə məxsus qəzetindən - internet səhifəsindən sildirən, hətta həmin qəzetin rəhbərliyindən üzrxahlıq məktubu alan bu qəzetə, açıq deyim, uzun illər Qərbin Azərbaycana göstərdiyi ikili standartlar səviyyəsində yanaşılıb (?). Bunu hamı görürdü, hamı bilirdi və bir çox sözü yuxarılarda keçənlər də susurdu... Çünki bəzi insanlar mənafelərinə toxunulduqda ədalət axtarırlar, səs salırlar. İstədiklərini aldıqda, onlar daha sözəbaxan olurlar və susmağa üstünlük verirlər. Bunu görə-görə gəldik... Yalnız MEDİA qurumu yarandıqdan sonra bir neçə dəfə biz də layihədən yararlanmaq şansı qazandıq...

***

...İndi əli kiminsə cibində, kimlərinsə kurasiyasında, himayəsində olmayan media qurumu olaraq uzun illər ayaqda qalmağı bacaran qəzetin və saytın məhz bütün çətinlikləri gözə alan əməkdaşları gecə-gündüz var gücü ilə çalışırlar - onlardan biri də Elbar Şirinovdur.

Saytlardan hər gün özəl yazılar tələb olunan, oxucunu itirməmək - xəbər rəngarəngliyi və bolluğu yaratmaq, eyni zamanda ölkədə və dünyada baş verən hadisələri operativ şəkildə çatdırmaq üçün mücadilə verildiyi bir zamanda redaksiyaların bir çox əməkdaşı bayramsız, istirahət günləri olmadan çalışırlar: hətta rayona toy, yas yerinə gedəndə də, bir həftəlik istirahət günlərində də noutbukla, planşetlə səfərə çıxılır. Dediklərim, faktdır və bir çox jurnalistlər də bu faktı təsdiqləyər.

Bütün bu narahat həyat tərzini redaksiyamızın jurnalistləri ödül, mükafat naminə yaşamırlar, öz peşələrini sevərək və bunu vəzifəsi bilərək icra edirlər.

Təkcə Elbar Şirinovun bir il ərzində sayta yerləşdirdiyi xəbərin (o cümlədən özəl xəbər və məqalələr) sayı 17 minə yaxındır. 30 ilin qələm adamıdır, 33 yaşı olacaq qəzetin ştatda olan əməkdaşıdır. İndiyədək heç bir medalla təltifi olmayıb. Zatən, uzun illər jurnalistlərə verilən yüksək adlı medalların “Siyahı”da adı olan qəzetlərdə çalışanlara verildiyini kim bilmirdi ki... “Əməkdar jurnalist” adına illər öncəsi belə layiq olan Asif Mərziliyə bu ad verilməyibsə, başqalarından sitat gətirməyə ehtiyac yoxdur: “kor- kor, gör-gör”. Heç bir mübaliğəsiz!

***

2025-ci il məlum olduğu kimi, jurnalistlər üçün 1875-ci ildə “Əkinçi” qəzetini dərc etməklə Azərbaycan Milli Mətbuatının əsasını qoyan maarifçi babamız Həsən bəy Zərdabinin əməyinin 150 illiyi ilə yaddaqalan oldu... Və məhz bu əməyə qiymət vermək - bilavasitə Azərbaycan mətbuatının cəfakeşləri üçün Prezident İlham Əliyevin Fərmanı ilə “150 illik yubiley medal”ı təsis edildi.

Lakin təəssüflər olsun ki, 33 ilin qəzetindən cəmi bir nəfər ştatda olan əməkdaşına bu medaldan pay düşdü... Hələki ortada heç bir siyahı yoxdur! Amma sosial şəbəkələrdəki toy-nağaradan sonra kimlərin bu ödülə layiq görüldüyü - verildiyi ortaya çıxdı. Əlbəttə, redaksiyada - mətbuat sahəsində uzun illər xidməti olan Elbar Şirinov da ştatda olan, MEDİA-nın tələblərini yerinə yetirən jurnalistlərdən biri olaraq kənarda qaldı. Yenə də susmaq olardı, amma bu adamlar kimlər idi? Onlar necə və hansı yolla, nə səbəbə medal ala bildirlər ki, bizlər və bir çox jurnalist kənarda qaldı?!

Aralarında kimlər yox idi: təlimçi, sənətşünas, qoruq işçisi, opera müğənnisi, QHT rəhbərləri, mədəniyyət və elm sahəsi üzrə elmlər namizədləri, şairlər, qəzeti satış köşkü görməyən - saytını tanıyanın olmadığı “jurnalist”, fond rəhbəri, necə deyərlər, bu cərgədə bircə “ambardar Məmmədxan” yox idi... Yubiley medalı alanlar sırasında kənd təsərrüfatı işçiləri - əkinçilər, maldarlar... olsaydı, vallah, bu qədər təəccüblənməzdik. Bu dəfə də deyərdilər ki, maarifçi babamız Zərdabi “Əkinçi”də əkinçilikdən, maldarlıqdan yazılar dərc edib də...

***

Baş verənlər haqlı olaraq media cəməəsini silkələdi və həm də bu medal bəzi həmkarları da üz-üzə qoydu: bir-birinin xətrinə dəydilər, hərə özünü daha layiqli bildi, eyni zamanda ilhamını oxuculardan alan bir çox qələm əhlini ruhdan saldı: çünki tələbə mükafatlandırıldı, müəllim kənardan baxdı.. Elə zənn edin! Təsəvvür edin, təcrübəsi qədər yaşı olmayanlar 150 illik yubiley medalı ilə ödüllənidirildilər. Medala aidiyyəti olmayan sahələrin adamlarına bu medalı verdilər, sanki ölkədə jurnalist qıtlığı imiş... Başqa sahələrdə çalışanlardan “jurnalist, yazar” düzəltdilər... Təki hesabat versinlər... Fərman yerinə yetirildi!

Yaxşı, bəs mədəniyyət işçilərinin bayramı olan - 5 aprel Beynəlxalq Mədəniyyət Günü, Akademiyanın yaranma günü-yubileyləri, təhsil işçilərinin - 5 oktyabr Müəllimlər Günü, noyabrın 6-sı Azərbaycan Televiziyası və Radiosu Günü və digər peşə bayramları - günləri nədən ötrüdür?

Frank Sinatra deyirdi ki, “ən yaxşı qisas böyük uğurdur”. Mən şəxsən istəməzdim ki, bir çoxunun sosial şəbəkələrdə özünü reklama yönəlmiş bu medal göstərisi, yaltaq paylaşımları - sicilləmə təşəkkürnamələri layiqli jurnalistlərin əlini sevimli peşələrindən soyutsun, ruhdan salsın. Hamı bilir kim kimdir: sosial şəbəkədə hansısa qurumun yaltaq təbliğatçısıdırmı, şantajçı “problem” ortaya qoyub “xox gələnidirmi”, var olduğunu fotoları ilə duyurandırmı?!

Bu dəfəki ödülləndirməyə bir çox qələm əhlinin münasibəti isə göz önündədir. Və hamını yalnız bir sual düşündürür: yubiley medalı hansı kriteriyaya və meyarlara uyğun verilməliydi və verildi? Bu suala cavab tapan bizə də desin...

***

Həyatımda heç bir kəsə doğum günü münasibətilə belə təbrik yazmamışam, amma bu təbriki yazmalıydım: bildiyim, dərk etdiyim, gördüyüm, hiss etdiyim çox şeyi yazmalıydım. Əslində, bildiyim çox şeyi həm də yazımadım... Bu yazımı da qəmgin notlarla davam etmək istəmədim, çünki oxucularının tanıdığı və minnətdar olduğu, həmkarlarının hörmət etdiyi jurnalist Elbar Şirinovun doğum gününə həsr etmişəm.

Bu yazının xüsusi səbəbkarı - əsl dost, gözəl insan, nümunəvi şəxsiyyət, ləyaqətli qələm sahibi, həmkarım Elbar Şirinovu təbrik edirəm, can sağlığı, hər zamankı kimi, heç nədən sınmamağı, mübariz olmağı və gələcək həyatında yaradıcılıq uğurları arzulayıram.

Mark Tven yazırdı ki, həyatınızdakı ən vacib iki gün: doğulduğunuz gün və səbəbini anladığınız gündür! Əminəm ki, Elbar Şirinov bu səbəbi çoxdan anlayıb.

**Yasəmən MƏMMƏDLİ**

# AMEA-nın müxbir üzvü Vaqif Quliyevin oğlu Emin Quliyev dələduzluq edib?

**"Təzadlar" qəzeti redaksiyasına (elektron poçta) Bakı şəhər sakinləri- Həsənova Vəfa Allahverdi qızı, Qurbanova Rəqibə Heydər qızı və daha bir qrup şikayətçinin adından müraciət daxil olub. Məktubdan görünür ki, bu şikayət bir müddət əvvəl Azərbaycan daxili işlər naziri cənab Vilayət Eyvazova da ünvan edilib.**



*"Müstəntiq Əkbər Ələkbərzadə işə başlayanda bizə dəymiş ziyanın ödəniləcəyini bildirsə də, bu günə qədər hələ də ödənilməyib"*

Həmin şikayəti kiçik ixtisar və düzəlişlə aşağıda təqdim edirik. Söhbət vətəndaşların xaricdə təhsil adı altında aldadılmasından gedir. Belə ki, artıq neçənci dəfədir "Təzadlar"a bu məzmunlu şikayətlər olunur və araşdırmamızla ziyanın ödənilməsi müəyyən mərhələlərlə davam etdirilib. Elə şikayətçilər də, qəzetdə və saytda dərc edilmiş belə bir şikayətlə bağlı araşdırma yazımızı bizə göndərməklə istinad da ediblər. Hiss olunur ki, məzmun və aldatma eynidir(<https://tezadlar.az/-max-group-mmc-de-tekce-etibara-deyil-hem-de-emanete-xeyanet-varmis/>)

Bu da sonuncu şikayət:

"Hörmətli redaksiya.

Biz, AMEA-nın müxbir üzvü olan Vaqif Quliyevin oğlu Emin Quliyevin dələduzluq əməllərinin qurbanları olan bir qrup vətəndaş, Sizə müraciət edərək, kömək istəyirik.

Emin Quliyev "xaricdə təhsil" adı altında müxtəlif vaxtlarda bizləri aldadaraq külli miqdarda vəsaitimizi mənimsədiyi üçün Nəsimi Rayon Prokurorluğuna müraciət etmişik. İş prokurorluğun müstəntiqi Əkbər Ələkbərzadə tərəfindən araşdırılır.

Prokurorluğun sanksiyası əsasında Emin Quliyev barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib. Hazırda da məşhur professor Vaqif Quliyevin oğlu dələduz Emil Quliyev Kürdəxanı həbsxanasındadır.

İstintaq davam edir, şahidlər dindirilib, ortada dəlillər, sübutlar da var. Müstəntiq Əkbər Ələkbərzadə işə başlayanda bizə dəymiş ziyanın ödəniləcəyini bildirsə də, bu günə qədər hələ də ödənilməyib. Müstəntiq indi isə "sizə dəyən ziyan ödənilməyəcək, dələduzun adında heç nə yoxdur, onun barəsində isə məhkəmə qərar verəcək", - deyir.

Bildiyimizə görə Nəsimi Rayon Prokurorluğuna qədər Nəsimi Rayon Polis İdarəsinin əməkdaşı Zaur Tağıyevlə, Xətai Rayon Polis İdarəsinin müstəntiqi Elçin Əlizadə sənədləşmə aparmadan, rəsmiyyətə salmadan Nəsimi Rayon 20-ci Polis Şöbəsində bu işi "araşdırıblar".

**Elçin Əlizadə,**
**Zaur Tağıyev (müstəntiqlər)**

Belə ki, 2024-cü ilin noyabr ayında E.Quliyevin ortaqlarını dindiriblər, şahid ifadələri alıblar. Bəzisinin ölkədən çıxışına stop da qoydurublar. Təbii ki, sonda dələduz E.Quliyev barəsində heç bir tədbir görülməyib.

Bunlar doğrudursa, bəs, adları çəkilən polis əməkdaşlarının bu işdə nə maraqları olub ki, bu işi rəsmiləşdirməyiblər?!

Cənab Prezident çıxışlarında uşaqları qudurğanlıq edən, özlərini apara bilməyən məmurlara səslənərək övladlarının həbs ediləcəyini, atalarının da işdən qovulacağını bildirir. Bu, Emin Quliyevin ilk cinayəti deyil. Buna qədər eyni əmələ görə bir dəfə də həbs edilib. Vətəndaşlara qarşı dələduzluq edən Emin Quliyevin atası AMEA-nın müxbir üzvü Vaqif Quliyev isə hələ də işindən qovulmayıb.

AMEA-nın müxbir üzvü Vaqif Quliyevin oğlu Emin Quliyevin dələduzluğunun növbəti qurbanları kimi, Sizdən xahiş edirik, bizə dəymiş maddi ziyanın ödənilməsi və işin tam, ətraflı, habelə ərizədə adları qeyd edilən polis əməkdaşlarının hərəkətlərinin araşdırılması üçün aidiyyəti üzrə göstəriş verməklə, bizdən köməyinizi əsirgəməyəsiniz".

**Redaksiyadan:** maraqlı şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.

Əlavə məlumat veriləcək.

**"Təzadlar"ın**
**Araşdırma Qrupu**

---

**Dağların qoynunda, Qarabağın əzəmətli təbiətinin qəlbində yerləşən bir şəhər var - Şuşa. Bu şəhər yalnız dağlardan, qayalardan, küçələrdən, tarixi abidələrdən ibarət deyil; hər küçəsi, hər qayası, hər daş parçası Azərbaycan xalqının ruhunu, mədəniyyətini və tarixi yaddaşını daşıyır.**

Bu şəhərin qələbəsi xalqın birliyini və vətən sevgisini gücləndirdi. Artıq hər bir ziyarətçi burada yalnız tarixi görmür, həm də azadlığın sevincini yaşayır, hər daşda və hər küçədə bu qələbəni hiss edir.

# Şuşa - Azərbaycanın qüruru və mədəniyyətinin əbədi simvolu...



Dağların qoynunda yerləşən Şuşa həm də gözəl təbiəti ilə məşhurdur. Qala və tarixi binalardan baxıldıqda Qarabağ dağlarının əzəməti insanı heyran edir. Restorasiya edilmiş evlər, muzeylər və tarixi məkanlar həm turizm üçün cazibədar, həm də milli irsin qorunması üçün əvəzsizdir. Şuşa yalnız tarixi deyil, həm də təbiətin və mədəniyyətin harmoniyasını yaşamaq istəyən hər kəs üçün unikal bir təcrübədir. Şuşa yalnız bir şəhər deyil; bu, Azərbaycan xalqının ruhunun, tarixinin və mədəniyyətinin yaddaşıdır. Onun azad olunması xalqın qəlbində qürur hissi yaratdı, illərlə gözlənilən azadlığın simvolu oldu. Şuşa hər bir daşında tarix saxlayır, hər küçəsində və hər melodiyasında Azərbaycan ruhunu yaşadır. Burada keçmiş və gələcək bir-birinə qarışır: bir tərəfdə minillik tarix, digər tərəfdə azadlığın təntənəsi və milli birliyin əbədi mesajı. Şuşa artıq yalnız şəhər deyil; o, Azərbaycanın qüruru, xalqın ruhu və mədəniyyətin əbədi simvoludur. Bu şəhəri görmək, onun tarixi ilə nəfəs almaq, azadlığın sevincini hiss etmək hər bir Azərbaycanlının və dünyanın hər bir sənətsevərinin həyatında unudulmaz bir iz buraxır. Şuşa - hər bir daşında, hər bir melodiyasında və hər bir küçəsində Azərbaycanın əbədi ruhunu daşıyan bir xəzinədir.

Şuşa illər boyunca həm sevincin, həm də kədərin şahidi olmuşdur. Burada doğulan şairlər, musiqiçilər və sənətkarlar əsrlər boyu Azərbaycan mədəniyyətini dünyaya tanıtmış, bu şəhəri yalnız yaşayış yeri deyil, həm də milli ruhun daşıyıcısı etmişdir. 2020-ci ilin noyabrında isə Şuşa azad oldu. Bu, yalnız bir şəhərin geri qaytarılması deyildi; bu, Azərbaycan xalqının min illik arzusu, qüruru və tarixinin bərpası idi. Şuşanın hər daşında yaşanan acılar və qələbələr indi birləşərək xalqın qəlbində əbədi iz buraxdı. Artıq şəhərin küçələrində yalnız tarix danışmır, həm də azadlığın, sevincin və milli birliyin nəğməsini eşitmək olur.

Şuşa XVIII əsrdə Pənahəli xan tərəfindən qurulmuş və Qarabağın strateji, siyasi və mədəni mərkəzi olmuşdur. Şuşa qalası, qədim məscidlər, Xan sarayı, karvansaralar və digər memarlıq nümunələri bu şəhərin tarixini hər daşında yaşadır. Şəhərin hər guşəsi sanki özündə əsrlərin hekayəsini saxlayır, hər küçəsi xalqın həyatından parçaları danışır. Şuşa Azərbaycan musiqi və ədəbiyyatının beşiyi kimi tanınır. Burada doğulan və fəaliyyət göstərmiş Molla Pənah Vaqifin şeirləri, Üzeyir Hacıbəyovun milli musiqi irsi və muğam sənətkarlarının əsərləri bu şəhəri yalnız coğrafi bir mərkəz deyil, mədəniyyət xəzinəsi halına gətirir. Şuşada keçirilən muğam festivalları, poeziya gecələri və sənət tədbirləri şəhərin ruhunu daha da canlı saxlayır. Burada musiqi, söz və sənət bir-birinə qarışır, oxucuya və ziyarətçiyə sarsılmaz ilham verir. 2020-ci ilin noyabrında Şuşanın azad olunması Azərbaycanın tarixində dönüş nöqtəsi oldu. Bu hadisə yalnız siyasi və hərbi uğur deyildi; bu, xalqın ruhunun qələbəsi, mədəniyyətin, sənətin və tarixin qorunması uğrunda verilən əbədi mübarizənin simvolu idi. Şuşa azad olduqdan sonra bərpa işləri, tarixi abidələrin qorunması və şəhərin yenidən canlandırılması prosesi başladı. Bu, həm də gələcək nəsillər üçün bir mesajdır: "Tariximizi, mədəniyyətimizi və azadlığımızı qoruyacağıq." Şuşanın azadlığı həm də Azərbaycanın bütün regionunda bir ilham mənbəyidir.

**Səma TAĞIZADƏ,**
**Bakı şəhər 212 nömrəli tam orta məktəb**

---

# Qaç, Nəsimi, qaç, yoxa çıx, izin-tozun qalmasın...

**Bir zamanların populyar televiziya siması Nəsimi Nəbizadə indi də populyardı. Amma necə? Yadıma bir şey düşdü. Şair dostumuz Həsən Kür intihara cəhd edərkən onun adını Feysbukun axtarış yerinə yazanda adının altında türkcə bu sözlər yazılmışdı: "Şimdi popüler". Yəni indi populyar...**

**Nəsimi Nəbizadə də indi populyardır. Telejurnalist kimi yox, aludə, qaçaq sözləri ilə asossiasiya olunan anlayışlarla populyar. Nə etməli? Əlim qələm tutandan yaşdaşlarının, həmkarlarının onun haqqında giley-güzarını eşitmişəm. Qarşısını almaqsa, görünür, mümkün olmayıb. Narkotik aslılığı Nəsiminin səsini, təravətini, zehnini öləziləşdirsə də, indi daha deyinməyin mənası yoxdur. Təbii, heç kim sığortalanmayıb. Amma, ən azı, kaş belə olmazdı demək haqqımız var. Bu belə.** (Lent.az)



Son illər pis vərdişlərdən xilas olmaqla bağlı adını tez-tez eşitdiyimiz realibitasiya mərkəzləri barədə gəzən söz-söhbətləri eşidəndə bir anlıq düşünürəm: əgər, həqiqətən, kimsə sağalıb cəmiyyətə qayıda bilirsə, çox yaxşı. Belə adamlar da var. Amma yox, bu işlərin arxasında başqa şeylər dayanırsa, onda qorxmaq lazımdır. Bəziləri həmin mərkəzlərdə xüsusi işgəncələrdən danışır, bəhrə verməyən proseslərdən söhbət açır, bəziləri isə sözügedən yerlərin rəhbərlərinin narkotik aludəçisi olduğu deyirlər. Hər halda, şübhə varsa, gərək o mərkəzlərə nəzarət sistemi yaradılsın və insanların təhlükəsizliyinə zəmanət verilsin. Yaxud həmin mərkəzlərdəki prosedurlara tibbi nəzarətin də zəruri olmadığını heç kim inkar edə bilməz.

Əsas sual: hüquq-mühafizə orqanlarının oradakı sistemdən xəbəri varmı? Nəzarət olunmurmu?

Digər düşündürücü məqam: həmin mərkəzlərin tibbi şəhadətnaməsi varmı? Səhiyyə ilə bağlı aidiyyəti qurumların tibbi gedişata nəzarəti təmin oluna bilərmi?

Yaxud dövlət tabeliyindəki realibitasiya mərkəzlərinin sayını artırıb, infrasturukturunu yüksək səviyyədə təmin edib bu kortəbii və peşəkarlıq səviyyəsi məlum olmayan mərkəzləri bağlamaqmı lazımdı? Bilmirəm... Bilirsiniz, niyə konkret söz demək mümkün deyil? Çünki əməl gözəldi, icraat müəmmalı. Hansısa pis vərdişi olan şəxsi yenidən həyata qaytarmaq yaxşıdı, amma necə və niyə? Bu sualların cavabını kim dürüst verə bilərsə, bu işlə məşğulluğuna bir söz demək olmaz...

Nəsimi Nəbizadənin qayıtmadığı "Qurtuluş" Realibitasiya Mərkəzinin Tiktok, reklam, canlı yayım, "ekranı tıklayın" canfəşanlığını da normal qəbul etmək lazımdır. Kim eləmir? Hamı bu dəqiqə marketinq xətrinə nə desən edir. Sadəcə adama pis təsir edən Nəsiminin, Ceyhun Əsgərovun bu reklamda bir obraza çevrilməyidir.

Nəsimi Nəbizadənin və "Qurtuluş"un addımlarını gündəmə xəbərə çevirmək... Nə qədər fikirləşirsən, bir yerə çıxa bilmirsən. Birincisi, Nəsimi Nəbizadənin onsuz da korlanan reputasiyasını bir az da baltalamaq ayıbdır. Bu adamı dilə-dişə salıb "qaçdı", "itdi" sözləri ilə daha biabır edib yeri gəldi-gəlmədi paylaşmağa, "Nəsimiiiii qayıttt" çağırışları ilə car çəkməyə qətiyyən ehtiyac yoxdu.

İkincisi, niyə imkan vermirsiniz ki, insanlar təyinatı üzrə yaşasınlar və ölsünlər? Süni şəkildə insanların həyatını yönləndirmək istəyi, yumşaq desək, ədəbsizlikdi. Sosial şəbəkələrə girmək mümkün deyil. Allahın verən günü yığışıb gedirlər Nəsiminin qapısına. Alik Əlioğlu yaxşı yazmışdı: "Deyir, indi Nəsimi Nəbizadənin qardaşının evinin qarşısındayıq. Ekranı tıklayın. Mən ayıq başnan o adamların yanında 1 saat qala bilməzdim. Nəsimi, bacardığın qədər uzağa qaç".

Azərbaycanda tanımadığımız nə qədər adam bu illətdən əziyyət çəkir. Əksəriyyətinin yaxın ətrafı həmin şəxsin mübarizəsinə kömək edir. Sonda yorulub dayananlar da olur. Nəsimi Nəbizadəyə də köməklik olub.

Əl-qərəz, imkan verin sakit yaşayaq. Kim istifadə edir, kim etmir, əlavə dərdi-sərdi.

Həyatımıza adı olmayan problemləri əlavə etməyin.

# Azərbaycanda "Texniki kartof" iddiaları

## Azərbaycana idxal olunan kartofun keyfiyyəti ilə bağlı müzakirələr də az deyil

**Azərbaycanda kənd təsərrüfatında kartof istehsalı uzun illərdir strateji əhəmiyyət daşıyan sahələrdəndir. Kartof gündəlik istehlak səbətində əsas yer tutmaqla yanaşı, yüzlərlə fermer üçün mövsümi gəlir mənbəyi, dövlət üçün isə ərzaq təhlükəsizliyinin vacib komponentidir. Son illərdə istehsal həcmlərinin artması, ixrac göstəricilərinin genişlənməsi və subsidiya mexanizmlərinin tətbiqi kartofçuluqda müsbət dinamika yaratsa da, bazarın strukturunda qalıcı balansın formalaşmadığı açıq şəkildə görünür.**



Azərbaycana idxal olunan kartofun keyfiyyəti ilə bağlı müzakirələr də az deyil. Ölkəyə gətirilən kartofun "texniki kartof" olması, keyfiyyətsiz məhsul kimi bazara çıxarılması və ya heyvan yemi məqsədilə istehsal olunmuş kartofun istehlaka yönəldilməsi barədə iddialar ictimai narahatlıq yaradır. Bu iddialar təkcə istehlakçı davranışına deyil, həm də daxili istehsalın iqtisadi əsaslarına, idxal siyasətinə və dövlət nəzarət mexanizmlərinə dair sualları da aktuallaşdırır. Bir tərəfdən daxili istehsal mövsümi tələbatı qarşılaya bilir, digər tərəfdən isə saxlama imkanlarının məhdudluğu, maya dəyəri ilə bazar qiyməti arasındakı uyğunsuzluq, idxal təzyiqi və toxumçuluq problemləri bu sahəni riskli biznesə çevirir. Nəticədə, istehsalın davamlılığı təmin olunmur, bazar dövri olaraq xarici təklifdən asılı vəziyyətə düşür. Mövcud vəziyyət kartof bazarına yalnız istehsal həcmləri prizmasından deyil, həm də iqtisadi səmərəlilik, infrastruktur, keyfiyyətə nəzarət və tənzimləmə mexanizmləri kontekstində yanaşmağın zəruriliyini ortaya qoyur.

### Kartof növləri və istehsalda əsas rayonlar

Kartofçuluq sahəsindəki problemlərlə bağlı Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri Bəşir Quliyev apa-ya danışıb ki, ölkəmizdə istehlak olunan kartofun böyük hissəsi fevral ayının sonu, mart ayının əvvəli əkilir və iyun ayının sonundan yetişməyə başlayır:

"Avqustun ortasına qədər kartof yığılır. Kartof istehsal edilən əsas ərazilərimiz Tovuz, Qazax, Ağstafa, Şəmkir, İsmayıllı kimi dağətəyi rayonlardır. Söhbət sənaye üsulu ilə əkilən kartofdan gedir, dəmyə şəraitində əkiləndən yox. Bu, il boyu dükan və bazarlarda istehlak etdiyimiz yerli kartofdur. Azərbaycanda kartof istehsalının 90-95%-ni sənaye üsulu ilə istehsal təşkil edir.

Ölkədə ikinci əsas istehsal olunan kartof payızlıq kartofdur. Bu kartof payızın sonunda əkilir, martın sonundan çıxmağa başlayır. Belə kartof növü adətən cənub rayonlarında olur və faraş kartof adlanır. Faraş kartof daxili bazarda da satılır, amma əsasən ixrac olunan və saxlanılmayan kartofdur. Yəni bu kartof yetişdisə, 15 gün ərzində istehlak olunmalıdır. Bir də saxlanılan kartof var. Yəni o anbarlarda saxlanılır və ilboyu istehlak olunur".

### Daxili istehsalı artırmaq cəhdləri

B.Quliyev Azərbaycanda bir neçə il öncə daxili istehsalın artırılması istiqamətində atılan addımlara toxunub:

"Təxminən 2015-2016-cı illərdə ölkədə belə bir çağırış var idi ki, xaricdən idxal olunan məhsullara diqqət yetirək və onların yerli istehsalına başlayaq. Bütün səviyyələrdə danışılırdı ki, idxalın qarşısı daxili istehsalla alınmalıdır. O vaxt kartof istehsalçıları da bu çağırışa qoşuldular. Amma kartofun özünü istehsal etmək 40-45 qəpiyə başa gəlir. Yəni fevral ayında toxumları səpirsən, ona qulluq edirsən, sonra yığırsan və yekunda maya dəyəri 35-45 qəpik arası dəyişir. Bundan sonra həmin kartof 15 gün ərzində ya istehlak olunmalıdır, ya da aparılıb anbarlara qoyulmalıdır. İşin maraqlı tərəfi burada başlayır. Kartofu anbara qoymaq üçün kartof saxlama anbarı tikilməlidir. Müasir tipli və 8-9 ay ərzində kartofu saxlaya bilən belə anbarın tikilməsi min ton üçün təxminən 1 milyon manata başa gəlir. Bu, o deməkdir ki, siz anbara min ton kartof qoyub sonra onu çıxaranda yatırım etdiyiniz 1 milyon manatı geri götürmək üçün azı 4 il gözləməlisiniz. Dörd ilə o vəsaitin geri dönməsi üçün hər min ton kartofa görə 250 min manat mənfəət əldə etməlisiniz. Yəni kartof anbara daxil olub çıxarıldısa, gərək 25-30 qəpik baha satılsın.

***B.Quliyev bu cəhdlərin lazımi nəticəni vermədiyini deyib:***

"İş adamları həmin anbarları tikdilər. Avqust ayında kartofu yığdılar, sonra anbara qoydular ki, il ərzində satsınlar. Amma o kartofun qiyməti heç vaxt qalxmırdı. Çünki İranda kartof bizdən bir az gec, yəni sentyabr-oktyabr aylarında yetişir. Onlar məhsulu anbara qoymurlar. İranda kartofun maya dəyəri 35-45 qəpiyə başa gəlir. Bu zaman onlar elə sahədən məhsulu maşınlara yükləyirlər və təqribən 800 manat xərc edərək sərhədi keçib Azərbaycana gətirirlər. Həmin kartof ölkəmizdə satılır və qiyməti də həmişə Azərbaycan istehsalçısının istədiyi "45 qəpik + 25 qəpik" səviyyəsindən aşağı olur.

Daxili istehsalı qorumaq üçün bir neçə dəfə təkliflərlə çıxış edirdik ki, əgər istəyiriksə Azərbaycanda kartof istehsal olunsun, saxlanılsın və qış aylarında ölkədə öz yerli kartofumuz satılsın, onda mövsümi olaraq daxili istehsalı qorumalıyıq. Daxildə kartof varkən, xaricdən gətirməməliyik. Lakin hər zaman cavab alırdıq ki, bu, kartofun qiymətini qaldıracaq. Yaxud cavab alırdıq ki, bu, mümkün deyil, çünki dövlətlərarası sazişlər var".

### "Anbar tikintisi davamlı olmadı"

Müsahibimiz qeyd edib ki, uzun illər bu biznes mənfəət gətirmədiyinə görə inkişaf etmədi, yəni digər anbarlar tikilmədi:

"Nə tikildisə, zərərlə işlədi. Səmərəlilik olmadığına görə kartof saxlama anbarına sərmayə qoymaq sərf eləmir. Buna baxmayaraq, daxili istehsalın qorunması mexanizmləri tətbiq olunmadı. Cəmi bir dəfə tətbiq olundu, o da Prezident İlham Əliyevin qərarı ilə, 2017-ci ildə. O zaman, səhv etmirəmsə, İrandan idxal olunan kartofa 3 aylıq rüsum tətbiq edildi. Bu addım, doğrudan da daxili istehsalı qorudu. Daxildə istehsal olunan kartofların hamısı orta-yüksək qiymətə, yəni 80 qəpiyə satıldı. Amma qiymətlər kəskin yüksəlmədi. Çünki məhsul 80 qəpiyə satılırsa və mənfəət gətirirsə, istehsal artır. İstehsal artanda da təklif tələbi üstələyir və qiymətlər həmişə normal qalır.

Növbəti mərhələdə bir neçə böyük istehsalçı bu işdən çəkildi. Çünki sərf etmir. Sən istehsal etdiyin məhsulu saxlayıb satmalısan. Yəni avqust ayında istehsal edilən məhsulun yayda 15 gün saxlama müddəti var. Biz ya il ərzində istehlak olunan həcmi istehsal etməliyik ki, bu da 200 min tona yaxın kartof deməkdir, ya da ənənəvi həcmdə istehsal etdiyimiz kartofu 15 gün ərzində satmalıyıq. Ondan sonra da kartof qurtarır və xaricdən gətirilir. Xaricdən də gələndə onun gətirildiyi ölkədə qiymətinin dəyişməsindən və təklifindən asılı oluruq. Onun gətirildiyi ölkədə təklif azdırsa, burada tələb çoxdursa, qiymət qalxacaq".

### "Texniki kartof" iddialarına cavab

B.Quliyev xaricdən Azərbaycana gətirilən kartofun "texniki kartof" olması və ya istehsal olunarkən heyvan yemi üçün nəzərdə tutulması barədə iddialara da münasibət bildirib:

"Texniki kartof deyilən anlayış yoxdur. Çipsi istehsalı üçün olan kartof var, süfrəlik kartof var, salatlıq kartof var və sairə. Bir neçə sort var. Heyvandarlıq təsərrüfatı üçün kartof istehsal olunmur, belə bir kartof mövcud deyil. Bir də faraş kartof var. Bu, saxlanılmır, qabığı soyulan kartofdur.

Azərbaycana xaricdən keyfiyyətsiz kartof gətirilə bilər. Əvvəllər də gətirilirdi. Xəstə kartof da olurdu. Sonra həmin bitki mənşəli xəstəliklər ölkədə yayıla bilirdi. Amma bunun qarşısını Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) alır. AQTA məhsulu yoxlayır, bəzən geri qaytarır. O cəhətdən bu dəqiqə nəzarət var. Mən İrandan Azərbaycana texniki kartof gətirilməsi barədə deyilən iddialara inanmıram. Keyfiyyətsiz kartof gələ bilər, onun da qarşısını AQTA alır. Hər bir idxal olunan məhsuldan nümunələr götürülür, partiyalara baxış keçirilir, ondan sonra onun Azərbaycanda dövriyyəsinə və gömrük işlərinə icazə verilir".

Kənd təsərrüfatı üzrə ekspert Xaliq Məmmədov deyib ki, Azərbaycanda kartof erkən yazda yetişdirilir, həm daxili bazarda satılır, həm də ixrac olunur:

### "Texniki kartof idxalına inanmıram"

"İlin elə dövrü var ki, həmin vaxt kartof istehsalı müəyyən qədər az olduğu üçün çatışmazlıq yaranır. Bəzən regionlarda soyutma sistemləri kartofun 3-4 ay saxlanılması üçün texniki tələblərə cavab vermir. Ona görə də idxal zərurəti yaranır. Nəticədə Azərbaycana qonşu dövlətlərdən müəyyən dövrlərdə kartof idxal olunur. AQTA kartof idxal olunan zaman ona idxal icazəsi verir. Bu icazə veriləndə kartofun Azərbaycandakı standartlara uyğunluğu yoxlanılır. İrandan idxal olunan kartofun texniki kartof olmasına inanmıram. Bu, ağlabatan deyil. Texniki kartofu yetişdirən ölkələrin özlərinin ona kifayət qədər tələbatı olduğu üçün həmin kartofu ixrac etmək o qədər də məqsədəuyğun olmur.

Yaxşı olardı ki, aidiyyəti qurumlar ölkənin kartofa olan tələbatını dəqiq hesablasınlar və istehsalı da ona uyğun planlaşdırsınlar. Regionlarda kartof istehsalı iqlimə uyğun olaraq planlaşdırılmalı və soyuducu sistemlərə mütləq baxış keçirilməlidir. Məsələn, kartofun 3-4 ay saxlanılması üçün müəyyən temperatur rejimi var və soyuducu sistemlər ona uyğunlaşdırılmalıdır. Anbarlar və soyuducu sistem olmalıdır. Çox yaxşı olardı ki, bir öz istehsalımızı tələbatımız qədər həyata keçirək və idxal etməyək. Torpağımız var, insan resursumuz var, toxumçuluğu yaratmaq üçün kifayət qədər baza var. Ən azı yaxşı keyfiyyətli, yüksək reproduksiyalı toxumları idxal edib yetişdirmək olar".

### Problemlərin səbəbləri

X.Məmmədov daxili tələbatı ödəmək üçün kartof istehsalımızın kifayət qədər olmadığını deyib:

"Eyni zamanda, ənənəvi kartof istehsalçılarının bir qisminin maliyyə vəsaitinə əlçatanlığı yoxdur. Bəzi istehsalçıların isə torpağı var, istehsal edir, amma məhsuldarlığı aşağıdır. Bu gün Azərbaycanda kartofda orta məhsuldarlıq 15-17 tondur. Amma dünyada artıq 50-60 tondan aşağı məhsuldarlıq az sayılır. Problemin birinci səbəbi toxumdur. Məhsuldarlığın 40%-ni yaxşı toxumlar təmin edir, yəni reproduksiyası yüksək toxumlar. İkinci əsas səbəb aqrotexniki qaydalara düzgün riayət olunmamasıdır. Yəni müasir elmin təsdiq etdiyi və müasir dünyada mövcud olan maye gübrələrdən istifadə olunmur. Daha çox azotlu gübrələrdən istifadə edilir. Bu da məhsulu uzun müddət saxlamağa imkan vermir.

> "Azərbaycan kartof toxumunu əsasən idxal edir, yəni Rusiyadan və Türkiyədən idxal edirik"

Azərbaycan kartof toxumunu əsasən idxal edir, yəni Rusiyadan və Türkiyədən idxal edirik. Əvvəllər Avropa ölkələrindən də toxum gətirilirdi. Toxumçuluq sahəsində idxaldan asılılığı aradan qaldırmaq üçün özümüz toxum yetişdirməliyik. Bunun üçün də hər cür şərait var. Bu resursları düzgün birləşdirib toxum yetişdirməliyik ki, yerli istehsalçılar da onu götürüb kartof və ya başqa məhsullar istehsal etsinlər. Deməli, kartofa tələbat var ki, idxal var. İdxal isə onu göstərir ki, istehsal tələbatı təmin etmir".

### "Soyuducu sistemlər vacibdir"

X.Məmmədovun sözlərinə görə, Azərbaycanda kartofu uzun müddət saxlamaq olmur:

"Çünki lazımi saxlama şəraiti olmalıdır. Kartofu 3-4 ay saxlamaq üçün soyuducu sistemlər vacibdir. Mövcud soyuducu sistemlər monitorinqdən keçirilməlidir. Məsələn, Tovuz, Qazax, Ağstafa, Gədəbəy, Daşkəsən ərazilərində olan soyuducu sistemlər monitorinq olunmalıdır. Çünki kartof ən çox bu bölgələrimizdə istehsal olunur. Kartofu orada 3-4 ay saxlamaq üçün şəraitin olub-olmamasına baxılmalıdır. Yoxdursa, onu texniki cəhətdən uyğunlaşdırmaq lazımdır. Varsa, onda Kənd Təsərrüfatı Nazirliyinin yerli qurumları istehsalçıları birləşdirib həmin soyuducu sistemlərin işləmə prosesini tənzimləməlidir".

"Azərbaycan Prezidentinin bu sahəyə dəstəyi yüksək səviyyədədir. Azərbaycan dünyada kənd təsərrüfatını ən çox subsidiyalaşdıran dövlətlərdən biridir. Amma subsidiya alan təsərrüfat subyektləri aldıqları subsidiyaya görə məhsul ortaya qoyurmu? Yəni bizim xərclədiyimiz 1 manat subsidiya nə qədər məhsul yaradır? Bu, ciddi məsələdir. Azərbaycanda kənd təsərrüfatı məhsullarının subsidiyalaşdırılması yüksək səviyyədədir. Bəs subsidiyadan istifadə qaydaları? Bax, bu mübahisəli məsələdir", - deyə X.Məmmədov vurğulayıb.

### Rəsmi statistika

Kənd Təsərrüfatı Nazirliyindən verilən açıqlamada bildirilib ki, ötən ilin yanvar-noyabr aylarında Azərbaycanda 924,6 min ton kartof istehsal olunub:

"Bu isə 2024-cü ilin eyni dövrü ilə müqayisədə 0,5% çoxdur. Ötən ilin 11 ayı ərzində ölkədən kartofun ixrac həcmi 71,1 min ton olub. İxracın dəyər həcmi 28,3 milyon dollar təşkil edib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ixracda miqdara görə artım 47,3%, ixracda məbləğə görə artım isə 38,1% olub.

Ölkəmizdə kartof əkinləri subsidiyalaşdırılır. Aqrar Subsidiya Şurasının qərarına əsasən, əvvəlki ildə olduğu kimi, 2026-cı təsərrüfat ilində də müasir suvarma sistemləri ilə təchiz olunmuş sahələrdə kartof əkinləri üzrə fermerlərə hər hektara görə 360 manat subsidiya ödəniləcək. Müasir suvarma sistemləri ilə təchiz olunmamış sahələrdə kartof əkinləri üzrə isə fermerlərə 300 manat subsidiya ödənilməsi nəzərdə tutulur.

Bundan başqa, təkrar kartof əkinlərinə görə fermerlərə əlavə olaraq 120 AZN/hektar təkrar əkin subsidiyasının ödənilməsi qərara alınıb".

### İdxalda təhlükəsizlik tədbirləri

AQTA-dan verilən açıqlamada qeyd edilib ki, ötən il ərzində ölkəmizə Türkiyə, Gürcüstan, Pakistan, Rusiya və digər ölkələrlə yanaşı, İrandan da ərzaqlıq kartof idxal olunub:

"Bütün qida məhsullarında olduğu kimi, kartof məhsulu da qida sahəsində qüvvədə olan normativ aktların tələblərinə cavab verdiyi halda idxal sağlamlıq aktı ilə təmin olunur və dövriyyəyə icazə verilir.

İdxal olunan kartof məhsuluna fiziki nəzarət zamanı aparılan risk qiymətləndirilməsinə uyğun olaraq çirkləndiricilərin (ağır metallar, nitratlar), pestisid qalıqlarının, GMO göstəricilərinin, habelə karantin tətbiq edilən zərərli orqanizmlərin mövcudluğu yoxlanılır".

### Yekun nəticə

Mövcud mənzərə göstərir ki, Azərbaycanda kartof istehsalı həcmi baxımından potensiala malik olsa da, iqtisadi davamlılıq baxımından struktur problemlərlə üz-üzədir. Saxlama infrastrukturu, toxumçuluq bazası, məhsuldarlıq və mövsümi tənzimləmə mexanizmləri bir-birindən ayrı deyil, kompleks şəkildə idarə olunmalıdır.

Əgər daxili tələbat dəqiq hesablanar, istehsal regionlar üzrə iqlimə uyğun planlaşdırılar, saxlama və soyutma sistemləri modernləşdirilər və subsidiya mexanizmləri məhsul nəticəsinə bağlanarsa, kartofçuluq həm fermer, həm biznes, həm də istehlakçı üçün daha stabil sahəyə çevrilə bilər. Əks halda bazar hər il eyni dövri asılılıq və qiymət dalğalanmaları ilə qarşılaşmağa davam edəcək.



# Mentalitetin qiyməti neçəyədir?

## Abır-həyanı cərimə ilə qorumaq mümkündürmü???

**Deyirlər ki, Azərbaycanda qulaq gündə bir qəribə qanun (söz) eşitməsə, kar olar. Hər gün nəsə bir "yenilik", hər gün nəsə ağıla gəlməyən bir təklif... Amma bu dəfə ortaya atılan məsələ insanı həm güldürür, həm də ciddi şəkildə düşündürür. Bəli, vəziyyət belədir ki, artıq "efiri podiuma çevirənlərdən" də pul çıxarmağın yolları tapıldı!**

Məlumata görə, insan bədəninin "mənəvi dəyərlərə uyğun olmayan şəkildə nümayişini" qadağan edən qanun layihəsi Milli Məclisə təqdim olunub. Qəbul olunacaq, ya yox, hələ bəlli deyil. Amma son zamanlar müşahidə etdiklərimizə baxsaq, çox güman ki, qəbul olunacaq. Layihəyə görə, efirdə açıq-saçıq geyimdə görünənlərə 500 manatdan 1000 manata qədər cərimə tətbiq olunacaq. Yəni, sən efirə çıxırsan, açıq geyinmək istəyirsənsə, problem deyil, pulunu ver və lütətcəbala efirə çıx. Məntiqlə belə çıxır. Bax belə... Tutaq ki, qanun qəbul edildi. Onda maraqlıdır, sabah küçədə, toyda, şənliklərdə açıq-saçıq geyinənləri də cərimələyəcəklərmi? Belə çıxır ki, insanlar hər addımda polislə üz-üzə dayanmalıdır? Hökumətlə "hökumətlik" etməyəcəklər ki... Ona görə də camaat susacaq, cərimərsini ödəyib yoluna davam edəcək. Yekunda da deyəcəklər: "Oy, nə yaxşı qanundur, mentalitetimizi qoruyur."

Amma mən düşünürəm ki, bu qanun mentaliteti qorumaq üçün atılmış addım deyil. Bu, sadəcə, pul toplamağın yeni üsuludur və əla düşünüblər. Əgər məqsəd doğrudan da efirdə açıq-saçıq geyimlərin qarşısını almaqdırsa, cərimə kəsiləcək şəxs efirə çıxan yox, əlesini efirə buraxan rəhbər cərimə olunmalıdır. Tutaq ki, desinlər: "Açıq-saçıq kadra imkan verən kanal rəhbərinə cərimə düşür." O zaman görərdik ki, hansı rəhbər öz cibinin zərərinə bu riskə gedər. İnanın ki, o rəhbər öz cibindən pul çıxacağına görə, bir nəfəri də "lüt" kadrı efirə buraxmaz. Bir sözlə, bu üsul işləyərdi. Deməli, məqsəd o deyil.

***

Mənə elə gəlir ki, bu qanun qəbul olunmayacaq. Çünki əgər qəbul olunsa, estetik əməliyyatlar apararaq efirə çıxan o xanımları sıfırdan yığan məşhur klinikaların yarısı bağlanmalı olar və plastik cərrahlar acından ölər... Axı efirdə öz bədən quruluşunu nümayiş etdirən tanınmış simalar həmin klinikaların əsas reklam vasitəsi və çörək ağacıdır. Nəzərə alsaq ki, bu klinikaların hərəsi bir məmura bağlıdır, onda qəti demək olar ki, o qanun qəbul olunmayacaq. Bu "şişirtmə", "böyütmə", "pop formalaşdırma", bədənşəkilləndirmə... əməliyyatlarının böyük hissəsi elə efirdə nümayiş olunan "məhsullar" hesabına populyarlaşır. Nəticədə elə bil ki, ölkə üzrə "pop yarışı" başlayıb və hamısı inkubator cücələri kimi bir-birinə oxşayır. Gözünü televiziyaya dikən hər evdar qadın isə, birdən-birə fərqli bir obrazda bayıra çıxır və adam haqlı olaraq heyrət edir: "Bu da özünü bu günə qoydu?"

> Nəticədə belə qənaət ortaya çıxır: biz artıq mentalitetimizi də pula satırıq

Axı nəyə lazımdır bu qədər iyrənc vizuallar? "Quyruqlu qoyun" kimi özünü efirə çıxarmağın cəmiyyətə nə xeyri var? Hamı da yaxşı bilir ki, bu görüntülərin arxasında hansı "məqsəd" dayanır. Bəli, açığını desək, bunun bir adı var: "Səsi, səməti olmadığından bu yolla özünü reklam edib sponsor tapmaq". Axı bunun başqa nə adı ola bilər ki?! Pop düzəltmək, bədəni, dodağı şişirtmək, sonra da efirə

Maraqlı vəziyyət yaranır: sən 500 manat cəriməni ödəyirsən və elə həmin açıq geyimdə yenidən efirə çıxırsan. Yəni, pulu verən mentaliteti pozmaqda davam edir. Bu necə dəyərlərə xidmət etməkdir? Əgər doğrudan da mentalitet qorunmalı idisə, əvvəlcə kanallara tapşırılardı ki, belə kadrlara efir verilməsin. Əvvəl efir siyasəti sərtləşdirilər, sonra da lazım gələrsə, əlavə mexanizmlər tətbiq edilərdi. Amma bu addım atılmayıb və birbaşa vətəndaşa cərimə kəsilirsə, sual yaranır: bəs məqsəd nədir?

***

Bu layihəni ortaya atanlar çox yaxşı bilirlər ki, məsələnin kökündə pul dayanır. Gecə-gündüz oturub fikirləşirlər ki, daha hansı yeni sahədən necə "gəlir" götürmək olar. Axtarırlar, tapırlar, sonra da qanun layihəsi kimi təqdim edirlər: "Bax, burada yaxşı pul var. Bu üsulla da babat gəlir əldə etmək olar".

Bir də işin ən acınacaqlı tərəfi odur ki, bu proses həm də dolayısı ilə "həcilərı də vurur". Özləri üçün nəzərdə tutduqları cərimə 500 manat idisə, bu qanun qəbul edilərsə, 1000 manata yüksələcək. Yəni, əsas güc "həci"nin üstünə düşəcək. O da belə deyəcək: "Buyur, bu da mentalitetin qiyməti". Yəni, pulunu verən, efirə də necə istəsə elə də çıxacaq, imicini də saxlayacaq, mentaliteti də "cibində daşıyacaq".

Nəticədə belə qənaət ortaya çıxır: biz artıq mentalitetimizi də pula satırıq. Bir sözlə: pulunu ver, mentaliteti, yəni papağını yerə sox. Elə bu qədər açıq və acı həqiqət.

***

Eh, pul, pul... Sən nə böyük qüvvəsənmiş ki, dəyərləri də əyirsən, qaydanı da dəyişirsən, mentaliteti də, qanunu da satın alırsan. Görünən odur ki, bu gedişlə cəmiyyət də, efirlər də, dəyərlər də "pulun istəyinə uyğun" formalaşacaq və necə ki formalaşır...

çıxıb nümayiş etdirmək... Sanki efirlər bəzilərinin şəxsi reklam meydanına çevrilib. Ona görə də düşünürəm ki, bəlkə də bu qanun, bilərəkdən qəbul olunmayacaq. Çünki qəbul olunsa, həm bəzi sahələr öz reklam imkanını itirəcək, həm də bu "külli miqdarda gəlir dairəsinin" fəaliyyəti dayanacaq.

Bilmək olmaz, bəlkə də tam əksi baş verəcək və qanun qəbul olunacaq. Çünki o qanunu qəbul edəcək insanların arasında yetərincə abırhəyanı qoruyan, mentalitetimizə hörmər edən və ona saygı göstərənlər də var. Artıq adam çaşıb qalıb, nə fikirləşəcəyini də bilmir. Axı məntiqli olanla edilən arasında ciddi fərq var. Yenə də deyirəm: məsələnin adı var, büdcəni bu dəfə, əsasən də şou əhli xanımlardan yığılacaq cərimələr hesabına doldurmaq.

**Masazır qəsəbəsində yerləşən, görkəmli qəzəlxan Əliağa Vahidin büstü ətrafında vəziyyət yenidən biabırçı həddə çatıb. "Təzadlar" bir müddət əvvəl sakinlərin şikayəti əsasında məsələni işıqlandırmış, foto və video materialları Abşeron Rayon İcra Hakimiyyətinə təqdim etmişdik. Həmin vaxt məsul qurumlar tərəfindən formal xarakter daşıyan, görüntü naminə keçirilmiş qısa müddətli "təmizlik aksiyası" baş tutdu, ərazi guya səliqəyə salındı. Amma çox keçmədi ki, hər şey yenidən əvvəlki halına qayıtdı.**

# Əliağa Vahidin büstü niyə qəsdən zibillənir?- ABŞERONUN BAŞÇISI HARA BAXIR?

*Artıq üçüncü yazıdır ki, bu problemi gündəmə gətiririk, amma biabırçılıq davam edir...*




Bu gün isə vəziyyət daha da acınacaqlıdır: büstün ətrafı yenidən zibil içindədir. Bəli, doğru başa düşdünüz, bu barədə sakinlərin şikayəti əsasında artıq üçüncü yazıdır ki, hazırlayırıq, lakin bir nəticə yoxdur! Əliağa Vahidin büstünün ətrafının biləbilə, qəsdən, kimlər tərəfindənsə zibilləndiyinin şahidi oluruq. Azərbaycanın dahi söz ustasına, "XX əsrin Füzulisi" adlandırılan Əliağa Vahidə münasibət beləmi olmalıdır?

***

Ərazidəki mənzərə adi bir zibilxananı xatırladır. Bu, təkcə bir sənətkara yox, bütövlükdə milli mədəniyyətimizə qarşı açıq hörmətsizlikdir. Təəssüf ki, bu fikirlər əvvəlki yazılarımızda olduğu kimi bu gün də aktuallığını qoruyur.

> Biz yazdıqca, xəbərdarlıq etdikcə vəziyyət düzəlmək əvəzinə daha da pisləşir

Artıq foto və videogörüntüdən də aydın olur ki, kimsə bu mövzuda bizimlə prinsipə girib. Yeni foto və video görüntülər açıq şəkildə göstərir ki, sanki kimlərsə qəsdən demək istəyir: "Siz nə yazırsınız-yazın, biz yenə də öz bildiyimizi edəcəyik və bu büstü zibilləməkdə davam edəcəyik."

Biz yazdıqca, xəbərdarlıq etdikcə vəziyyət düzəlmək əvəzinə daha da pisləşir. Bəzi mədəniyyətsiz və məsuliyyətsiz şəxslər bunu əksinə anlayır, elə bil düşünürlər ki, buraya zibil atmaq olar, hətta lazımdır. Sanki Əliağa Vahidin büstü onların gözündə hörmət yeri yox, zibil atmaq üçün bir nöqtədir.

Bu mövzuda yazmaqdan artıq bezmişik. Elə bir həddə çatıb ki, bu haqda yazmaqdan klaviaturamızın düymələri də bezib... Eyni sözləri təkrar-təkrar deməkdən boğazımız quruyub. Amma görünür, başqa yol da qalmayıb.

Bu artıq təsadüf deyil, təkrar olunan, məqsədli davranışdır. Əgər bu vandalizm davam edərsə, ərazidə atılan tullantılarla bağlı araşdırma aparılacaq, zibilin mənbəyi müəyyənləşdiriləcək. Kim bu biabırçılığın arxasındadırsa, aşkara çıxarılmalı və qanunvericiliyin verdiyi imkanlar çərçivəsində cərimələnməlidir. Bəlkə onda kiminsə ağlına gələr ki, bu ölkənin böyük qəzəlxanının büstünü zibilləmək olmaz.

Bir daha, artıq neçə dəfə "son dəfə" dediyimizi özümüz də xatırlamırıq, yenə səslənirik...

Abşeron Rayon İcra Hakimiyyəti, Masazır Bələdiyyəsi, aidiyyəti qurumlar! Bu biabırçılığa nəhayət ki, son qoyun. Bu, təkcə bir büstün yox, milli dəyərlərə münasibətin göstəricisidir. Əgər bir sənətkarın adını daşıyan abidənin ətrafını qorumaq mümkün deyilsə, deməli, problem təkcə zibil atanlarda yox, illərlə göz yumanlardadır. Axı niyə bu qədər mədəniyyətsizlik, bu qədər laqeydlik? Niyə Masazırda doğulub boyabaşa çatmış bir qəzəlxanın xatirəsinə bu cür münasibət göstərilir?

**Son və açıq çağırış!**

"Bir daha, son dəfə səslənirik" deməkdən bezmişik. Amma yenə də deyirik, bəlkə də həqiqətən son dəfə. Abşeron Rayon İcra Hakimiyyətinə, Masazır Bələdiyyəsinə, şəxsən bələdiyyə sədri Azər Quliyevə çağırış edirik: bu biabırçılığa dərhal və köklü şəkildə son qoyun. Bir günlük "təmizlik şousu" ilə yox, davamlı nəzarət, real məsuliyyət və cəza mexanizmi ilə. Ərazi polis bölməsinin PPX xidmətçiləri hara baxır bəs?! Əgər bir sənətkarın büstünün 3-5 metr ətrafını belə qoruya bilmiriksə, deməli! dəyərlərimizi itiririk. Bu isə artıq təkcə bələdiyyənin yox, cəmiyyət olaraq hamımızın ayıbıdır. Amma unutmayın: biz bu mövzunu buraxmayacağıq. Ta ki, Əliağa Vahidin büstü zibilxana yox, layiq olduğu kimi hörmət məkanına çevriləcək!

Səhifəni hazırladı: Elşad FƏRMANOĞLU

# TƏZADLAR

01 (2397) 13.01.2026

www.tezadlar.az


## Həftəbecər



Müğənni Röya Ayxan “Pərvizə görə” proqramında Aygün Kazımova ilə aralarında olan küsülülükdən danışarkən belə deyib: “Aygün Kazımova ilə aramızı elə maqazin verilişləri vurdu. O vaxtlar çıxıb demişəm ki, 40 yaşın var, sənin vaxtın gedib. İndi özümün 45 yaşım var. Həmin söz yadıma düşəndə ölürəm. Deyirəm, nə axmaq adam olmuşam”.

***P.S. Əgər Röya axmaq olmağını 45 yaşında dərk edibsə, yenə min şükür. Bəs, görəsən Röya sosial şəbəkələrdə olan açıq-saçıq, lüt video və şəkillərinin varlığının axmaqlıq olmasını nə vaxt dərk edəcək? Axı, onun indi Ali məktəbə daxil olan böyük oğlu var. 45 yaşında da bu axmaqlığı dərk edə bilmirsə, onda məşhur atalar sözü yada düşür: “40-da öyrənən, gorunda çalar”.***

***

Yeni il başlayan kimi dünya şoka düşdü. 30 milyon əhalisi olan Venesuelanın prezidenti Nikola Maduro və xanımı evdə yatdıqları yerdən ABŞ-ın xüsusi təyinatlıları tərəfindən oğurlanaraq, Amerika həbsxanasına aparılıb.

***P.S. Pah atonnan ə... İşə bax e, mən ölüm. İndi bu İranın dini liderini necə sakitləşdirə bilərik? Trampın da Allah xasiyyətini kəssin. Aparırsan gəl apar də bunu. Özünün də canı dincəlsin, İran xalqının da.***

***

Məlum olduğu kimi, ötən ilin noyabrın 12-də Nəsimi rayon İcra Hakimiyyətinin başçısı təyin edilən gənc kadr Elxan İbrahimov 47 gündən sonra vəzifəsindən qovulub. Bundan əvvəl isə, E.İbrahimov 3 il 9 ay Kürdəmir RİH-in başçısı işləyib. Məlumatlara görə, E.İbrahimov Nəsimi rayonu ərazisində fəaliyyət göstərən iş adamlarından külli miqdarda pul və icra hakimiyyətinin əksər işçilərindən işdən çıxma haqqında könüllü ərizə yazmağı tələb etdiyinə görə, hakimiyyətinin ömrü 47 gün çəkib.

***P.S. Bu da sənə gənc kadr. Sonra da deyirlər gənc kadrlara meydan verilmir. Görünür bu gənc kadr Kürdəmirdə yığdığı pullarla sandığı tam doldura bilməyib. İstəyib ki, Nəsimi rayonunda sandığı tamam doldursun və ağzını bağlayıb, üstündə rahat otursun. Qoydular ki... Bu dəfə şahlığı cəmi 47 gün çəkdi və sandıq yenə yarımçıq qaldı. Deyirəm, gənc olasan, özün də belə iştahlı? Deyilənə görə, rus və ingilis dillərini yaxşı bilirmiş. Amma bu da köməyinə çatmayıb. Əsas xalqın dilini bilməkdir, ay Elxan müəllim, xalqın. Xalqın dilini bilməyəndə isə, adamı iti qovan kimi qovurlar. Necə ki, səni qovdular, ay Elxan müəllim.***

***

“Qoşa çinarlar” mahnısının söz və musiqi müəllifi olan İsrail Məmmədov bu mahnını oxuyan Ülviyyə Namazovanın haqqında efirlərin birində söylədiyi sərt sözlərlə gündəmə gəlib. Belə ki, İsrail bəy Ülviyyə xanımın ünvanına “tərbiyəsiz”, “pis qız” kimi ifadələr səsləndirib.

***P.S. Bir müğənni xanım üçün çox***



***ağır ifadələrdir. Bəs görəsən, İsrail bəyi belə kəskin ifadələr işlətməyə nə məcbur edib? Bəlkə, Ülviyyə xanımın ötən il efirlərin birində dediyi “ailəli kişidən uşaq dünyaya gətirmişəm” fikirlərinə görə ona “tərbiyəsiz”, “pis qız” - deyir? Mənim fikrimcə Ülviyyə xanımın bu etirafında heç bir tərbiyəsizlik yoxdur. Necə deyərlər, sevgi azaddır. İndi Ülviyyə xanım da azad sevgi nəticəsində bir evli kişiyə vurulubsa və ondan uşaq dünyaya gətiribsə, burada qəbahət olan nədir axı? Ülviyyə xanım kişi qızı kimi bunu özü də, mərdi-mərdanə etiraf edir dəə... gizlətmir ki. Bəs onda İsrail bəy Ülviyyə Namazovaya niyə “tərbiyəsiz”, “pis qız” - deməlidir? Nə deyim, vallah? Qalmışam mat-məəttəl ki, gül kimi abırlı, həyalı, namuslu bir xanımın ünvanına niyə belə desin axı? Əşi, bu İsrail Məmmədov heç yaxşı hərəkət eləməyib, mən ölüm.***

***

Məlumatlara görə, 2017-ci ildən bəri kərə yağına 5 faiz tədbiq olunan idxal rüsumu, bu ildən 15 faizə qaldırılır. Deməli, kərə yağı babat bahalaşacaq.

***P.S. Gözümüz aydın olsun. Kərə yağı yeməkdən də imtina etməli olacağıq. Qadasın alaram, ürək damarlarını tromp edən və bununla da ürək-damar xəstəliklərini çoxaldan keyfiyyətsiz, saxta kərə və sintetik duru yağların. Maraqlıdır, elə bir ucdan eşidirik ki, filan məhsulun qiyməti qalxacaq və qalxır da. Görəsən, Tarif Şurası elə alinə düşən hər şeyi qaldırmaqla məşğuldur? Bu zəhrimar qiymətin heç ölüb, aşağı düşən vaxtı olmur?***

***

Çeçenistan prezidentinin köməkçisi və Təhlükəsizlik Şurasının katibi Ramzan Kadırovun 19 yaşlı oğlu Adam Kadırov başından böyük danışmağıyla gündəmə gəlib. V.Zelenski barədə danışarkən bu belə deyib: “Əgər Ali Ali Baş Komandan Vladimir Vladimirviç Putin və ya atam bir fətva versə, biz səni istənilən yerdə tapacağıq. Heç bir əməliyyat elan edilməyəcək. Biz, sadəcə, gələcəyik və səni aparacağıq”.

***P.S. Heyranına şükr, ya Rəbbim. Burnu fırtıqlı bir uşağın “xox” gəlməyinə bax e, mən ölüm. Evin yıxılsın, ay Zelenski, üstünə İrasim gələər. Deyilənə görə, bu sözləri eşidən V.Zelenski qorxudan sarılıq xəstəliyinə tutulub. Adama deyərlər, a gədə, hər zaman Zelenski barədə səndən də betər basıb-bağlayan dədən indiyə qədər heç nə edə bilməyib. Əksinə, Zelenski artıq bir neçə dəfə Çeçenistanın neçə-neçə strateji əhəmiyyətli obyektini vurub, dağıdıb. Amma Zelenskini asıb-kəsən dədən Ramzan Kadırov heç “mık” eləyə bilməyib.***

***

Xəbər verilir ki, “A taksi” MMC adlı yerli taksi şirkəti iflasa uğrayaraq,fəaliyyətini dayandırdı.

***P.S. Deyəsən, İqtisadiyyat naziri Mikayıl Cabbarov and içib ki, Azərbaycanda bir dənə də olsun, yerli taksi şirkətini işləməyə qoymayacaq. Halaldır, mən ölüm.***

***

Əməkdar artist xanəndə sayılan Nigar Şabanova “Tarixin bir günü” verilişində ailə-uşaq haqqında danışarkən belə deyib: “Ailə qurmadan da uşaq sahibi olmaq mümkündür”. Xanəndə bu sözlərinə görə sosial şəbəkələrdə babat tənqid atəşinə tuş gəlib.

***P.S. Çox nahaq! Burada qəribə nə var ki? Belə məsələlərdə biz artıq Avropanı ötüb keçmişik. Ona görə də Masallıda yaşayan şair İlham Dadaşov haqlı olaraq belə yazıb:***

*“Ar-namus dəbdə deyil, indi biz avropalıyıq,*
*Rədd eləyib paltarı, lüt bədənə baxmalıyıq.*
*Məcramızı dəyişib, Qərbə tərəf axmalıyıq...”*

İndi biz də Qərbə tərəf axırıq dayna. Bu səbəbdən də ötən il müğənni sayılan Ülviyyə Namazova efirlərin birindən bildirmişdi ki, “ailəli kişidən uşaq dünyaya gətirmişəm”. Müğənni sayılan Sevinc Ağaşirinova isə deyirdi ki, “həyatımda olan kişi getməlidir ki, görüm növbəti kim gəlir” və s. Belə olan surətdə abır-həyanı, ar-namusu, vicdanı, şərəfi, mənliyi zibil qutusuna atıb, ailə qurmadan da, nə qədər desən uşaq dünyaya gətirmək olar. Artıq efirlərimiz müxtəlif... xanalara dönüb. Ona görə də Nigar Şabanovanı qınamağa dəyməz, ətövbə.

***

Müğənni sayılan Təranə Qumral və Musa Musayevin müğənnilik edən qızları Qumral qonaq olduğu “Rəngarəng” verilişində sənətkarlıqdan danışarkən belə deyib: “Mən dedim ki, indi sənətkaram. Ancaq bir neçə ildən sonra olacağam. Hazırda 37 yaşım var. 50 yaşımda sənətkar olacağam”.



***P.S. Ay Qumral xanım, Allah səni saxlasın. 37 yaşa qədər sənətkar olmamısansa, bundan sonra da ola bilməyəcəksən. Sənətkarlıq insanla bir yerdə doğulur. Bu isə, özün də etiraf edirsən ki, indiyə qədər səndə olmayıb. Necə ki, sənin müğənni atan və anan 60 yaşı haqlayıblar, amma hələ də sənətkar ola bilməyiblər. Sən də 40 yaşını daha haqlamısan. Amma ortada hələ sənət deyilən bir şey yoxdur. 40-da öyrənməyin məsələsini də özün bilirsən də.***






ELÇİN
elcinmemmedli
58@gmail.com



Baş redaktor:
Asif Mərzili

*Redaksiya heyəti:*
Bəxtiyar Vahabzadə
(www.Vahabzade.net)
Məmməd Araz
Nurəddin Rza
İlham Rəhimov
Yaşar Əliyev
Yusif Səmədov
Adil Minbaşı

Qəzet “Təzadlar”ın kompüter mərkəzində yığılıb səhifələnib.
Ünvan: Bakı, Mətbuat prospekti, 529-u məhəllə
Tel: 510-17-74
E-mail: tezadlar@gmail.com
www.tezadlar.az
TƏSİSÇİ: Redaksiyanın jurnalist kollektivi.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Yazılardakı faktlara cavabdeh müəlliflərdir. Əlyazmalar geri qaytarılmır.

Lisenziya: № B 216

“Təzadlar” qəzetinin hesab nömrəsi:
AZ80AIIB38070019441100467111
VÖEN: 1300456291

Bankın adı:
“Kapital Bank” ASC-nin 1 saylı Nəsimi rayon filialı
Kod: 200112
VÖEN: 9900003611
Müxbir hesabı:
AZ37NABZ01350100000000001944
SWİFT BİK: AIIBAZ2X
Tiraj: 1233
Çapa imzalanmışdır:
12.01.2026